# 18 Oktyabr Dövlət Müstəqilliyinin Bərpası Günüdür

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 224 (30918) 18 oktyabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## 18 oktyabr 2020-ci il:

## Xudafərin körpüsü əsarətdən qurtuldu

*Azərbaycan Prezidenti İlham ƏLİYEV:*

**Bir daha bütün dünyaya sübut edəcəyik ki, biz böyük xalqıq. Biz qayıtmışıq, vuruşa-vuruşa qayıtmışıq. Heç kim bizə bu torpaqları bağışlamayıb. Heç bir beynəlxalq təşkilat təcavüzkara təzyiq göstərməyib. Heç kim onlardan tələb etməyib ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etsin.**

**Düşmən oğru, əxlaqsız, vicdansız bir düşməndir. Mən bir daha demək istəyirəm ki, bizim parlaq Qələbəmiz təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası deyil. Bu, şərlə xeyir qüvvələrinin mübarizəsidir. Şər qüvvələri məğlub olub, amma biz qalib gəlmişik.**

**Haqq-ədalət zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu zəfər çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və əbədi dalğalanacaq.**



## Ararat Mirzoyanın vurğuladığı 3 məqam



Səhifə ⇨ 9

## Statistika xidməti yeniləşir, müasirləşir




Səhifə ⇨ 10

## "Avropa Siyasi Birliyi" – Azərbaycan: strateji maraqların sinxronluğu



Səhifə ⇨ 9

## Müstəqilliyin bərpası dövlətçilik tariximizi xalqımıza qaytardı




Səhifə ⇨ 7

## Aİ–Azərbaycan münasibətlərində dəyər və maraqların vəhdəti



**Son illər Avropa İttifaqı–Azərbaycan münasibətlərinin məzmunu dərin transformasiya keçirib. Əgər əvvəllər bu əlaqələrin təməli enerji diplomatiyası idisə, indi qarşılıqlı maraqlar siyasi sabitlik, iqtisadi inteqrasiya və institusional koordinasiya istiqamətində genişlənir. Yeni mərhələnin mahiyyəti ondan ibarətdir ki, tərəflər bir-birini tamamlayan sistemlər kimi davranır: Avropa İttifaqı (Aİ) üçün Azərbaycan Cənubi Qafqazda dayanıqlı sabitliyin mərkəzi koordinatı, Azərbaycan üçün Aİ müasir beynəlxalq nizamla əlaqə körpüsüdür.**

*(ardı 7-ci səhifədə)*

## İnkişaf yolunun rəqəmsal mənzərəsi



Səhifə ⇨ 10

## DOST Azərbaycana dünyada da dostlar qazandırır



Səhifə ⇨ 14

# “Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Komissiya haqqında Əsasnamə”nin və “Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Komissiyanın tərkibi”nin təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** “Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Komissiya haqqında Əsasnamə” təsdiq edilsin *(əlavə olunur)*.

**2.** “Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Komissiyanın tərkibi” təsdiq edilsin *(əlavə olunur)*.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 oktyabr 2025-ci il**

*Azərbaycan Respublikası Prezidentinin 17 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Komissiya haqqında
# ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Azərbaycan Respublikasında hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində strateji məqsədlərin müəyyən edilməsi və dövlət orqanlarının (qurumlarının) işinin əlaqələndirilməsi, habelə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 mart tarixli 520 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Dövlət Proqramı”nda (bundan sonra – Dövlət Proqramı) nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarəti həyata keçirən Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Komissiyanın (bundan sonra – Komissiya) fəaliyyət istiqamətlərini, hüquq və vəzifələrini və fəaliyyətinin təşkili ilə bağlı digər məsələləri tənzimləyir.

1.2. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Konvensiyanı, həmin Konvensiyaya 9 nömrəli Əlavə – “Rəsmiyyətin sadələşdirilməsi” sənədini, “Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında” 1974-cü il 25 sentyabr tarixli Beynəlxalq Konvensiyanın (dəyişdirilmiş redaksiyada 1999-cu il iyunun 26-da Brüssel şəhərində qəbul edilmişdir) “J Xüsusi prosedurlar” adlı Xüsusi Əlavəsi ilə müəyyən olunmuş beynəlxalq standartları və tövsiyə olunan təcrübəni, Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələri, “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının digər qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını rəhbər tutur.

1.3. Komissiya öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir və öz fəaliyyətində qanunçuluq, qərəzsizlik, obyektivlik, müstəqillik və peşəkarlıq prinsiplərini rəhbər tutur.

1.4. Komissiyanın üzərində adı həkk olunmuş blankı, ştampları və möhürü vardır.

### 2. Komissiyanın fəaliyyət istiqamətləri

2.1. Komissiya aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.1.1. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi və əməliyyatların səmərəliliyinin artırılması;

2.1.2. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsi ilə bağlı fəaliyyətin təşkili, mütəmadi təhlillər aparılması və qabaqlayıcı tədbirlər görülməsi üçün təkliflərin hazırlanması;

2.1.3. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) işinin əlaqələndirilməsi, birgə tədbirlərin planlaşdırılması və həyata keçirilməsi;

2.1.4. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində beynəlxalq standartların və tövsiyə olunan təcrübənin həyata keçirilməsinin təmin edilməsi;

2.1.5. mülki aviasiyada xidmətin səmərəliliyini və keyfiyyətini artırmaqla yanaşı, hava gəmiləri parkının, hava gəmisi heyətinin, sərnişinlərin, yükün, baqajın, poçt və bort ehtiyatlarının hərəkətini sadələşdirmək məqsədilə əsassız maneələri və gecikmələri aradan qaldırmaqla proseslərin və prosedurların təkmilləşdirilməsi;

2.1.6. beynəlxalq təcrübə nəzərə alınmaqla, hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və tətbiqi sahəsində əlaqələndirmə işinin təşkili.

### 3. Komissiyanın vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Komissiyanın vəzifələri aşağıdakılardır:

3.1.1. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinə nəzarəti təmin etmək;

3.1.2. hava daşımaları üzrə əsassız maneələrin və gecikmələrin aradan qaldırılması, mülki aviasiyada xidmətin səmərəliliyini və keyfiyyətini yüksəltmək;

3.1.3. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

3.1.4. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində dövlət orqanlarının (qurumlarının), hüquqi və fiziki şəxslərin, beynəlxalq təşkilatların tövsiyələrinə baxmaq;

3.1.5. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində nəzarət və icra prosedurlarının beynəlxalq standartlara və tövsiyə olunan təcrübəyə uyğunlaşdırılması üçün təkliflər vermək;

3.1.6. Dövlət Proqramının həyata keçirilməsinə cəlb edilmiş hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində fəaliyyət göstərən dövlət qurumlarının (orqanlarının), xidmət təminatçılarının və yerüstü xidmət təminatçılarının fəaliyyətinin əlaqələndirilməsini və hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi üzrə birgə fəaliyyətini təşkil etmək;

3.1.7. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi ilə bağlı dəyişiklik barədə aidiyyəti dövlət orqanlarını (qurumlarını), hüquqi və fiziki şəxsləri məlumatlandırmaq;

3.1.8. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi ilə bağlı strateji məqsədləri müəyyən etmək;

3.1.9. hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi ilə bağlı aidiyyəti dövlət orqanlarının (qurumlarının) yerinə yetirəcəkləri qabaqlayıcı əməliyyat tədbirlərinin vaxtında planlaşdırılmasını təşkil etmək;

3.1.10. məxfi məlumatlarla iş qaydasını və onların mühafizəsini “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təmin etmək;

3.1.11. Dövlət Proqramı ilə müəyyən edilmiş tədbirlər planının icrası çərçivəsində həyata keçirilən monitorinqin nəticəsi barədə aidiyyəti üzrə məlumatlar almaq, habelə hava daşımaları üzrə əməliyyatların səmərəliliyinin artırılmasını tələb etmək;

3.1.12. hava limanlarında (aeroportlarda) yaradılan hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair komissiyalara tövsiyələr vermək və onların fəaliyyətinə nəzarəti həyata keçirmək.

### 4. Komissiyanın hüquqları

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Komissiyanın aşağıdakı hüquqları vardır:

4.1.1. Dövlət Proqramının icrasına cəlb edilmiş dövlət orqanlarının (qurumlarının) qarşılıqlı əlaqədə fəaliyyət göstərməsi məqsədilə müvafiq təlimlər təşkil etmək;

4.1.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair tövsiyələr vermək;

4.1.3. hava limanının (aeroportun) mövcud şəraitini və inkişaf perspektivini nəzərə almaqla, normativ hüquqi aktlarda nəzərdə tutulmuş tələblərin həyata keçirilməsində iştirak edən dövlət orqanlarının (qurumlarının), idarə, müəssisə və təşkilatların, hava limanlarının (aeroportların), hava gəmisi istismarçılarının hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi ilə bağlı fəaliyyətini əlaqələndirmək məqsədilə işçi qruplar və komissiyalar yaratmaq;

4.1.4. digər dövlətlərlə hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində əməkdaşlıq etmək.

### 5. Komissiyanın fəaliyyətinin təşkili

5.1. Komissiyanın tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən 20 (iyirmi) üzvdən ibarətdir.

5.2. Komissiyanın fəaliyyətinə Komissiyanın sədri rəhbərlik edir.

5.3. Komissiyanın sədri aşağıdakı vəzifələri yerinə yetirir:

5.3.1. Komissiyanın işini təşkil edir və onu təmsil edir;

5.3.2. Komissiyanın iş planını təsdiq edir və onun icrasına nəzarət edir;

5.3.3. Komissiya üzvlərinin təkliflərini nəzərə almaqla, Komissiyanın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslara sədrlik edir;

5.3.4. görülən işlər barədə Azərbaycan Respublikasının Prezidentinə illik hesabat verilməsini təmin edir;

5.3.5. Komissiyaya daxil olan müraciətlərə baxılmanı təmin edir;

5.3.6. Komissiyanın fəaliyyətinin təşkili ilə bağlı digər işləri yerinə yetirir.

5.4. Komissiya sədrinin hüquqları aşağıdakılardır:

5.4.1. öz təşəbbüsü ilə, habelə Komissiyanın hər hansı digər üzvünün xahişi əsasında aidiyyəti dövlət orqanlarının (qurumlarının) nümayəndələrini və digər şəxsləri Komissiyanın iclaslarına dəvət etmək;

5.4.2. Komissiyanın fəaliyyəti ilə bağlı digər hüquqları həyata keçirmək.

5.5. Komissiyanın sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini Komissiya sədrinin müəyyənləşdirdiyi Komissiya üzvlərindən biri həyata keçirir.

5.6. Komissiyanın fəaliyyətinin təşkili üçün Komissiyanın Katibliyi (bundan sonra – Katiblik) yaradılır. Katibliyin funksiyalarını Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində “Dövlət Mülki Aviasiya Agentliyi” publik hüquqi şəxs həyata keçirir.

5.7. Komissiya üzvlərinin vəzifələri aşağıdakılardır:

5.7.1. Komissiyanın fəaliyyəti ilə bağlı məlumatları Komissiyanın sorğularına əsasən tam və vaxtında təqdim etmək;

5.7.2. Komissiyanın qərarlarının və digər sənədlərin icrası ilə bağlı tədbirlər görmək;

5.7.3. Komissiyanın fəaliyyəti ilə bağlı digər vəzifələri yerinə yetirmək.

5.8. Komissiya üzvlərinin aşağıdakı hüquqları vardır:

5.8.1. Komissiyanın iclaslarında və fəaliyyətində iştirak etmək;

5.8.2. Komissiyanın iclaslarının gündəliyi ilə və baxılması nəzərdə tutulan materiallarla əvvəlcədən tanış olmaq;

5.8.3. Komissiyanın iclaslarının gündəliyi, eləcə də səlahiyyətlərinə aid məsələlərə Komissiyanın iclaslarında baxılması barədə təklif vermək;

5.8.4. Komissiyada qəbul ediləcək qərarlara dair fikir bildirmək;

5.8.5. Komissiyanın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olmaq, onlara dair rəy və təkliflər vermək.

5.9. Katiblik aşağıdakı vəzifələri yerinə yetirir:

5.9.1. Komissiyanın fəaliyyəti ilə bağlı tapşırıqları icra edir və Komissiyanın fəaliyyətinin təşkilati təminatını həyata keçirir;

5.9.2. Komissiya üzvlərinin təklifləri əsasında Komissiyanın iclaslarının gündəliyini hazırlayır və təsdiq olunması üçün Komissiyanın sədrinə təqdim edir;

5.9.3. Komissiyanın iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü, növbədənkənar iclaslar zamanı isə azı 1 (bir) iş günü qalmış zəruri sənədlər əlavə edilməklə Komissiyanın üzvlərinə yazılı məlumat verir;

5.9.4. Komissiya sədrinin tapşırığı ilə aidiyyəti dövlət orqanlarının (qurumlarının) nümayəndələrini, müstəqil ekspertləri və mütəxəssisləri, habelə elm və təhsil müəssisələrinin və qeyri-hökumət təşkilatlarının nümayəndələrini Komissiyanın iclaslarına dəvət edir;

5.9.5. Komissiyanın iclaslarını protokollaşdırır və iclasın yekun sənədlərinin layihələrini Komissiyanın sədrinə təqdim edir;

5.9.6. imzalanmış sənədlərin icrası ilə bağlı görülmüş işlər barədə hesabatlar və digər zəruri məlumatlar əldə edir, onları təhlil edərək ümumiləşdirir;

5.9.7. Komissiyanın iclas protokollarının və qərarlarının surətlərini Komissiyanın üzvlərinə, habelə qərarlardan çıxarışları aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərir;

5.9.8. Komissiyanın iclaslarında qəbul olunmuş qərarların, o cümlədən imzalanmış digər sənədlərin uçotunu aparır və onların saxlanılmasını təmin edir;

5.9.9. Komissiyanın qərarı ilə onun fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi şəxslərə zəruri sənədlər və məlumatlar barədə sorğular verir, onlardan belə sənədləri (məlumatları) alır;

5.9.10. Komissiyanın fəaliyyəti barədə ictimaiyyəti məlumatlandırır;

5.9.11. Komissiyanın fəaliyyəti ilə bağlı digər işləri həyata keçirir.

5.10. Komissiyanın iclasları Komissiyanın sədri tərəfindən təsdiq edilmiş plan əsasında, ildə iki dəfədən az olmayaraq keçirilir. Komissiyanın növbədənkənar iclasları Komissiya sədrinin və yaxud üzvlərinin üçdə birinin tələbi ilə çağırıla bilər.

5.11. Komissiyanın iclasları onun üzvlərinin azı üçdə ikisi iştirak etdikdə səlahiyyətli hesab edilir.

5.12. Komissiyanın qərarları açıq səsvermə yolu ilə onun iclaslarında iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledici hesab edilir. Komissiyanın hər hansı bir üzvü qəbul edilən qərarla razı olmadıqda, onun xüsusi rəyi mütləq iclas protokoluna əlavə edilir.

5.13. Komissiyanın iclaslarının nəticələri Komissiyanın sədri və katibi tərəfindən imzalanmış protokolla rəsmiləşdirilir.

# Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı Asiya Mədəniyyət Şurasının 4-cü iclasının iştirakçılarına

*Hörmətli tədbir iştirakçıları!*

Sizi Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) Asiya Mədəniyyət Şurasının “Milli müxtəliflikdən qlobal həmrəyliyə: yeni dünya nizamında mədəniyyətin rolu” mövzusuna həsr olunmuş 4-cü iclasında ürəkdən salamlayıram.

Asiya qitəsi zəngin mədəni irsi, tarixi müxtəlifliyi və dinamik inkişaf potensialı ilə qlobal transformasiya proseslərini irəli aparmaq üçün geniş imkanlara malikdir. Bu coğrafiyanın xalqlarını təmsil edən siyasi partiyalar yalnız milli mədəni dəyərlərin qorunmasında deyil, həm də beynəlxalq əməkdaşlıq, qarşılıqlı hörmət və sivilizasiyalararası anlaşmanın təşviqində böyük rol oynayırlar.

ICAPP Asiya Mədəniyyət Şurası qitənin mədəniyyətlərarası dialoq potensialının üzə çıxarılmasında vacib platformadır. Asiya Mədəniyyət Şurasının budəfəki iclasının mərkəzi mövzusu bəşəriyyətin ən aktual prioritetləri ilə üst-üstə düşərək yeni qlobal nizamın humanist və inklüziv əsaslar üzərində qurulmasına xidmət edir.

Azərbaycan tarix boyu müxtəlif sivilizasiyaların qovuşduğu, mədəniyyətlərin, dinlərin və ənənələrin qarşılıqlı təsir mühitində formalaşdığı unikal bir məkan olmuşdur. Çoxmillətli və çoxkonfessiyalı ölkəmizin ictimai-siyasi inkişafında bütün dinlərin və etnik qrupların nümayəndələrinin qarşılıqlı hörmət, etimad və sülh şəraitində birgəyaşayışı mühüm rol oynamışdır. Multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanması Azərbaycan cəmiyyətinin sosial-mədəni əsaslarının ayrılmaz tərkib hissəsidir və dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

Azərbaycan eyni zamanda beynəlxalq müstəvidə müxtəlif mədəniyyətlər arasında ahəngdar münasibətləri təşviq edir, sivilizasiyalararası dialoq zəminində davamlı olaraq bir sıra təşəbbüslər irəli sürür. Azərbaycanın ənənəvi olaraq ev sahibliyi etdiyi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mədəniyyət vasitəsilə sülhün təşviqinə yönələn beynəlxalq təşəbbüsləri dəstəkləyən mühüm platformaya çevrilmişdir.

Müasir dövrdə bəşəriyyət dərin transformasiya mərhələsini yaşayır, mövcud qlobal nizam silahlı münaqişələr, ekoloji böhranlar və sosial-iqtisadi bərabərsizliklər kimi çoxşaxəli çağırışlar qarşısında sınağa çəkilir. Bu şəraitdə mədəniyyət insanları və cəmiyyətləri ali bəşəri dəyərlər ətrafında birləşdirən və sosial inteqrasiyanı təşviq edən əvəzsiz amil kimi çıxış edir. Milli ənənələrin qorunması ilə yanaşı, dialoqa və qarşılıqlı anlayışa açıq olmaq müasir beynəlxalq münasibətlərdə ortaq gələcəyin kollektiv şəkildə formalaşdırılmasını şərtləndirir. Beləliklə, mədəniyyət qlobal sabitliyə töhfə verən mühüm alətə çevrilir.

Keçən ilin noyabrında Azərbaycanın COP29 kimi mötəbər beynəlxalq tədbiri keçirməsi ölkəmizin qlobal dialoq, əməkdaşlıq və konsensus mərkəzi kimi rolunu bir daha təsdiqlədi. İqlim dəyişikliyi ilə mübarizə bəşəriyyətin ortaq səylərini tələb etdiyi kimi, beynəlxalq sülhün, mədəni qarşılıqlı anlaşmanın və qlobal həmrəyliyin qorunması da eyni miqyasda kollektiv öhdəlik zərurətini ortaya qoyur. Hər iki çağırış ölkələri qlobal məsuliyyət və kollektiv öhdəlik prinsipləri əsasında tədbirlər görməyə sövq edir.

Əminəm ki, Şuranın ölkəmizdə təşkil edilən 4-cü iclası Asiyada və onun hüdudlarından kənarda xalqlar arasında dialoq ənənələrinin daha da möhkəmlənməsinə, eləcə də qlobal mədəni inteqrasiyaya yeni təkan verəcəkdir.

İnanıram ki, bu iclasda aparılacaq müzakirələr və qəbul olunacaq qərarlar qlobal dialoqu zənginləşdirərək beynəlxalq ictimaiyyətə həmrəylik və birlik mesajını çatdıracaq, xalqlarımız və ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirəcəkdir.

Sizə ən xoş diləklərimi çatdırır və tədbirin işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 oktyabr 2025-ci il**

*Azərbaycan Respublikası Prezidentinin 17 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Komissiyanın tərkibi

### Komissiyanın sədri

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

### Komissiyanın üzvləri:

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi sədrinin müavini

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini

Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin icraçı direktoru

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin prezidenti

# Dövlət büdcəsi haqqında layihə Milli Məclisə təqdim edilib

**Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” Qanun layihəsini Milli Məclisin müzakirəsinə təqdim edib.**



“Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” qanun layihəsi ona əlavə edilmiş digər sənədlərlə birlikdə rəy verilməsi üçün Hesablama Palatasına göndərilib və palatanın rəyi alındıqdan sonra Milli Məclisdə müzakirələri keçiriləcək.

2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38 milyard 609 milyon manat məbləğində proqnozlaşdırılır. Növbəti il üçün dövlət büdcəsinin gəlir strukturunda qeyri-neft sektorunun payı əhəmiyyətli dərəcədə artır. Bu büdcənin neft amilindən asılılığının daha da azalmasına gətirib çıxaracaq. Belə ki, gəlirlərin 57,4 faizi, vergilərin isə 78,7 faizi qeyri-neft mənbələri hesabına formalaşacaq.

Növbəti il üçün büdcənin xərcləri isə 41 milyard 703,6 milyon manat məbləğində müəyyən olunub. Növbəti il üçün dövlət büdcəsinin xərcləri Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilən prioritetləri, o cümlədən müdafiə qabiliyyətinin, əhalinin sosial müdafiəsinin təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, investisiya layihələrinin həyata keçirilməsi, habelə dövlətin funksiya və vəzifələrinə aid olan zəruri xərclərlə bağlı müvafiq maliyyə təminatını formalaşdırır.

Büdcə layihəsində qeyri-neft gəlirlərinin cari xərcləri ödəmə qabiliyyəti 88,1 faiz səviyyəsindədir. Bu, cari illə müqayisədə 7,1 faiz bəndi çoxdur.

Dövlət büdcəsinin kəsiri isə 3 milyard 94,6 milyon manat proqnozlaşdırılır ki, bu ÜDM-in cəmi 2,3 faizi həcmindədir.

2026-cı ildə Dövlət Neft Fondundan transfertlərin həcmi cari ilə nəzərən 1 milyard 646 milyon manat az proqnozlaşdırılmışdır. Bu, büdcənin neft gəlirlərindən asılılığının azaldılması və valyuta ehtiyatlarının qorunması istiqamətində görülən tədbirlərin bariz göstəricisidir.

Növbəti il üçün icmal büdcənin gəlirləri 1 milyard 18,8 milyon manat artaraq 44 milyard 969,4 milyon manat, xərcləri isə 1 milyard 209,9 milyon manat artaraq 48 milyard 839,3 milyon manat, kəsiri isə 3 milyard 870 milyon manat məbləğində müəyyən olunub.

2026-cı ildə icmal büdcədə qeyri-neft gəlirlərinin payı 63 faiz proqnozlaşdırılır. Bu, son illər ərzində qeyri-neft sektorunun büdcə gəlirlərindəki rolunun davamlı şəkildə artdığını göstərir. Müqayisə üçün, 2023-cü ildə bu göstərici 43,9 faiz, 2024-cü ildə 52,4 faiz, 2025-ci ildə isə 58,4 faiz təşkil edib.

Ümumilikdə, 2026-cı ilin dövlət büdcəsi qeyri-neft gəlirlərinin sabit artımı və neftdən asılılığın azalması ilə fiskal dayanıqlılığı təmin etməyi, xərclərin isə sosial-iqtisadi prioritetlərə uyğun həyata keçirilməyi və dövlətin funksiyalarına aid zəruri xərclər üçün maliyyə təminatı yaratmağı hədəfləyir.

***XQ***

# Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Müqəddəs Taxt-Taca rəsmi səfəri

## Roma Papası XIV Leo ilə görüş



Roma Papası XIV Leo tərəfindən qəbul olunduğuna görə təşəkkürünü bildirən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikan ilə Azərbaycan arasında son illərdə münasibətlərin, ikitərəfli əlaqələrin xeyli dərəcədə inkişaf etdiyini vurğulayıb. Birinci vitse-prezident son illər ərzində Heydər Əliyev Fondunun bərpa işlərində, həmçinin elmi araşdırmalarda, mədəni mübadilələrdə Müqəddəs Taxt-Tacla bir çox işlər gördüyünü diqqətə çatdırıb.

Birinci vitse-prezident Heydər Əliyev Fondu ilə Vatikan arasında imzalanmış sazişlərə əsasən bəzi layihələrin uğurla başa çatmasından sonra digərlərinin icrasına başlanıldığını vurğulayıb.

Mehriban Əliyeva bundan sonra da Heydər Əliyev Fondunun yeni təşəbbüslərlə çıxış edərək Müqəddəs Taxt-Tacla əməkdaşlığını genişləndirəcəyini deyib.







**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müqəddəs Taxt-Taca – Vatikana rəsmi səfəri çərçivəsində oktyabrın 17-də Roma Papası XIV Leo ilə görüşüb.**

Görüşdə Müqəddəs Taxt-Tacın Azərbaycandakı Katolik Kilsəsinin fəaliyyəti, eyni zamanda, ikinci Katolik Kilsəsinin tikintisi ilə əlaqədar aparılan hazırlıq işləri barədə məlumat verilib.

Roma Papası XIV Leo Vatikan dövləti ilə Azərbaycan Respublikası arasında ikitərəfli əməkdaşlığın uzun tarixə malik olduğunu diqqətə çatdırıb. Roma Papası bir neçə il əvvəl Mehriban xanımın irəli sürdüyü təşəbbüslər sayəsində münasibətlərin xeyli inkişaf etdiyini deyərək, Birinci vitse-prezidentə təşəkkürünü bildirib. XIV Leo bu əməkdaşlığın dinlərarası və sivilizasiyalararası dialoqa çox böyük təkan verdiyini, Azərbaycanın da bu baxımdan dünya miqyasında ilk sıralarda yer aldığını qeyd edib.

Müqəddəs Taxt-Tacın rəhbəri Vatikanın Azərbaycanla bu layihələri davam etdirməkdə maraqlı olduğunu deyərək, ikinci Katolik Kilsəsinin tikintisinə ayrılmış torpaq sahəsinə görə təşəkkürlərini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə çatdırmağı xahiş edib. Roma Papası Heydər Əliyev Fonduna görülən işlərə görə minnətdarlığını ifadə edib.

Birinci vitse-prezident Mehriban Əliyeva Müqəddəs Taxt-Tacın rəhbərinə minnətdarlığını bildirərək, Roma Papasını Azərbaycana səfərə dəvət edib.

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikanın dövlət katibi ilə görüşüb



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 17-də Vatikanın dövlət katibi kardinal Pietro Parolin ilə görüşüb.**

Birinci vitse-prezident Mehriban Əliyeva kardinal Pietro Parolini yenidən görməyinə şad olduğunu deyərək, katolik dünyasını "Yubiley İli" münasibətilə təbrik edib.

Vatikanın dövlət katibinin keçən ilin noyabrında Azərbaycanda keçirilən COP29 tədbirində iştirakına görə təşəkkürünü bildirən Birinci vitse-prezident ölkəmizin Müqəddəs Taxt-Tacla inkişaf edən əməkdaşlığının son illər ərzində vüsət almış dinamikasından məmnunluğunu ifadə edib.

Azərbaycanın dini tolerantlıq və multikulturalizm dəyərlərini özündə birləşdirən ölkə olduğunu diqqətə çatdıran Mehriban Əliyeva bunun həm dövlət siyasəti, həm də cəmiyyətimizin yaşayış tərzi olduğunu vurğulayıb. Birinci vitse-prezident Müqəddəs Taxt-Tacla əməkdaşlıq çərçivəsində Heydər Əliyev Fondu tərəfindən görülən işlər barədə danışaraq, ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu bildirib. Ölkəmizdə katolik icması ilə münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edən Birinci vitse-prezident deyib: "Dövlət katibinin keçən ilin noyabrında Azərbaycanda qaldırdığı məsələ - ölkəmizdə ikinci Katolik Kilsəsinin tikilməsi müsbət həllini tapmaqdadır. Prezident İlham Əliyev tərəfindən artıq bu barədə müsbət qərar verilib və bu yaxınlarda paytaxtımızda ikinci Katolik Kilsəsinin inşasına başlanılacaq". Mehriban Əliyeva kardinal Pietro Parolinin Azərbaycanda ölkəmizin və xalqımızın yaxın dostu kimi tanındığını qeyd edib, əməkdaşlığımızın sürətlə və uğurla inkişafına görə ona minnətdarlığını bildirib.

Pietro Parolin Birinci vitse-prezident Mehriban Əliyevanı yenidən görməkdən şərəf duyduğunu deyərək, Azərbaycan dövlətinə, münasibətlərin bu səviyyəyə çatdırılmasında səylərinə görə şəxsən Prezident İlham Əliyevə dərin təşəkkürünü ifadə edib. O, keçən ilin noyabrında COP29-la bağlı Azərbaycana səfəri zamanı Prezident İlham Əliyev tərəfindən qəbul olunmasını Müqəddəs Taxt-Taca hörmətin təzahürü kimi qiymətləndirib. Heydər Əliyev Fondunun dəstəyi ilə uğurla həyata keçirilən layihələr barədə danışan kardinal bu əməkdaşlığı yüksək dəyərləndirib. O, həmçinin Azərbaycanda fəaliyyət göstərən katolik icması ilə dövlət arasında nümunəvi münasibətlərin mövcud olduğunu diqqətə çatdıraraq, dövlətlərimizin əməkdaşlığının möhkəmləndirilməsinin önəmini vurğulayaraq deyib: "Bakıda ikinci Katolik Kilsəsinin tikilməsi çox təqdirəlayiq haldır, buna görə Azərbaycana minnətdarıq. Bu, bir daha ölkənizdə bütün dinlərə göstərilən qayğı və hörmətin təzahürüdür. Azərbaycan bu mənada bir çox ölkələr üçün nümunədir".

Kardinal Katolik Kilsəsinin apostol prefekti, yepiskop Vladimir Feketenin Prezident İlham Əliyev tərəfindən "Dostluq" ordeni ilə təltif edilməsinin Müqəddəs Taxt-Taca hörmətin daha bir əlaməti olduğunu diqqətə çatdırıb.

Dövlət katibi Pietro Parolin avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ tərəfindən Birgə Bəyannamənin imzalanması, Ermənistanla Azərbaycan arasında sülh sazişinin paraflanması münasibətilə ölkəmizi təbrik edib, Vatikanın regionda sülhün bərqərar olmasını birmənalı şəkildə dəstəklədiyini bildirib.

Təbriklərə görə kardinal Pietro Parolinə minnətdarlığını ifadə edən Birinci vitse-prezident Mehriban Əliyeva Vaşinqton Sammitinin nəticələrini yüksək qiymətləndirərək, Azərbaycan və Ermənistan rəhbərlərinin sülh gündəliyinə sadiq qaldıqlarını, regionda davamlı sülhün bərqərar olmasına ümidvar olduğunu vurğulayıb.



## Birinci vitse-prezident Mehriban Əliyevanın Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti ilə görüşü olub







**Oktyabrın 17-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini ilə görüşüb.**

Görüşdə qubernatorluğun prezidenti Raffaella Petrini Heydər Əliyev Fondunun Vatikanda həyata keçirdiyi layihələrə görə Azərbaycan dövlətinə dərin və səmimi təşəkkürünü bildirib. Rahibə Raffaella Petrini Azərbaycanın Birinci vitse-prezidentinin Müqəddəs Taxt-Taca səfərlərini yüksək qiymətləndirərək, Mehriban Əliyevanın qarşılıqlı anlaşmanın, dinlərarası dialoqun və mədəni əlaqələrin inkişafına göstərdiyi dəyərli dəstəyə görə minnətdarlığını bildirib. O qeyd edib ki, belə təşəbbüslər xalqlar arasında dostluğun, qarşılıqlı anlaşmanın və mehriban münasibətlərin formalaşmasına xidmət edir.

Birinci vitse-prezident Mehriban Əliyeva səmimi qəbula və göstərilən diqqətə görə Vatikan dövlətinin qubernatorluğuna minnətdarlığını ifadə edib. Mehriban Əliyeva rahibə Raffaella Petrinini Bakıya rəsmi səfərə dəvət edərək, Azərbaycanla Vatikan arasında əməkdaşlığın yeni istiqamətlərdə genişləndirilməsinin vacibliyini vurğulayıb. Raffaella Petrini dəvətini məmnunluq hissi ilə qəbul edərək, yaxın zamanlarda Azərbaycana səfər etmək niyyətində olduğunu bildirib.

Qarşılıqlı hörmət şəraitində keçən görüşdə Azərbaycan ilə Vatikanın qubernatorluğu arasında mədəni, dini və humanitar sahələrdə praktiki əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Birinci vitse-prezident Mehriban Əliyeva və ailə üzvləri Vatikan bağlarında ağacəkmə mərasimində iştirak ediblər




**Oktyabrın 17-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və ailə üzvləri Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini ilə birgə Vatikan bağlarında ağacəkmə mərasimində iştirak ediblər.**



Azərbaycan tərəfinin Müqəddəs Taxt-Taca hədiyyəsi olan və ölkəmizdən gətirilən nar ağacı respublikamızda həyat mənbəyinin, ailə bütövlüyünün, bolluğun və məhsuldarlığın rəmzi kimi qəbul edilir. Bildirilib ki, bir çox faydalı xüsusiyyətlərə malik olan nar mədəniyyətimizin müxtəlif



aspektlərində geniş istifadə olunur.

Tarixi, memarlıq və dini baxımdan böyük əhəmiyyətə malik Vatikan bağlarında əkilən nar ağacı Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında dostluğu və əməkdaşlığı təcəssüm etdirəcək.

Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini Azərbaycan tərəfinin bu dəyərli hədiyyəsinə görə Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirərək, onun dövlətlərimiz arasında yüksələn xətlə inkişaf edən dostluğun və əməkdaşlığın vacib bir rəmzini təşkil edəcəyini vurğulayıb.

# Vatikanda Müqəddəs Pyotr Bazilikasında görülmüş bərpa işləri ilə tanışlıq




**Oktyabrın 17-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikanda Müqəddəs Pyotr Bazilikasında həyata keçirilmiş bərpa işləri ilə tanış olub.**

Müqəddəs Pyotr Bazilikasının baş keşişi kardinal Mauro Qambetti Birinci vitse-prezident Mehriban Əliyevaya kilsə və burada görülən bərpa işləri barədə məlumat verib.

Bildirilib ki, Müqəddəs Pyotr Bazilikası dünyanın ən böyük kilsəsi olmaqla katolik aləminin dini mərkəzi hesab edilir və Vatikandakı dörd Papa bazilikasından biridir. Həmçinin kilsə memarlıq baxımından bəşəriyyətin ən möhtəşəm tikililərindən sayılır. Əsası IV əsrdə qoyulsa da, mövcud bina XVI-XVII əsrləri təmsil edir.

Diqqətə çatdırılıb ki, kilsənin rəhbəri Papa hesab olunur və onun idarəçiliyi Müqəddəs Taxt-Tacın rəhbəri tərəfindən təyin edilən kardinala həvalə olunur. Həmin kardinal, eyni zamanda, Vatikan şəhər-dövlətinin baş keşişi statusunu daşıyır. 2021-ci il fevralın 20-dən italyanəsilli kardinal Mauro Qambetti Müqəddəs Pyotr Bazilikasının rəhbəri vəzifəsini tutur.

Qeyd edək ki, 2019-cu il fevralın 28-də Heydər Əliyev Fondu ilə Müqəddəs Pyotr Bazilikası arasında kilsədə yerləşən “Roma Papası I Leo ilə Hun imperatoru Atillanın görüşü” barelyefi və bazilikanın nekropolundakı “Tullius Zetus” məqbərəsinin bərpasına dair müqavilə imzalanıb. Layihə üzrə bərpa işləri başa çatdırılıb.

Müqəddəs Pyotr Bazilikasının baş keşişi kardinal Mauro Qambetti Birinci vitse-prezident Mehriban Əliyevaya kilsədə görülən bərpa işlərinin yüksək səviyyədə və qısa zamanda həyata keçirilməsinə görə dərin təşəkkürünü ifadə edib.




# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikan Apostol Kitabxanasını ziyarət edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 17-də Vatikan Apostol Kitabxanasında olub.**

Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Monsenyor Covanni Çezare Paqatzi Birinci vitse-prezident Mehriban Əliyevaya Heydər Əliyev Fondu, Azərbaycan Milli Elmlər Akademiyası, Vatikan Apostol Kitabxanası və Vatikan Apostol Arxivi arasında bu yaxınlarda imzalanmış Anlaşma Memorandumu çərçivəsində bərpa olunan və rəqəmsallaşdırılan tarixi əlyazmalar, həmçinin tarixi mənbələr haqqında məlumat verib.

Diqqətə çatdırılıb ki, 2013-cü və 2014-cü illərdə Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikan Apostol Kitabxanasında aşkar edilmiş Azərbaycanın tarixi və mədəniyyəti, o cümlədən türkdilli irsin qorunması kontekstində əhəmiyyətə malik 75 əlyazmanın bərpası və rəqəmsallaşdırılması artıq həyata keçirilib.

Qeyd olunub ki, Vatikan Apostol Kitabxanası və Vatikan Apostol Arxivi ilə əməkdaşlıq azərbaycanlı alim və tədqiqatçılara burada mühafizə olunan nadir əlyazmalara, qədim xəritələrə, eləcə də müxtəlif dillərdə dəyərli nəşrlərə çıxış imkanı verəcək. Bildirilib ki, bu, gələcəkdə, həmçinin Azərbaycanın tarixi və mədəni irsi barədə yeni və mühüm məlumatların əldə olunmasına şərait yaradacaq.

Xatırladaq ki, Vatikan Apostol Kitabxanası dünyanın ən qədim və zəngin kitabxanalarından biridir. Onun əsası rəsmi olaraq 1475-ci ildə Papa IV Sikstus tərəfindən qoyulub. Bu kitabxanada tarix, din və mədəniyyətlə bağlı 80 mindən çox əlyazma, 1,6 milyondan çox kitab mühafizə olunur. Əsas kolleksiyaları qədim əlyazmalar, inkunabullar (XV əsrə aid kitablar), xəritələr, qravürlər və yazılı sənədlərdən ibarətdir. Kitabxana tədqiqatçıların və alimlərin elmi araşdırmaları üçün açıqdır.

Vatikan Apostol Arxivi Müqəddəs Taxt-Tacın əsrlər boyu topladığı rəsmi sənədlərin, məktubların və inzibati yazışmaların qorunduğu müqəddəs və elmi cəhətdən dəyərli məkandır. Bu arxiv həm kilsə, həm də dünya tarixi baxımından nadir və bənzərsiz irsi özündə cəmləşdirir. Uzun illər “Gizli Vatikan Arxivi” kimi tanınan bu məkanın adı



2019-cu ildə Papa Fransisk tərəfindən dəyişdirilərək Vatikan Apostol Arxivi adlandırılıb.

Dünyanın ən böyük tarixi arxivlərindən biri sayılan Vatikan Apostol Arxivində IX əsrdən günümüzədək olan dövrə aid sənədlər toplanıb. Bu arxiv Katolik Kilsəsinin yaddaşı hesab olunur. Onun funksiyası kilsənin tarixi qərarlarının, mövqelərinin və diplomatik münasibətlərinin gələcək nəsillər üçün saxlanmasını təmin etməkdir. Arxiv birbaşa Papaya tabedir və onun təyin etdiyi prefekt tərəfindən idarə olunur.

Sonda Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Apostol Kitabxanasına Azərbaycanın tarixi, təbiəti və mədəni irsinə həsr olunmuş bir sıra kitab və nəşrlər hədiyyə edib.

***AZƏRTAC***



# Daxili İşlər Nazirliyində Kollegiya iclası



**Oktyabrın 17-də Daxili İşlər Nazirliyində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin vəziyyətinə", "Təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı sahəsində görülən işlərə", habelə cari ilin 9 ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov müzakirəyə çıxarılan məsələlərin əməliyyat-xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, insanların həyatının, sağlamlığının, qanuni mənafelərinin, hüquq və azadlıqlarının etibarlı qorunması baxımından xüsusi əhəmiyyətini vurğulayıb.

Qeyd olunub ki, vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində böyük bir iş həcmi yerinə yetirilib. Respublikanın 55 şəhər və rayonundan olan 6.279 vətəndaş qəbul edilərək əksəriyyətinin müraciəti yerində həll olunub, həmçinin 80.834 müraciətə baxılaraq təşəbbüskarlara hüquqları izah edilməklə yazılı cavablar verilib.

Cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində həyata keçirilən tədbirlər də bütövlükdə qənaətbəxş olub, əvvəlki dövrlərin müsbət təmayülləri daha da inkişaf etdirilib.

Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış cinayətlərin 92,4 faizi açılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cinayətlərin sayı 6,9 faiz, o cümlədən qəsdən adam öldürmələr, qəsdən sağlamlığa ağır zərər vurmalar, oğurluqlar, dələduzluqlar, soyğunçuluqlar, quldurluqlar, hədə-qorxu ilə tələb etmələr, xuliqanlıqlar, informasiya texnologiyalarından istifadə edilməklə, odlu silahın tətbiqi ilə və əvvəllər məhkum olunmuşlar tərəfindən törədilən, ailə münaqişəsi zəminli və qrup halında cinayətlərin sayı azalıb. Qeyri-aşkar şəraitdə baş verən, eləcə də ağır və xüsusilə ağır cinayətlərin, şəxsiyyət əleyhinə olanların, onlardan qəsdən adam öldürmə və ona cəhdlərin, qəsdən sağlamlığa ağır zərər vurmaların, mülkiyyət əleyhinə olanların, o cümlədən oğurluqların, dələduzluqların, soyğunçuluqların, quldurluqların, hədə-qorxu ilə tələb etmələrin və avtonəqliyyat vasitəsini qaçırmaların açılması yaxşılaşıb.

Keçmiş illərdən bağlı qalmış 284 cinayətin açılması təmin edilib. Axtarışa elan edilmiş şəxslərin 85,1 faizi tutulub, itkin düşmüş şəxslərin 90%-i, habelə mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə axtarılan 22.268 borclu şəxs tapılaraq aidiyyəti üzrə təhvil verilib. Ağır və xüsusilə ağır cinayətlər törətmiş 408 nəfərdən ibarət 152 cinayətkar qrup zərərsizləşdirilib. Baş vermiş xırda talama faktlarının 87,7%-i açılıb.



Qanunsuz dövriyyədən 4 ton 663 kiloqram, yəni ötən ilin eyni dövrü ilə müqayisədə 582 kiloqram çox narkotik vasitə çıxarılıb. Yol-nəqliyyat hadisələrinin sayı 126 fakt, qəzalarda ölənlərin sayı 13 nəfər, xəsarət alanların sayı isə 157 nəfər azalıb. "Formula-1 Azərbaycan Qran Pri"si, III MDB Oyunları, həmçinin respublika və beynəlxalq əhəmiyyətli digər kütləvi tədbirlərdə asayiş və təhlükəsizlik etibarlı və peşəkarlıqla qorunub.

Diqqətə çatdırıb ki, daxili işlər orqanlarında xidmətin müasir tələblər səviyyəsində təşkili, əməkdaşların peşəkarlığının artırılması, təcrübəli və yüksək ixtisaslı kadr korpusunun formalaşdırılması, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması üzrə zəruri tədbirlər davam etdirilib, gənclərin xidmətə qəbulunun təşviqi və təbliği məqsədilə ali və orta ümumtəhsil müəssisələrində mütəmadi görüşlər keçirilib.

Gündəlikdəki məsələlər barədə Nazirliyin aidiyyəti baş idarələrinin rəisləri həyata keçirilmiş tədbirlər, əldə edilmiş nəticələr, yol verilmiş nöqsanların aradan qaldırılması üzrə görülmüş işlər barədə məruzə edib, eyni zamanda məruzəətrafı çıxışlar dinlənilib.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların hesabat dövründə bütövlükdə layiqincə yerinə yetirildiyini qeyd edib, fəaliyyətin effektivliyinin artırılması ilə bağlı qarşıda duran vəzifələri müəyyən edib.

Əsas vəzifələrdən birinin vətəndaş məmnunluğunun təmin edilməsi və bu mühüm məsələdə polisin hər zaman insanların güvən yeri olduğunu xatırladaraq ərazi orqanlarının rəislərindən vətəndaşların müraciətlərinə bundan sonra da həssaslıqla yanaşılmasını, bütün araşdırmaların keyfiyyətlə aparılaraq qaldırılan məsələlərin qanuni və operativ həlli üçün səylərin gücləndirilməsini və tapşırılmış sahəyə məsuliyyətin daha da artırılmasını tələb edib.

Antinarkotik təbliğatın gənclər arasında, təhsil müəssisələrində, mediada və sosial şəbəkələrdə gücləndirilməsinin vacibliyi, xüsusən cinayətkar qruplaşmaların yeni metodlardan - internet informasiya resurslarından istifadə etməklə narkotiklərin satışını həyata keçirmək cəhdlərinin qarşısının alınması üzrə fəaliyyətin səmərəsinin yüksəldilməsi barədə konkret vəzifələri müəyyən edib.

Cinayətkarlıqla mübarizədə, xüsusən informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin açılması və belə hüquqazidd əməllərə yol verən şəxslərin məsuliyyətə cəlb olunması işinin gücləndirilməsinin vacibliyini də diqqətə çatdıraraq bu sahədə təbliğat işinin effektivliyinin artırılmasının, müasir dövrün tələblərinə cavab verən maarifləndirmə materiallarının hazırlanıb ictimaiyyətə çatdırılmasının zəruriliyini nəzərə çatdırıb.

İlin başa çatmasına az müddət qaldığını diqqətə çatdıran general-polkovnik Vilayət Eyvazov əldə edilmiş müsbət nəticələrin davam etdirilməsini, arxayınçılığa yol verilməməsini, şəxsi heyətin peşəkarlığının artırılması, icra intizamının daha da yüksəldilməsi, yeni informasiya texnologiyalarının geniş şəkildə tətbiqi üçün bütün qüvvə və imkanların səfərbər olunmasını, əməliyyat işinin səmərəsinin yüksəldilməsini tələb edib, bu istiqamətdə konkret tapşırıq və tövsiyələrini verib.

***XQ***

# MDB dövlətlərinin ortaq təhlükəsizlik hədəfləri





**Oktyabrın 16-da Özbəkistan Respublikasının Səmərqənd şəhərində MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 57-ci iclası keçirilib. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev tədbirdə iştirak edib.**

DTX-nın mətbuat xidmətindən bildirilib ki, iclasın əsas mövzusu MDB regionunda beynəlxalq terrorçuluğa, transmilli mütəşəkkil cinayətkarlığa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə, kibercinayətkarlığa, informasiya təhlükəsizliyini təhdid edən hallara, ekstremizmə və radikalizmə, eləcə də sadalananların doğurduğu digər mənfi təzahürlərə qarşı səyləri birləşdirməklə birgə mübarizənin aparılmasına həsr olunub.

İclasda MDB dövlətlərinin təhlükəsizliyinin etibarlı təmin edilməsi istiqamətində qarşıda duran plan və vəzifələr barədə ətraflı müzakirələr aparılıb.

***XQ***

# Baş prokurorun Gəncə görüşü



**Oktyabrın 17-də Baş prokuror Kamran Əliyev Gəncə Şəhər Prokurorluğunun inzibati binasında Gəncə şəhər, Göygöl, Samux, Kəlbəcər rayonları və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak etmiş 73 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

***XQ***

# III Azərbaycan Milli Şəhərsalma Forumu öz işini başa vurub




**Bu gün III Azərbaycan Milli Şəhərsalma Forumu (NUFA3) öz işini başa çatdırdı. Forum Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən birgə təşkil olunub və "İqlimədavamlı və sağlam şəhərlərə doğru: regional tərəfdaşlıqlar və innovativ həllər" mövzusunu əhatə edib.**

Bu il forum iki şəhərdə – Xankəndi və Bakıda keçirilib. Onlayn və oflayn 1500-ə yaxın iştirakçı, o cümlədən 65 ölkədən 200-dən artıq nümayəndəni bir araya gətirən tədbirdə hökumət nümayəndələri, qardaşlaşmış şəhərlər, səfirlik və diplomatik nümayəndəliklər, akademik institutlar və beynəlxalq təşkilatlar, özəl sektorlar, vətəndaş cəmiyyətlərinin nümayəndələri və ekspertlər iştirak ediblər. Forumun ümumi onlayn izlənmə sayı 1400-ə yaxın olub.

Tədbir çərçivəsində 10 panel sessiya təşkil edilib. Sessiyalar zamanı dayanıqlı şəhərsalma, iqlim dəyişmələrinə uyğunlaşma, inklüziv inkişaf və şəhərlərin bərpası kimi aktual məsələlər müzakirə olunub. İştirakçılar mənzil təminatı, maliyyə və innovasiya mexanizmləri, ərazi planlaşdırılması, rəqəmsallaşma, mədəni irsin qorunması və sağlam şəhər icmaları sahələrində qabaqcıl təcrübələri bölüşüblər.

Həmçinin Azərbaycanda postmünaqişə bərpası modelinə xüsusi diqqət yetirilib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma layihələri "Building Back Better" ("Daha yaxşı bərpa") prinsiplərinə əsaslanaraq təhlükəsiz, dayanıqlı və yaşayış üçün əlverişli şəhər mühitinin formalaşdırılmasına yönəlib.

Bağlanış tədbirində Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13 üzrə milli koordinator Anar Quliyev çıxış edərək bildirib ki, NUFA3 şəhərlərin gələcəyi ilə bağlı milli, regional və qlobal dialoqun gücləndirilməsində mühüm mərhələ oldu və Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumuna hazırlıq istiqamətində əməkdaşlıqda yeni səhifə açıb.



# Zərdabda vətəndaş qəbulu



**Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Zərdab şəhərində Ağcabədi, Ucar, Göyçay, Kürdəmir və Zərdab rayonlarının sakinləri ilə görüşüb.**

Vətəndaşlarla görüş zamanı nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərə baxılıb. Vətəndaşların müraciətlərində göstərilən problemlərin bir qismi dərhal müsbət həllini tapıb. Nazirliyin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə qeydiyyata alınıb və müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

***XQ***

# Milli Məclisin plenar iclasında

## *Dövlət müstəqilliyimizin bərpasının 34-cü ildönümü qeyd edildi*

**Oktyabrın 17-də Milli Məclisin növbəti plenar iclası keçirildi. İclası aparan MM Sədri Sahibə Qafarova 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti dövlət müstəqilliyimizin bərpasının elan olunduğunu xatırlatdı. Sədr ümummilli lider Heydər Əliyevin Azərbaycan naminə misilsiz xidmətlərindən danışaraq bildirdi ki, müstəqilliyi əldə etmək az idi, əsas onu qoruyub saxlamaq idi: "Təəssüf ki, yeni yaranmış dövlətin idarə edilməsində, daxili və xarici siyasətin həyata keçirilməsində kobud səhvlərə yol verildi".**






Daha sonra Sahibə Qafarova müasir Azərbaycanın xarici siyasət kursundan bəhs edərək qeyd etdi ki, Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında, Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşündə, MDB Dövlət Başçıları Şurasının Düşənbə Sammitində, eləcə də Yaxın Şərq Sülh Sammitində iştirakı, həmin tədbirlər çərçivəsində keçirdiyi görüşlər və apardığı danışıqlar Azərbaycanı beynəlxalq proseslərin nüfuzlu iştirakçısına çevirib.

Sahibə Qafarova, həmçinin Dövlət Müstəqilliyinin Bərpası Günü münasibətilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlamaq barədə təklif irəli sürdü. Deputatlar bu təklifi bəyənərək alqışladılar.

*

Plenar iclasın gündəliyində olan məsələlərin müzakirəsindən əvvəl deputatlar cari məsələlərlə bağlı çıxışlar etdilər. Deputat Ceyhun Məmmədov ölkəmizlə İslam dünyası arasında mövcud münasibətlərin keyfiyyətindən söz açdı: "Azərbaycan İslam dünyasının ayrılmaz parçası kimi regionda və dünyada sülhün bərqərar olmasına mühüm töhfələr verib, Fələstin məsələsində prinsipial mövqe tutub. Bu gün Azərbaycanın İsraillə də yaxşı əlaqələri var. Balanslı siyasət nəticəsində Azərbaycan regionda və dünyada etibarlı tərəfdaşa çevrilib. Qarşıda isə daha böyük hədəflər və məqsədlər var".

Milli Məclisin deputatı Tənzilə Rüstəmxanlı Dövlət Müstəqilliyinin Bərpası Günü ilə bağlı çıxışında bildirdi ki, başda Heydər Əliyev olmaqla, Azərbaycanın müstəqilliyinin bərpasına səs verən 43 millət vəkilini dərin ehtiramla yad edirəm: "Bu, müstəqilliyimizin təməlini qoyan siyasi addım idi. Onların xalq və dövlət qarşısında xidmətləri ölçüyəgəlməzdir".

*

Daha bir neçə deputatın cari məsələlər ətrafında çıxışından sonra gündəlikdə olan 7 məsələnin müzakirəsinə başlandı. İlk olaraq Milli Məclis Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) hökumətləri arasında imzalanmış "Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi"ni ratifikasiya etdi. Bildirildi ki, Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında 2025-ci il iyulun 9-da Əbu-Dabi şəhərində imzalanan saziş iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafı üçün müasir beynəlxalq standartlara əsaslanan geniş və hərtərəfli hüquqi baza formalaşdırır. Sazişin ratifikasiyası ticarət və investisiya əlaqələrinin möhkəmlənməsi, iqtisadi münasibətlərin genişlənməsi və uzunmüddətli strateji tərəfdaşlığın dərinləşməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Sənəd layihəsi müzakirələrdən sonra səsverməyə qoyularaq birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ "Dəniz Naviqasiya Avadanlıqları üzrə Beynəlxalq Təşkilat haqqında Konvensiya"ya qoşulmaq barədə Azərbaycan Respublikası Qanununun layihəsi müzakirəyə çıxarıldı. Səsverməyə qoyulan layihə yekdilliklə qəbul edildi və ölkəmizin "Dəniz Naviqasiya Avadanlıqları üzrə Beynəlxalq Təşkilat haqqında Konvensiya"ya qoşulması üçün müraciət edilməsinə dair qərar verildi.

MM-in plenar iclasında "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlara dəyişiklik barədə məsələ müzakirəyə çıxarıldı. Qanun layihəsi səsverməyə qoyularaq birinci oxunuşda qəbul edildi. Dəyişikliyə əsasən, hakimlərin xidməti vəsiqəsinin nümunəsinin Məhkəmə-Hüquq Şurası tərəfindən təsdiq və təqdim edilməsi barədə qərar qəbul verildi.

Daha sonra "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi müzakirəyə çıxarılaraq yekdilliklə qəbul edildi. Təklif olunan dəyişikliklə bağlı müəyyən edildi ki, 1–3-cü kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin birinci–üçüncü təsnifatlarına uyğun vəzifələrə qəbul daxili müsahibə yolu ilə aparılacaq. Bununla belə, yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinin müavinləri və Azərbaycan Respublikasının xarici ölkələrdəki ticarət nümayəndələri bu qaydadan istisna edilir. Gündəlikdəki daha bir məsələ – moped idarə etmək üçün sürücülük vəsiqəsi tələbi ilk oxunuşda qəbul edildi. "Yol hərəkəti haqqında" qanuna dəyişiklik layihəsi barədə gedən müzakirələr zamanı bildirildi ki, qanun layihəsinin əsas məqsədi moped tipli nəqliyyat vasitələrinin istismarı üzrə mövcud tənzimləmələrin təkmilləşdirilməsi, sürücülərin peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsi və ümumilikdə yol hərəkəti təhlükəsizliyinin gücləndirilməsidir. Sənəd layihəsi müzakirələrdən sonra səsverməyə qoyularaq birinci oxunuşda qəbul edildi.

"İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" və "Standartlaşdırma haqqında" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsi səsverməyə qoyularaq birinci oxunuşda qəbul edildi. Daha sonra "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi birinci oxunuşda müzakirəyə çıxarıldı. Milli Məclisin deputatı Arzu Nağıyev qeyd etdi ki, qanunlarda dəyişiklik edilməsinin əsas məqsədi müasir çağırışlara uyğun olaraq bu sahədə aparılan islahatlarla və buna uyğun olaraq təkmilləşdirmələrlə bağlıdır. Qanun layihəsi gizir və miçmanların həqiqi hərbi xidmət qaydalarının təkmilləşdirilməsini nəzərdə tutur. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanuna əsasən, hazırda onların dinc dövrdə xidmət müddəti 5 ildir. Layihədə isə hərbi ixtisas təhsili almış gizir və miçmanların bilik və bacarıqlarından daha səmərəli istifadə məqsədilə bu müddətin 10 ilə artırılması təklif olundu. Bundan başqa, "40 yaşınadək hərbi vəzifəlilər" ifadəsinin daha dəqiq redaksiyada – "hərbi xidmətdə olmağın son yaş həddinə çatmamış ehtiyatda olan gizirlər və miçmanlar, 40 yaşınadək ehtiyatda olan əsgərlər, matroslar, çavuşlar" kimi dəyişdirilməsi müzakirə olundu. Ehtiyatda olma yaş hədlərinin dəqiqləşdirilməsi də təklif olundu və birinci dərəcə ehtiyat üçün 35 yaş, ikinci dərəcə üçün 45 yaş, üçüncü dərəcə üçün 55 yaş həddi təklif edildi. Həmçinin birinci dərəcəli ehtiyatda olan hərbi vəzifəlilərin hər dəfə bir ayadək müddətə 10 dəfə, digər kateqoriyaların isə 2 ayadək müddətə 5 dəfə hərbi təlim toplanışlarına çağırılması təklif edildi. Qanun layihəsi Milli Məclisdə birinci oxunuşda qəbul edildi.

***Tacir SADIQOV***
***XQ***

# ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclası keçirilib





**Oktyabrın 17-də Yeni Azərbaycan Partiyasının ev sahibliyi ilə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) Daimi Komitəsinin 44-cü və ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasları keçirilib.**



Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanı ziyarət olunub, Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

ICAPP Daimi Komitəsinin 44-cü iclasında DK sədri Çunq Eu-yonq Komitənin 43-cü iclasından ötən dövrdəki fəaliyyətinə nəzər salaraq görülən işləri diqqətə çatdırıb və qarşılıqlı səmərəli əməkdaşlığın davam etdirilməsinin önəmini vurğulayıb. Daha sonra qarşıda duran vəzifələrə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonra ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclası öz işinə başlayıb. Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxış edərək vurğulayıb ki, müasir dövrdə beynəlxalq münasibətlər sistemində ciddi geostrateji dəyişikliklər baş verməkdədir. Onun sözlərinə görə, qlobal kataklizmlər, çoxsaylı təhdid və çağırışlar fonunda yeni dünya nizamına transformasiya məsələsi aktual müzakirə predmetinə çevrilib.

Tahir Budaqov qeyd edib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində Qələbə qazanaraq öz ərazi bütövlüyünü, 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində isə tam suverenliyini bərpa edən Azərbaycan ədalətli geosiyasi nizamın tərəfdarı olaraq beynəlxalq hüquq normalarına, o cümlədən dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, daxili işlərinə müdaxilə olunmaması və qarşılıqlı surətdə milli maraqların nəzərə alınması kimi prinsiplərə əsaslanan müstəqil və konstruktiv siyasət həyata keçirir.

YAP Mərkəzi Aparatının rəhbəri bildirib ki, eyni zamanda, dünyada tolerantlıq nümunəsi kimi tanınan Azərbaycan zəngin tarixi irsi əsasında sivilizasiyalar arasında dialoqun inkişafını təşviq edir, bu yolun qarşılıqlı əməkdaşlıq, inteqrasiya, sülh və təhlükəsizliyə xidmət etdiyini əməli fəaliyyəti ilə nümayiş etdirir. "Bu gün zəngin milli-mənəvi dəyərlərin daşıyıcısı və çoxəsrlik dövlətçilik ənənələrinə sahib olan Azərbaycanda müxtəlif dinlərin və xalqların nümayəndələri sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşayırlar.

Ölkəmizdə multikulturalizmin həm dövlət siyasətinin prioritetlərindən biri, həm də cəmiyyətin həyat tərzi olması Azərbaycanın sabitlik məkanı və inkişaf diyarı kimi davamlı uğurlarını şərtləndirir. Təsadüfi deyil ki, bu gün respublikamızda yaşayan müxtəlif xalqların nümayəndələri, fərqli dini və etnik mənsubiyyətə malik toplumlar Azərbaycanın inkişafına önəmli töhfələr verirlər. Xüsusi qeyd etmək lazımdır ki, Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı şanlı Qələbədə ölkəmizdə yaşayan bütün xalqların mühüm rolu var", - deyə Tahir Budaqov əlavə edib.

ICAPP Daimi Komitəsinin sədri, Koreya Respublikasının sabiq xarici işlər naziri Çunq Eu-yonq bildirib ki, mədəniyyət, sadəcə, keçmişi əks etdirmir, eyni zamanda, gələcəyimizi formalaşdıran dinamik qüvvədir. O, Bakıda baş tutan bu tədbirin əməkdaşlığı daha da dərinləşdirmək, dəyərli təcrübələri paylaşmaq, ideyaları mübadilə və yeni əməkdaşlıq yollarını müəyyən etmək üçün mühüm fürsət olduğunu bildirib.

Sonra Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin iclas iştirakçılarına müraciətini səsləndirib.

Daha sonra Azərbaycanın mədəniyyət naziri Adil Kərimli çıxış edib. O bildirib ki, ICAPP Asiya Mədəniyyət Şurasının 4-cü iclasının Bakıda keçirilməsi ölkəmizə göstərilən etimadın və Yeni Azərbaycan Partiyasının beynəlxalq aləmdə etibarlı tərəfdaş olmasının göstəricisidir. Bu qurum regional əməkdaşlığın və mədəni dialoqun inkişafında mühüm rol oynayır.

ICAPP-ın Baş katibi, Koreya Respublikasının Monqolustandakı və Portuqaliyadakı sabiq səfiri Oh Sonq isə ICAPP Asiya Mədəniyyət Şurasının Fəaliyyət qaydalarına dəyişiklikləri və Büro üzvlüyünə namizədləri təqdim edib. YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov Asiya Mədəniyyət Şurasının sədri seçilib.

İclas ICAPP Daimi Komitəsi sədrinin müavini, Asiya Mədəniyyət Şurasının sabiq sədri, hazırda isə sədr müavini, Kamboca Milli Assambleyasının Xarici əlaqələr, beynəlxalq əməkdaşlıq və informasiya komitəsinin sədri, Kamboca Xalq Partiyasının Xarici əlaqələr komissiyası sədrinin birinci müavini Suos Yara və ICAPP Asiya Mədəniyyət Şurasının sədri, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin komitə sədri Şahin İsmayılovun moderatorluğu ilə plenar sessiyalarla davam edib.

Sonra ICAPP Asiya Mədəniyyət Şurasının sədri Şahin İsmayılov Şuranın 4-cü iclasının yekun hesabatını təqdim edib.

Daha sonra Bakı Bəyannaməsi qəbul edilib.

Bağlanış nitqi ilə çıxış edən ICAPP Daimi Komitəsinin həmsədri və xüsusi məruzəçisi, Pakistan Müsəlman Liqası Nəvazın üzvü Muşahid Hüseyn Sayed Azərbaycan ilə Pakistan arasında səmimi dostluq, qardaşlıq və çoxşaxəli əməkdaşlıq münasibətlərinin olduğunu diqqətə çatdırıb.

Tədbir Yeni Azərbaycan Partiyası Himninin səsləndirilməsi ilə başa çatıb.

# Bakıda qlobal İqlim və Şəhərsalma Dialoqu






**İqlim və Şəhərsalma Fəaliyyətlərinin D-8 Onillik Yol Xəritəsi ilə Uyğunlaşdırılması məqsədilə ilk dəfə "D-8 Yüksəksəviyyəli İqlim və Şəhərsalma Dialoqu" müzakirəsi keçirilib.**

Məclisin moderatoru, D-8 Direktoru II Punjul Setya Nugrahanın sözlərinə görə, İqtisadi Əməkdaşlıq üzrə İnkişafda olan Səkkizlər Təşkilatı (D-8) üzv dövlətlər arasında iqtisadi əməkdaşlığın, inklüziv artımın və dayanıqlı inkişafın təşviqi üçün mühüm platforma kimi formalaşıb. D-8 Onillik Yol Xəritəsi (2020–2030) və BMT-nin Dayanıqlı İnkişaf Gündəliyi-2030 tərəfindən istiqamətləndirilən bu proses hazırda ikinci icra mərhələsindədir (2023–2027). Bu çərçivədə, ilk dəfə keçiriləcək D-8 Yüksəksəviyyəli İqlim və Şəhərsalma Dialoqu bu il Bakıda D-8 Həftəsi zamanı təşkil olunacaq və təşkilat üçün tarixi bir mərhələ olacaq.

Müzakirələrdə Azərbaycanın ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanov, D-8-in Baş katibi, səfir İsiaka Abdulqadir İmam, BMT-nin Asiya və Sakit Okean üçün İqtisadi və Sosial Komissiyasının (UNESCAP) Dayanıqlı Şəhərsalma Bölməsinin rəhbəri Kurt Qarriqan, Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) Assosiasiya direktoru Tea Melikadze çıxış ediblər.

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) İqtisadi əməkdaşlıq idarəsinin rəisi Elmar Məmmədov deyib ki, Azərbaycanın COP29-a sədrlik dövrü iqlim və şəhərsalma məsələlərinin qlobal gündəlikdə birləşdirilməsi baxımından mühüm mərhələ olub. COP29 çərçivəsində iqlim fəaliyyəti üzrə çoxsektorlu fəaliyyət və təşəbbüsləri əhatə edən Bakı Davamlılıq Koalisiyasını yaratdığını vurğulayan idarə rəisi COP29-un əsas nəticələrindən biri COP29 çərçivəsində keçirilən Şəhərsalma Günündə imzalanan Davamlı və Sağlam Şəhərlər üçün Çoxtərəfli Fəaliyyət Yolları (MAP) Bəyannaməsinin qəbul edilməsi olduğunu bildirib.

BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) Davamlı Şəhər İnkişafı şöbəsinin rəhbəri Kurt Qarriqan bildirib ki, 2023-cü ildə Koreya Respublikasının Suvon şəhərində keçirilən Asiya-Sakit Okean Şəhər Forumunda 20 üzv dövlət davamlı şəhər inkişafına dair yüksəksəviyyəli kommünike qəbul edib.

Xatırladaq ki, cari il martın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin D-8 İnkişaf etməkdə olan Ölkələr Təşkilatının Baş katibi ilə Bakıda keçirdiyi görüşdə aparılmış müzakirələrə uyğun olaraq Azərbaycan bu təşkilatda fəal işlər görməkdədir.

Azərbaycan ötən ilin dekabr ayında Qahirədə keçirilmiş D-8 Zirvə Görüşündə D-8 Təşkilatının 27 il əvvəl yaradıldığından sonra bu təşkilatın üzvlüyünə qəbul edilmiş ilk ölkə olub. D-8 üzv dövlətləri siyahısına Azərbaycan, Türkiyə, Misir, Nigeriya, Pakistan, İran, İndoneziya, Banqladeş və Malayziya daxildir. Hazırda Misir D-8-ə sədrlik edir və 2026-cı il yanvarın 1-dən iki il ərzində İndoneziya D-8-ə sədrlik edəcək.

İqlim və Şəhərlər üzrə D-8 Yüksək Səviyyəli Dialoq tədbiri Azərbaycanın COP29 Sədrliyi çərçivəsində təşkil edilir və tədbirdə D-8 üzv ölkələrinin İqlim və Şəhərsalma Nazirləri, D-8 Komissarları və D-8 regionundan olan şəhərlərin rəhbərləri iştirak edir. Bu rəsmilər, həmçinin Azərbaycanın Üçüncü Milli Şəhərsalma Forumunda da iştirak ediblər.

***XQ***

# Müstəqilliyin bərpası dövlətçilik tariximizi xalqımıza qaytardı

**1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olunmuşdur. Konstitusiya Aktında 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə və "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsinə istinad olunmuş, Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilmişdir. Beləliklə, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktına əsasən Azərbaycan xalqı 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini bərpa etmişdir.**

***Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il oktyabrın 15-də imzaladığı "Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanunu"nun preambulasından.***




**Yadımdadır, həmin tarixi sənədin – "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı"nın qəbul edilməsindən iki-üç gün sonra çalışdığım Azərbaycan Radiosunun redaksiyasına gəlmiş "ziyalı"lardan biri (sonrakı il məlum olmuşdu ki, həmin alim sözün həqiqi mənasında ölkəmizin SSRİ-dən və ya Rusiyadan ayrılmasının əleyhinə idi) baş redaktorumuz Nahid Hacızadəyə demişdi ki, burada sevinməli nə var: "Bir at yükü nöyütlə dövlət saxlamaq olar?" Nahid müəllimin "Olar, olar" – deməsindən sonra həmin adam daha israrla demişdi: "O boyda kişilərin (Azərbaycan Xalq Cümhuriyyətini quranları deyirdi – İ.M.) qurduğu müstəqil dövlət yaşaya bilmədisə, bu uşaqların qurduğu dövlət yaşaya biləcək?". Redaktorumuz həmin "alim"dən də israrlı idi: "Narahat olmayın, yaşaya biləcək. Əgər öndə gedən qüdrətli lider olsa, müstəqil dövlətimiz yaşayacaq".**

...Hərgah bu gün – Azərbaycanın Dövlət Müstəqilliyinin Bərpasının növbəti ildönümü günü həmin rəhmətlik "alim" sağ olsaydı – Allah Nahid Hacızadəyə də rəhmət eləsin – ona bir neçə faktı xatırladardım. Deyərdim ki, dünyanın bütün aparıcı dövlətlərinin başçıları Azərbaycan Prezidenti İlham Əliyevlə razılaşır və onun müdrik lider olduğunu təsdiq edirlərsə, deməli, müstəqil Azərbaycan dövləti yaşayır və hələ əsrlər boyu yaşayacaq.

Həmin adama xatırladardım ki, ABŞ Prezidenti Donald Tramp oktyabrın 13-də Misirdə keçirilən beynəlxalq tədbirdə Azərbaycan Prezidentini dünya liderlərinə göstərərək onlara xəbərdarlıq etdi ki, "Onunla düşmən olmaq istəmərsiniz". Çin Xalq Respublikasının Prezidenti Si Cinpin Azərbaycan Prezidenti ilə bütün görüşlərində respublikamızı Pekin üçün dost dövlət, liderimizi isə özünün dostu, qardaşı adlandırır. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Prezidentinin haqlı tələbləri qarşısında cəmi on ay duruş gətirə bildi və nəhayət, bir neçə gün əvvəl Düşənbədə Kremlin ölkəmizə qarşı etdiyi haqsızlıqlara görə peşmançılığını dilə gətirdi və növbəti dəfə üzr istədi. 44 günlük İkinci Qarabağ müharibəsi günlərində rəsmi Bakıya qarşı haqsız və hədsiz ittihamlarla çıxış edən Fransa Prezidenti Emmanuel Makron son günlər Azərbaycan Prezidenti ilə görüşməyə, salamlaşmağa bəhanə axtarır və bəyan edir ki, Parislə Bakı münasibətlərində yeni səhifə yaranır.

Bütün bunları xatırladandan sonra Nahid Hacızadənin qonağı olmuş ziyalımızdan soruşardım ki, bu sadaladıqlarım dövlət müstəqilliyimizin yaşaması və ulu öndər Heydər Əliyevin arzuladığı kimi əbədiləşdirilməsi deyilmi, ay hörmətli alim?

Qərəz, tarixi sənədlərdə oxuyuruq ki, 1991-ci il oktyabrın 18-də Ali Sovet "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını qəbul edib. Bildirilir ki, həmin aktda 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə və "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli bəyannaməsinə istinad olunub və Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu təsbit edilib.

Xatırladaq ki, xalqımız ötən əsrin əvvəlində müsəlman dünyasında ilk müstəqil respublika qurmuş, 1991-ci ildə isə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi öz müstəqilliyini bərpa etmişdi. Çox təəssüf ki, dövlət müstəqilliyimizin bərpasından sonra onillər boyu oktyabrın 18-ni ölkəmizin hər yerində bayram edə bilmirdik. Güclü himayədarlarının siyasi, iqtisadi, hərbi və ümumiyyətlə, hərtərəfli dəstəyindən yetərincə bəhrələnən Ermənistan qədim Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaratmaq üçün BMT tərəfindən tanınan ərazilərimizin 20 faizini işğal etmiş və xarabalığa çevirmişdi. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhə boyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusunun əks-hücum əməliyyatına başlaması – həmin əməliyyatlar sonradan Vətən müharibəsinə çevrilmişdi – nəticəsində qazandığımız şanlı Zəfərdən və düşmənin kapitulyasiya sənədini imzalamasından sonra işğaldan azad edilmiş bütün ərazilərimizdə Azərbaycan bayrağı dalğalanır və 18 oktyabr günü bayram edilir.

Yeri gəlmişkən, bu gün BMT başda olmaqla bütün beynəlxalq təşkilatlarda və Ermənistan istisna olmaqla dünyanın, demək olar ki, bütün ölkələrindəki səfirlik, konsulluq və nümayəndəliklərimizdə dalğalanan üçrəngli bayrağımız məhz Azərbaycan Xalq Cümhuriyyətinin təsis və təsdiq etdiyi dövlət bayrağımızdır. Xatırladaq ki, 1992-ci ilin mayında Milli Məclis tərəfindən Azərbaycan Respublikasının Dövlət Himni (musiqisi Üzeyir Hacıbəyovun, sözləri Əhməd Cavadın), az sonra üçrəngli bayraq, içində alov olan səkkizguşəli ulduz təsvirli dövlət gerbi təsdiq olunub. Azərbaycan parlamentinin 15 oktyabr 2021-ci il tarixli plenar iclasında isə "Müstəqillik Günü haqqında" yeni qanun qəbul edilib. Elə həmin gün Prezident İlham Əliyev "Müstəqillik Günü haqqında" qanunu təsdiqləyib.

Dövlət başçımız bu məzmunlu çıxışlarında dəfələrlə xatırladıb ki, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmiş, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini davam etdirmişdir. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, sərhədləri müəyyən edilmiş, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmiş, Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atılmışdır. Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynamışdır. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

Məhz həmin dövlətin – müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olan müasir Azərbaycan dövləti bu gün nəinki Türkdilli Dövlətlər Təşkilatının mərkəzlərindən biridir, eləcə də BMT və Qoşulmama Hərəkatı başda olmaqla bütün beynəlxalq təşkilatlarda sözükeçən dövlətə çevrilib.

Əgər 2020-ci ilədək Azərbaycanın paytaxtı bütün beynəlxalq təşkilatların mühüm tədbirlərinin keçirildiyi məkana çevrilmişdisə, bu gün artıq regionlarımız, xüsusən, işğaldan azad edilmiş şəhərlərimiz də beynəlxalq tədbirlərə ev sahibliyi edir. Yəni "bir at yükü neftlə" (guya ölkəmizin ərazisində neftin cüzi olduğunu sübut etmək istəyirdilər) dövlət qurub, dünyanın əsas aktorlarından birinə çevrilmiş Azərbaycan dövlətinin qüdrəti bu gün planetin hər yerində etiraf edilir.

Bir neçə abzas əvvəldə Azərbaycan bayrağından söz açmışdıq. Yenidən mövzuya qayıdaraq bir faktı xatırlatmaq istəyirik. Ermənistanın 10 noyabr 2020-ci il tarixli məğlubiyyətindən sonra erməni müxalifətçilərindən biri yazmışdı ki, İlham Əliyev Azərbaycanın siyasi, iqtisadi və hərbi gücünü artırdığı dövrdə Ermənistana rəhbərlik edənlər varlanmaqla, xalqın və dövlətin əmlakını mənimsəməklə məşğul idilər. Nəticədə, Azərbaycan tərəfi kosmosdakı peykləri ilə Ermənistan ordusunun bütün texnikalarının yerini dəqiqləşdirdi, vurdu və istədiyinə nail oldu.

Bu faktı xatırlatmaqda əsas məqsədimiz kosmosdakı rabitə və müşahidə peyklərimizin üzərində Azərbaycan Xalq Cümhuriyyətinin təsis etdiyi, müasir müstəqil Azərbaycan dövlətinin isə öpüb gözünün üstünə qoyduğu üçrəngli bayrağımızın silinməz təsvirlərinin olduğunu yada salmaqdır.

Yəni "Bayrağımız uca olsun!" alqışının bundan yaxşı reallaşmasını təsəvvür etmək çətindir. Məmnunuq ki, bir neçə həftədən sonra – noyabrın 10-da şanlı Zəfərimizin 5 illiyi münasibətilə paytaxtımızda keçiriləcək möhtəşəm paradın tribunalarında və Azadlıq meydanından keçəcək hərbi bölmələrimizin əlində bütün bədxahlarımıza göz dağı olan Azərbaycan bayrağı dalğalanacaq. Müstəqiliyin bərpası bizim dövlətimiz və qürurumuzla bərabər, bayrağımızın da bərpasını bəxş etmişdir.

*İttifaq MİRZƏBƏYLİ*
*Əməkdar jurnalist*

# Aİ–Azərbaycan münasibətlərində dəyər və maraqların vəhdəti



**(əvvəli 1-ci səhifədə)**

Əvvəllər Aİ regionda normativ güc kimi çıxış edir, dəyərləri ixrac edən və regiona idarəetmə modelləri təqdim edən aktor kimi görünürdü. Bu prosesdə Avropa Komissiyası, Avropa Parlamentinin müxtəlif komitələri və Avropa Xarici Fəaliyyət Xidməti öz funksional mexanizmləri ilə iştirak edirdi. Komissiya iqtisadi və enerji sahələrində təşəbbüslər irəli sürür, parlament demokratik islahat və insan hüquqları məsələlərində normativ təzyiq yaratmaq rolunu daşıyır, Xarici Fəaliyyət Xidməti isə diplomatik kanalları yönəldir, tərəfdaş ölkələrlə əlaqələrin koordinasiyasını təmin edirdi. Məqsəd regionda Avropa standartlı idarəetmə və normativ mədəniyyət formalaşdırmaq idi.

Lakin qlobal reallıq dəyişdi. Ukrayna müharibəsi, enerji bazarındakı gərginlik və geosiyasi risklərin artması Avropaya göstərdi ki, dəyərlər siyasəti təkbaşına sabitlik yaratmaq gücünə malik deyil. Brüsseldə qərar verənlər artıq anlayırlar ki, regional sabitlik etibarlı tərəfdaşlıqdan doğur. Azərbaycan bu baxımdan tam yeni səviyyədə dəyərləndirilir.

Bəs niyə Aİ Cənubi Qafqazda məhz Bakı ilə daha rasional və dayanıqlı model qurur? Cavab regionun geosiyasi anatomiyasında gizlənir. Azərbaycan bir tərəfdən enerji ixracatçısı, digər tərəfdən tranzit ölkəsidir; həm Avrasiya dəhlizlərinin qovşağında yerləşir, həm də postsovet məkanında sabit siyasi sistemə malik nadir dövlətlərdəndir. Bütün bu xüsusiyyətlər Bakı ilə Avropa arasında regional sabitlik arxitekturasının mərkəzi kimi qarşılıqlı asılılıq yaradır.

Avropa institutlarının Azərbaycana münasibəti artıq ehtiyac və qarşılıqlı hörmət üzərində qurulur. Avropa Komissiyası Azərbaycanın enerji tranzit gücünü strateji sənədlərdə prioritet kimi qeyd edir, parlamentdə "Azərbaycan faktoru" sabitlik və təhlükəsizlik amili kimi səslənir. Yeni dinamika Avropanın öz daxilində gedən transformasiyanın nəticəsidir. Artıq aydındır ki, "yumşaq güc" yalnız dəyərlərin təbliği ilə məhdud qaldıqda effektiv olmur. İndi "yumşaq güc" praqmatik məna daşıyır; etibarlı tərəfdaş tapmaq, riskləri bölüşmək və qarşılıqlı asılılıq yaratmaq əsas funksiyadır. Azərbaycan bu baxımdan Avropanın "risk paylaşa biləcəyi" azsaylı tərəfdaşlardan biridir.

Bakı Avropa üçün enerji sabitliyinin psixoloji təminatıdır. Enerji bazarının diversifikasiyası etibarlı tərəfdaşın siyasi stabilliyi ilə mümkündür. Azərbaycan enerji infrastrukturu və siyasi qərarvermə mexanizmləri arasında uzlaşmanı təmin etməklə bu stabilliyi reallığa çevirir. Rəsmi Bakının yaratdığı sabitlik daxili idarəetmədən qaynaqlanır. Ölkə iqtisadi təhlükəsizliyi və sosial rifahı milli təhlükəsizlik strategiyasının tərkib hissəsi kimi qurub. Enerji gəlirləri dövlətin sabitlik kapitalıdır.

*

Aİ-nin xarici siyasətində əsas vurğu uzun müddət dəyərlər diplomatiyasına verilmişdi. Demokratiya, insan hüquqları, azad bazar və hüquqi dövlət prinsipləri Avropa kimliyinin özəyini formalaşdırırdı. Brüssel hesab edirdi ki, bu dəyərlər regionda idarəetmənin nümunəsi olacaq. Lakin XXI əsrin ikinci onilliyində qlobal güc balansı dəyişdikcə, Avropanın dəyərlər hegemoniyası tədricən praktik reallığın sərhədlərinə dirəndi.

Avropa institutlarının funksional mahiyyətinə baxdıqda, bu ziddiyyət daha aydın görünür. Avropa Parlamentinin əsas missiyası demokratik standartları qorumaqdır, Avropa Komissiyasının vəzifəsi isə iqtisadi maraqları irəli çəkməkdir. İki mexanizm arasındakı fikir fərqi son illər dərinləşib. Parlament idealizmin daşıyıcısı olaraq normativ yanaşmanı qoruyur, Komissiya isə enerji təhlükəsizliyi, ticarət və nəqliyyat kimi praktiki maraqları önə çəkir. Deməli, Avropa özü daxilində dəyərlərlə maraqların toqquşduğu laboratoriyaya çevrilib.

Cənubi Qafqaz Avropa üçün, bir növ, test meydanı rolunu oynayır. Azərbaycanla münasibətlər bu balansın praktiki ölçüsünü göstərdi: Brüssel idealist tələbləri real siyasətin məhdudiyyətləri ilə uzlaşdırmalı oldu. Artıq Avropaya məlumdur ki, regionda sabitlik demokratiyanın ixracı ilə deyil, dayanıqlı tərəfdaşlıqla mümkündür. Burada əsas analitik sual belə formalaşır: Dəyərlər diplomatiyası yerini maraqlar diplomatiyasına verirmi, yoxsa, sadəcə, yeni bir sintez yaranır?

Cavab yekcins deyil. Avropa prinsiplərini tam tərk etmir, sadəcə, onları maraqların funksional ifadəsinə çevirir. Yəni dəyərlər artıq məqsəd deyil, vasitədir. Əgər əvvəllər Aİ tərəfdaş ölkələrdə öz ideoloji əsaslarını tətbiq etməklə təsir qurmaq istəyirdisə, indi o, qarşılıqlı fayda vasitəsilə dəyərləri rasional səviyyədə qəbul etdirməyə çalışır. Azərbaycan bu yeni diplomatiya məntiqində fərqli model təklif edir: Bakı üçün normativ çərçivələr inkişafın reallığı ilə ölçülən konkret nəticələrdir. Demokratiya iqtisadi sabitliklə, insan hüquqları sosial təhlükəsizliklə, islahatlar isə idarəetmənin səmərəliliyi ilə tamamlanmalıdır.

*

Avropa institutlarının Azərbaycana ehtiyacı dörd əsas istiqamətdə özünü göstərir. Birincisi, enerji və infrastruktur amili. Avropa "yaşıl enerji"yə keçid strategiyasını reallaşdırmaq istəyir. Amma bu, yalnız bərpaolunan enerji mənbələrinin genişləndirilməsi ilə deyil, həm də keçid dövründə etibarlı qaz təchizatı ilə mümkündür. Azərbaycan həm ənənəvi qaz ixracatçısı, həm də Xəzər dənizində külək enerjisi layihələrinə start verən ölkə kimi bu kontekstdə unikal rol oynayır.

İkincisi, regional sabitlik amili. Cənubi Qafqazda balanslı siyasət yalnız Bakının iştirakı ilə mümkündür. Gürcüstanın daxili siyasi qeyri-sabitliyi və Ermənistanın strateji qeyri-müəyyənliyi fonunda Azərbaycan yeganə proqnozlaşdırıla bilən tərəfdaşdır. Aİ-nin regionda həyata keçirdiyi Şərq Tərəfdaşlığı təşəbbüsü illərdir siyasi sabitlik problemi ilə üzləşdiyi halda, Azərbaycan sabit dövlət idarəetməsi və müstəqil qərarvermə modeli ilə fərqlənir.

Üçüncüsü, nəqliyyat və logistika. Qlobal logistika sistemində sarsıntılar Avropanı alternativ yollar axtarmağa vadar etdi. Orta Dəhliz anlayışı geosiyasi reallığa çevrildi: Bakı–Tbilisi–Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Limanı və Zəngəzur dəhlizi (TRIPP) Avropanın Asiya ilə təhlükəsiz, səmərəli və qısaldılmış əlaqə arteriyasıdır.

Dördüncüsü, siyasi etibarlılıq və qərarvermə çevikliyi. Avropa institutlarının qərarvermə prosesi çoxpilləli və bəzən ləngdir. Azərbaycan isə çevik diplomatik təfəkkür, sürətli adaptasiya bacarığı və rasional prioritetləri ilə fərqlənir. Bunlar Avropanın strateji planlarında Bakını etibarlı və effektiv tərəfdaş kimi göstərir.



Bütün bu amillər bir araya gəldikdə, Aİ–Azərbaycan münasibətləri ehtiyacdan tərəfdaşlığa keçid mərhələsinə daxil olur. Bu gün Avropa Azərbaycanın enerji ehtiyatlarına, regional sabitlik potensialına və siyasi rasionalizminə ehtiyac duyur. Sabah isə Avropa institutları bu münasibətləri kiçik, amma təsir gücü yüksək dövlət modelinin nümunəsi kimi təqdim edə bilər.

Sonda onu da qeyd edək ki, belə bir model artıq formalaşmaqda olan Azərbaycan diplomatiyasının nüvəsini təşkil edir: dövlətin enerji və iqtisadi resursları sabitlik kapitalına, siyasi rasionalizm isə regiondakı etibarlılıq və strateji təsir vasitəsinə çevrilir. Azərbaycan modeli həm Avropanın praktiki maraqlarını təmin edir, həm də regionda dəyərlər və maraqların yeni sintezini reallaşdırır.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Türk dünyasında elmin perspektivləri: AMEA-nın yeniləşmə kursu kontekstində



### III məqalə

## Vətənçilik və Türk dünyasının elmi obrazı

AMEA-nın yeniləşmə kursunun 1-ci və 2-ci prioritetlərinin rasional-məntiqi anlamı Azərbaycançılıqdan (Vətənçilikdən) Türk dünyası miqyasına mədəniyyət, elm və təhsil aspektlərində optimal keçidin akademik ruhu xüsusi yer tutur. Yəni burada hədəfə çatmanın konkret nəzəri və praktiki istiqaməti dəqiq müəyyən edilmişdir. Onun təməl ideya "sahəsi"ni aşağıdakı kimi təsəvvür edə bilərik:

Türk dünyasında elmin perspektivi hər bir türk dövlətinin müasir elmi tərəqqisindən başlayır, lakin onunla məhdudlaşmır.

Birincisi, bu tərəqqi Vətəncilik ideoloji strategiyası mahiyyətində olmalıdır (azərbaycançılıq, türkiyəçilik, qazaxıstançılıq, özbəkistançılıq və s.). Əks halda, ümumtürk kontekstində gerçək elmi tərəqqi nəticəverici anlamını qısa müddətdə itirə bilər.

İkincisi, Vətənçilikdən ümumtürk dünyası miqyasına tərəqqinin elmi obrazının proyeksiyası mütləq surətdə dünya səviyyəsində elmi idrakda özünü göstərən ən mütərəqqi yeniliklərin kontekstində davamlı uğur gətirə bilər.

Bu iki nəzəri özəlliyin işığında AMEA-nın çox maraqlı, yığcam və perspektivli şəkildə elmi tərəqqini elmi obrazlaşdırdığını görmək olar. Bu, bir tezisdə mənaca akkumulyasiya edilmişdir: Vətənçilik (AMEA təcrübəsində, Azərbaycançılıq) – ümumtürk elmi mühiti (obrazı) – qlobal elmi miqyasın tələbləri (elmi idrakın ümumi istiqamətini motivə edən nəzəri və metodoloji faktorlar).

Burada məsələnin qoyuluşunun elmiliyi ilə praktiki reallaşmasının vacib qarşılıqlı əlaqəsini görürük. Bu, bütövlükdə ali elmi təşkilatın sosiohumanitar elm sahəsində yeniləşmə kursunu mücərrəd (abstrakt) sözçülükdən çıxarır və onu konkret reallaşma üfüqünə yönləndirir.

Məhz bu kontekstdə, yəni elmi tərəqqinin təşkilatın yeniləşmə kursu çərçivəsində obrazlaşması ilə əyaniləşməsi arasında daxili məntiqi ziddiyyətsizliyi dərk etmək mümkündür. Bu prosesin substantiv obrazının tamamlanması üçün yuxarıda vurğuladığımız 3-cü prioritet istiqamətin məzmun və hədəflərini ilk iki prioritet fonunda təhlil etməyimiz lazımdır.

## Rəqəmsallaşma və kibertəhlükəsizlik

Üçüncü prioritet istiqamət belədir: "Rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizliklə bağlı məsələlərin akademiyanın Humanitar və İctimai Elmlər bölmələrinin əhatə etdiyi elmi-tədqiqat institutlarının elmi dövriyyəsinə daxil edilməsi yaxın dövrün əsas prioritetlərindəndir".

Burada AMEA rəhbərliyinin geniş elmi təməli olan aktual bir məsələni yığcam ifadə edə bilməsi əhəmiyyətlidir. Biz bu fikri əsaslandırmaq üçün reallıqda rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik anlayışlarının ifadə etdikləri müasir elmi trendin detallarına müəyyən dərəcədə nəzər salmalıyıq.

Nəzəri və metodoloji baxımdan mürəkkəb məsələdir. Çünki özlüyündə sadə görünsələr də, "rəqəmsallıq", "süni intellekt" və "kibertəhlükəsizlik" məna olaraq özlərində müxtəlif çalarları və hazırda çətin dərk edilən semantik məqamları ehtiva edirlər. Təsadüfi deyildir ki, son illər tədqiqatçılar o kimi anlayışları izah etmək üçün yeni terminlər daxil edirlər. Lakin bu, bütün hallarda həmin anlayışların dərki üfüqünü genişləndirə və onların kreativ potensiallarının predmetləşdirilməsinə yardımçı ola bilmirlər. Mənzərəni bu mərhələdə aydınlatmaq üçün bir sıra özəlliklərə baxaq.

## Süni intellekt və süni sosiallığa keçid

Alimlər əmindirlər ki, rəqəmsallaşma və süni intellekt bütövlükdə sosial reallığın xarakterini dəyişir. Yəni söhbət hansısa fraqmentar və ya ikinci dərəcəli prosesdən getmir – kökündən müasir cəmiyyətlərin sosial reallığı, sosial anatomiyası və funksional dinamikası dəyişir. Bu, faktiki olaraq, fərdi və kollektiv səviyyələrdə bəşəriyyətin keyfiyyət və funksiyaca yeni sosial-mədəni gerçəkliklə "üz-üzə qalması" deməkdir. Burada "üz-üzə" daha çox metafordur (məcazdır), çünki bu mənzərəni elə bəşəriyyətin özü yaradır. Əlbəttə, ciddi ziddiyyətdir, lakin dərketmənin başqa üsulunu insan hələ icad etməmişdir.

Onda ümumi idrakı situasiyanı belə təsəvvür edə bilərik: bəşəriyyət özünüdərkdə elə bir mürəkkəb duruma gəlmişdir ki, dərk etdiyini özünüdərk prosesinə çevirməkdə çətinlik çəkir və hətta geridə qalır. Məhz bu aspektdə aparıcı dəyişdirici rolu rəqəmsallaşma və süni intellekt oynayır. Kibertəhlükəsizliyin başlıca xüsusiyyətləri də onlardan qaynaqlanır. Rasional-məntiqi müstəvidə belə alınır ki, AMEA əsas üç anlayışı müəyyən edərək, onları vahid yeniləşmə prosesinə üzvi surətdə nəticəverici aspektdə daxil edə bilmişdir.

Bu prizmada süni sosiallığın fəlsəfi-elmi dərki şübhə doğurmur. Məsələn, süni intellektin, özünüöyrədən neyroşəbəkələrin, alqoritmlərinin və rəqəmsal informasiya bazalarının (Big Data) inteqrasiyası ağıllı layihələr kontekstində necə mümkündür? Bu proses insanların sosial həyatında hansı dəyişikliklər edə bilər? Bundan başqa, prinsipial əhəmiyyəti olan digər sual: bu cür nəzəri olaraq "ağıllı" sayılan layihələri cəmiyyətin müxtəlif sferalarına səmərəli tətbiq etməyin üsulları hansılardır?

Fəlsəfi aspektdə bir qədər də dərinə getsək, ümumiyyətlə, "ağıllı layihə" nə deməkdir və hansı anlamlarda o, "ağıllıdır"? "Ağılın fəlsəfədə fərqli izahlarını bilirik, bəs müasir sosial mühitin "süniləşməsi"nin aparıcı amili olan "ağıl"ın semantikası necədir?

Burada bir praktiki nümunəyə müraciət etmək süni sosiallığın dərinliyi və yeniliyi müstəvisində maraqlı olardı. İndi mütəxəssislər siyasi aktorların özlərinin və funksiyalarının şəbəkələşməsindən və hibridləşməsindən bəhs edirlər. Vətəndaşla dövlət arasında münasibətlərdə rəqəmsal platformaların çəkisinin artdığından yazırlar. Bu, yeni siyasi reallığın formalaşması deməkdir. Onda insan yalnız özünə oxşarlara münasibətə girmir, həm də süni yaradılmış strukturlarla münasibətə "sürüklənir"!

Bu prosesin fəlsəfəsinin nə dərəcədə aktual olduğunu sübut etməyə ehtiyac yoxdur, çünki o, faktiki olaraq, bütövlükdə insanın mövcudluğunun fundamental tərəfləri ilə sıx bağlıdır. Bu səbəbdən alimlər yazırlar ki, süni sosiallıq empirik, yəni artıq real olan, yeni təcrübi faktdır. Onu müasir insanın həyatından kənarlaşdırmaq mümkün deyildir. Nil Srniçekin 2019-cu ildə daxil etdiyi "platformalar kapitalizmi" ("rəqəmsal xammal" kontekstində) anlayışı bu prizmada maraqlı və düşündürücü təsir bağışlayır.

Əlbəttə, vurğulanan istiqamətdə daha geniş və fundamental elmi suallar mövcuddur. Əhəmiyyətlidir ki, AMEA bu kimi sualların müasir nəzəri yanaşmalar və metodoloji yeniliklər kontekstində sistemli sosiohumanitar tədqiqini konseptuallaşdırmağa başlamışdır!

## Hibrid və mental müharibələr

Yeni sosial dəyərin yaranması elm sahəsində də ciddi yaradıcı və təşkilati yeniliklər etmək zərurətini ortaya qoyur. Bu sırada müasir elmlərin təsnifi, onların qarşılıqlı münasibətləri və elmi fəaliyyətin təşkili olduqca vacib məsələdir. Deyək ki, neyroelmin nailiyyətlərini cəmiyyətin müxtəlif elmi fəaliyyət sefarlarına (məsələn, politologiyaya, kollektiv psixologiyaya, şəxsiyyətin inkişafına, beynəlxalq münasibətlərə və s.) necə tətbiq etmək olar? Bu istiqamətdə dünya miqyasında artıq addımlar atılır.

Koqnitiv elmlər çərçivəsində beyin və zəkanın tədqiqi idrakı modelləşdirmə ilə inteqrasiyada aparılır. Ayrıca, hibrid müharibələr (informasiya, koqnitiv və mental müharibələrin sintezi) həmin yanaşma çərçivəsində tədqiq edilir. Obrazlı desək, informasiya müharibəsi insanın (fərdi və kollektiv miqyaslarda) nə düşündüyü uğrunda mübarizədir, koqnitiv isə insanın necə düşünməli olduğu uğrunda savaşdır. Bu məqsədlərə uyğun olaraq, informasiya müharibəsi informasiya ilə manipulyasiyanın informasion, texniki və psixoloji üsullarını əhatə edir. Koqnitiv müharibə isə həmin üsullarla yanaşı, neyrobioloji təsirləri ehtiva edir.

Ancaq burada bir incə məqam vardır. Koqnitiv müharibə rəqibi özü işindən dağıtmağa təhrik edir. Özünü dərketmə qabiliyyətlərini iflic vəziyyətə salmağı nəzərdə tutur. Subyekt adekvat və öz maraqları çərçivəsində düşünə bilmir. O, yad elementi daha əhəmiyyətli sayır. Bu da sonucda insanın şəxsiyyət kimi məhv olmasına və tam oyuncağa çevrilməsinə aparıb çıxarır.

Deməli, informasiya və koqnitiv müharibələri birləşdirən ortaq məqsəd vardır: hər ikisi rəqibin şüuruna təsir etmək texnologiyalarıdırlar. Mental müharibələr isə bir qədər fərqlənir. Onlar şəxsin və cəmiyyətin strateji təfəkkürü və məqsədyönlülüyünü kökündən yenidən "proqramlaşdırmağa" istiqamətlənir. Bura daha dərində olan mental-koqnitiv dəyərləri dəyişmək də vardır. Elə dəyərlər ki, cəmiyyətin sivilizasion identikliyində dəyərlərin iyerarxiyasını təhrif edir. Onların tarixdən gələn özünəməxsus xüsusiyyətlərini məhv edərək məqsədi, məramı, daxili inkişaf mexanizmi olmayan "amorf sosial kütləyə" çevirməyə çalışırlar. Bu cür fərd və toplumun mental sosial-psixoloji memlərini süni, yad və hədəfdən yayındıran qondarma "virus-memlərlə" əvəzləyirlər. Bizcə, mental müharibənin təsirinin hansı dərəcədə zərərli və məhvedici olduğu aydındır.

## Ümumi qənaət

Yuxarıda qısa vurğulanan bir sıra məqamlar göstərir ki, müasir dünyada elmi fəaliyyət elə mürəkkəb və həssas amillər şəraitində olmalıdır ki, burada alim yaradıcılığı ilə məsuliyyəti və psixoloji dayanıqlığı misli görünməmiş münasibətlər səviyyəsinə keçmiş haldadır. İndi əsl alim olmaq, yaratmaq zəka və intellektlə yanaşı, şəxsi keyfiyyətlərin xüsusi kombinasiyasını da tələb edir. Bu isə təşkil oluna bilən prosesdir.

Yəni hər bir yaradıcı fərddən elmilik baxımından nələrisə tələb etmək və ya özünün inkişafının öhdəsinə buraxmaq olar. Lakin söhbət milli səviyyədə perspektivli tərəqqidən və üstəlik, bir neçə dövlətin birliyinin yaradılması kontekstindən gedirsə, tamamilə fərqli yanaşma səmərə verə bilər. Həmin məqsədə hər bir türk dövləti elmi fəaliyyətin institusional formasını daim inkişaf etdirməklə nail ola bilər. Elmin institusional formasının nümunəsi kimi AMEA təcrübəsi burada çox faydalı ola bilər. Birincisi, bu ali elmi təşkilatın artıq 80 illik peşəkar təcrübəsi vardır. İkincisi, sirr deyil ki, nəinki Azərbaycanda, bütövlükdə, Türk dünyasında konseptual və sistemli olaraq özünüyeniləşdirmə prosesinə dəqiq strateji konsepsiya və Yol Xəritəsi hazırlamaqla AMEA başlamışdır.

Sonuncu tezisin əsas mahiyyətini açıqlamaq lazımdır. Məsələ onunla bağlı deyil ki, AMEA-dan başqa heç bir türk dövləti elmi təşkilatı strategiya hazırlamamışdır. Əlbəttə, hazırlanmışdır. Burada söhbət AMEA-nın bütövlükdə müasir elmi idrakda baş verən elmi dinamika prizmasında dövlətçiliyi və Vətənçiliyi təməl prinsiplər kimi qəbul edərək və onların nəzəri özəlliklərini diqqətə alaraq uzunmüddətli özünüyeniləşdirmə kursundan gedir.

Ondan başqa, AMEA-nın yeniləşmə kursunda aparıcı və müəyyənedici rolu dövlətin müəyyən etdiyi strateji inkişaf kursu tutur. Bu məqam elmin sərbəstliyi ilə məsuliyyətinin sintezinin Azərbaycan təcrübəsinin formalaşması deməkdir. Həmin təməl üzərində isə bütövlükdə Türk dünyasında yeni alimlik və elmi yaradıcılıq təcrübəsinin yanaşmasına təşəbbüs etmək fəaliyyəti qurulur. Bu miqyasda və strateji məqsəddə nə Azərbaycanda, nə də Türk Dünyasında ikinci nümunə yoxdur.

Beləliklə, aparılan təhlillər bizi bir ümumi, lakin fundamental əhəmiyyəti olan nəticə çıxarmağa imkan verir. AMEA-nın yeniləşmə kursu geniş anlamda müasir mərhələdə rəqəmsallıqla süni intellektin elm və təhsil üzrə çağırışları fonunda yeniləşmə prosesinə başlamışdır.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Beşinci Respublika" böhran məngənəsində

## *Büdcə gəlirləri və pensiya yaşı ilə siyasi manevr*

**Fransa siyasəti son illər, sanki daimi təlatüm rejimindədir. Hər yeni hökumət xalqın və parlamentin gözündə "sınaq müddəti"ndə fəaliyyət göstərir. Baş nazir Sebastian Lekornu üçün bu sınaq elə əvvəldən ölüm-dirim savaşı kimi başlayıb. İkinci dəfə baş nazir təyin edilən Lekornu hökuməti formalaşdırdıqdan bir neçə gün sonra iki etimadsızlıq səsverməsi ilə üzləşdi. O, möcüzəli şəkildə "sağ çıxmağı" bacarsa da, baş verənlər Makronun mərkəzçi modelinin çətinliklə nəfəs aldığını, siyasi sistemdə parçalanmanın son həddinə çatdığını göstərir.**



Ümumiyyətlə, ölkədə keçirilən etimadsızlıq səsvermələri adətən sistemin iç üzünü açır. Bu dəfə də eyni mənzərə yaranıb. Solçu "Əyilməz Fransa" hərəkatının təşəbbüsü ilə keçirilən ilk səsvermədə hökuməti devirmək üçün 289 səs lazım idi. Amma nəticə 271 oldu və cəmi 18 səs fərqlə Lekornu hökuməti ayaqda qalmağı bacardı. Səsvermənin nəticələri parlamentin yarıdan çoxunun artıq hökumətə etimad etmədiyinin əyani sübutudur. İkinci etimadsızlıq təşəbbüsü ifrat sağçı Marin Le Penin "Milli Birlik" partiyasından gəldi. Təklif 144 səs topladı.

Siyasətdə qalibiyyətlə məğlubiyyət arasında incə bir xətt var. Lekornu bu dəfə iki səsvermədən xilas olmağı bacarsa da, idarəetmə qabiliyyəti sual altındadır. Devrilməkdən qurtulan Lekornu parlamentdəki çıxışında bildirib: "Ya siz gələn ilin büdcəsini müzakirə edirsiniz, ya da hökuməti batırıb siyasi xaosa səbəb olursunuz". Lekornunun fikirləri, əslində, Makronizm dövrünün mahiyyətini bir daha ortaya qoyur. Fransada çoxları hesab edir ki, məhz Makron hakimiyyəti ölkəni xaosa sürükləyir. Qeyd edək ki, baş nazirin budəfəki xilas mələyi "Sosialist Partiyası" olub. Partiya Makronun pensiya islahatlarını dayandıracağına dair vədindən sonra hökumətin devrilməsini dəstəkləməkdən imtina edib. Söhbət illərdir Fransa küçələrini alovlandıran pensiya islahatlarından gedir. Planlaşdırıldığı kimi, pensiya yaşı 62-dən 64-ə qaldırılmalı idi. Makron üçün bu iqtisadi "rasionalizm", xalq üçün isə sosial ədalətsizliyin simvoluna çevrilib. Hazırda islahatın dondurulması hökumətin güzəşti kimi təqdim olunsa da, əslində, sistem sosial təzyiq qarşısında geri çəkilib. Bununla belə, 7 sosialist deputat rəhbərliyin göstərişinə zidd gedərək hökumətin devrilməsi lehinə səs verib. Bu isə partiya daxilində ideoloji parçalanmanın və Makronun "mərkəzçi cazibə qüvvəsinin" artıq işləmədiyini göstərir.

İndi Lekornunun qarşısında daha çətin və təhlükəli sınaq dayanır. O, 2026-cı ilin büdcəsini dekabrın 31-nə qədər təsdiqlətməlidir. Parlamentin parçalanmış tərkibində prosesi aparmaq, demək olar ki, mümkün deyil. Çünki sol qüvvələr sosial kəsintilərə qarşı müqavimət, sağ qüvvələr isə millətçi iqtisadi prioritetlər tələb edir. Mərkəz isə hər iki tərəfə güzəştə getmədən çoxluq qazana bilmir. Belə şəraitdə büdcə müzakirələrinin ideoloji müharibəyə çevrilmək ehtimalı yüksəkdir. Yada salaq ki, Emmanuel Makron 2017-ci ildə hakimiyyətə gələndə Fransa siyasətində yeni səhifənin açıldığı düşünülürdü. O, "nə sağ, nə sol" prinsipi ilə köhnə siyasi sistemin sərhədlərini aşmaq və mərkəzçi sintez yaradacağını vəd etmişdi. Lakin 2022-ci ildə növbədənkənar seçkilərdən sonra parlament üç düşərgəyə bölündü. Bu isə Fransanı daimi hökumət böhranına saldı. Makronun yaratdığı "İnqilab" hərəkatı artıq nə inandırıcı ideologiya, nə də sosial baza baxımından əvvəlki kimi deyil. Onun ətrafındakı fiqurlar, o cümlədən Lekornu daha çox texnokratik idarəçilik təcrübəsinə əsaslanır. Amma xalq, xüsusilə də gənclər texnokratizmin əvəzinə sosial ədalət təmsilçisi axtarışındadır.

Beləliklə, bu gün Avropanın ikinci ən böyük iqtisadiyyatına malik ölkə siyasi baxımdan "labirint effekti" yaşayır. Xatırladaq ki, 577 deputatın olduğu parlamentdə qərarların qəbul olunması üçün ən az 289 səs lazımdır. Lakin bu səsi toplaya biləcək vahid ideoloji güc yoxdur. Əgər sol və ifrat sağ bir-birinə yaxınlaşsa, Makronizm üçün sonun başlanğıcı ola bilər. Təcrübə göstərir ki, Fransada belə koalisiya nadir hallarda baş verir. Buna baxmayaraq, hər yeni səsvermə ölkədəki balansın bir az da pozulduğunun əyani sübutudur. "Əyilməz Fransa" hərəkatının lideri Matild Panot parlamentdə çıxışında bununla bağlı açıq mesaj verib: "Lekornunu və onun hökumətini devirmək üçün cəmi bir neçə səs çatmadı. Bizim düşüncəmiz ölkə, gələn ilin büdcəsində elan edilən amansız siyasətin nəticələrindən əziyyət çəkəcək bütün insanlar haqqındadır". Panotun bəyanatı hazırda Fransa küçələrindəki əhval-ruhiyyəni ifadə edir. Son illər ölkədə "sarı jiletlilər" hərəkatından tutmuş pensiya etirazlarına qədər sosial partlayışlar dalğası səngimək bilmir. Bu günlərdə fermer və şərabçıların vergi idarəsinin binası qarşısında torpaq vergisinə qarşı etiraz etməsi bunu bir daha təsdiqləyir. İnsanlar Makronun "mərkəzçi sabitliyini" artıq sosial laqeydlik kimi qəbul edirlər.

"Milli Birlik" partiyasının lideri Jordan Bardellanın da mövqeyi diqqət çəkir: "Hökumət çox zəif dayaqlar üzərində durur. Maraqlarını qorumaq üçün pərdəarxası sövdələşmələri ilə toplanmış çoxluq bu gün vəzifələrini qorudu, amma milli maraqları qurban verdi". Parlamentin mərkəzçi sədri Yael Braun-Pivet isə kompromis üçün çağırış edib: "İndi hamımız qollarımızı çırmalamalıyıq. Büdcə müzakirələri istiqamətində hökumət dialoq və kompromis yolu tapmalıdır". Ancaq Fransa siyasətində kompromis mədəniyyəti çoxdan unudulub. İndi hər kəs qarşı tərəfi zəiflətməyə çalışır. Solçular Makronu burjua kapitalizminin simvolu sayır, sağçılar isə "Fransa kimliyinə" xəyanətdə suçlayır. Bu şəraitdə kompromis, sadəcə, boş təklif kimi səslənir…

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Yeganə HACIYEVA,**
**politoloq**

Fransa bu gün sosial-iqtisadi böhtan və bunun nəticəsi kimi siyasi dalanın içindədir. Bu durum hökumətin bütün qollarına sirayət edib və rəsmi Paris bu "xaosu" idarə etmək üçün müəyyən addımlar atır. Bu addımların bəzilərini faydalı hesab etmək olsa da, bəziləri əks effektlidir. Məsələn, son illər hökumət iqtisadi islahatlar keçirib və bunlar cəmiyyətin diqqət mərkəzində olub. İslahatların məqsədi büdcə kəsirini azaltmaq, onun idarəolunmasını və gəlirlərini artırmaqdır. Lakin bu addımların bir çoxu orta statistik fransız vətəndaşının maraqları ilə ziddiyyət təşkil edir. Yəni hökumət böyük biznes elitasının maraqlarına toxunmadan adi vətəndaşın imkanı hesabına büdcə gəlirlərini artırmaq qərarına gəlib. Bunlardan ən qalmaqallısı hökumətin start verdiyi pensiya islahatıdır. Eyni zamanda, Fransa dövləti büdcəyə qənaət etmək məqsədilə bəzi rəsmi tədbir və bayramlardan imtina edib. Məsələn, hökumət qənaət məqsədilə bir çox şəhərlərdə Milad bayramı çərçivəsində keçirilən yarmarkalar, küçələrin bəzənməsi və kütləvi tədbirlərə maliyyə ayrılmasından imtina edib. Yalnız bir neçə böyük şəhər istisna olmaqla əksər yerlərdə bələdiyyələr və meriyalar bu tədbirləri maliyyələşdirməkdən imtina ediblər. Başqa sözlə desək, hökumət iqtisadi qənaəti vətəndaşın hesabına həyata keçirir. Prezident Emmanuel Makron bu siyasətlə özünü daha çox biznes elitasının təmsilçisi kimi aparır. Nəticədə, cəmiyyətdə sosial narazılıq artır, mənfi əhval-ruhiyyə güclənir. Bütün bunların nəticəsini küçələrdə baş verən etiraz aksiyalarında aydın şəkildə görmək mümkündür. Makronun bu siyasəti uğurlu ola bilərmi? Məsələ ondadır ki, atılan addımların əksəriyyəti müvəqqəti təsir gücünə malikdir. Çünki büdcə gəlirlərinin artırılması, maliyyə sabitliyinin qorunması üçün fundamental dəyişiklik, yeni yanaşma lazımdır. Vətəndaşın hesabına qənaət edilmiş vəsaitlə büdcənin doldurulması qısamüddətli effekt verir. Bunun qarşılığı geniş kütlənin hökumətə qarşı mənfi reaksiyasıdır. Onsuz da prezident Emmanuel Makron populyarlığı ən aşağı səviyyəyə düşən dövlət başçılarından biri sayılır. O, iqtisadi islahat və qənaət tədbirləri adlandırdığı addımlarla vətəndaşlar arasında nüfuz limitini də tükəndirir.

# "Avropa Siyasi Birliyi" – Azərbaycan: strateji maraqların sinxronluğu

**Oktyabr ayının əvvəllərində Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci zirvə toplantısında Azərbaycan Prezidentinin iştirakı və orada keçirdiyi görüşlər ekspertlərin diqqətini cəlb edib. Onlar Azərbaycanın beynəlxalq arenada nüfuzunun yeni səviyyəyə yüksəldiyi fikrini ifadə edir, ölkəmizin geosiyasi təsir imkanlarından bəhs edirlər.**

### Strateji diskussiyalar

Hazırda Avropanın gələcəyi ilə bağlı strateji diskussiyaların vacibliyi ümumilikdə hər kəs tərəfindən qəbul edilir. Müxtəlif platformalarda bununla bağlı müzakirələr də aparılır. Bu kontekstdə siyasətçilərin və ekspertlərin diqqətini daha çox çəkən platformalardan biri "Avropa Siyasi Birliyi"dir.

"Avropa Siyasi Birliyi" hökumətlərarası əməkdaşlıq platformasıdır. Onun yaradılması ideyası 2022-ci ildə irəli sürülüb. Məqsəd Avropanın gələcəyi ilə bağlı siyasi və strateji müzakirələr aparmaqdan ibarətdir. Bu platforma Avropa İttifaqına üzv olan ölkələrlə qeyri-üzv ölkələr arasında siyasi-iqtisadi koordinasiyanı təşviq edir.

Layihənin əsas məqsədi Avropada təhlükəsizlik, iqtisadi sabitlik, demokratik idarəetmə kimi sahələrdə ümumi maraqları müəyyənləşdirməklə problemləri həll etməkdir. Həmin məqsədə çatmaq üçün iki istiqamətdə fəaliyyət gücləndirilməlidir: birincisi, bütün Avropa ölkələrinin siyasətlərinin koordinasiyasında yeni səviyyəyə çatmaq lazımdır; ikincisi, məsələlərin həllində dialoq və əməkdaşlığa nail olunmalıdır.

Bu prosesdə enerji böhranının aradan qaldırılması xüsusi yer tutur. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi buradakı ölkələrin milli təhlükəsizliyinin təmini kontekstində nəzərə alınır.

"Avropa Siyasi Birliyi" təşkilatın gələcək taleyinin inkişaf, təhlükəsizlik və əməkdaşlıq kontekstlərində kompleks şəkildə müzakirə olunduğu platformadır. Onun toplantılarında Avropa İttifaqına üzv olmayan dövlətlərin də iştirak etməsi onu göstərir ki, qonşuluq siyasətinə daxil olan ölkələrin də problemlərin həllində müəyyən dərəcədə iştirakı arzuolunandır. Bu kontekstdə Azərbaycanın yeri və rolu digər ölkələrdən fərqlənir.

### Azərbaycanın substantiv iştirakı

Sirr deyil ki, Avropa İttifaqının bütün üzvləri Azərbaycanın "Avropa Siyasi Birliyi"ndə iştirakında son dərəcə maraqlıdırlar. Bunun başlıca səbəbi Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmininə ciddi dəstək verməsidir. Təsadüfi deyil ki, ölkəmizin "Avropa Siyasi Birliyi"ndə təmsil olunan 47 dövlətdən 16-sı ilə strateji tərəfdaşlıq münasibətləri var, onlardan 10-u Aİ-nin üzvüdür. Ölkəmiz hazırda Avropanın 10, o cümlədən Aİ-nin 8 üzv dövlətinə "mavi yanacaq" ixrac edir. Bunlardan başqa, Azərbaycan Avropanın bir çox dövləti ilə müxtəlif sferalara aid layihələr həyata keçirir. Avropa Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Yeni layihələrdə enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizinin genişləndirilməsi, "yaşıl enerji" sahəsində əməkdaşlıq və yeni nəqliyyat marşrutlarının formalaşdırılması xüsusi yer tutur.

Qlobal geosiyasi proseslər fonunda aydın görünür ki, Avropanın Azərbaycana ehtiyacı daha da artıb. O cümlədən Rusiyanın enerji daşıyıcılarından imtina məsələsi Bakının aktuallığını Brüssel üçün ən yüksək səviyyəyə çıxarıb.

Nəhayət, Avropa üçün Azərbaycanı çox qiymətli edən bir faktı da vurğulamaq lazımdır. Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində qalib gəlməklə sübut etdi ki, Avropasız da uğur qazana bilər. Üstəlik, regional miqyasda nizamı, sülhü, barışığı və əməkdaşlığı təmin etmək iqtidarındadır. Buna görə də Avropa İttifaqı Azərbaycanla əməkdaşlığı daha da inkişaf etdirməyə məhkumdur. Və bütün bunların fonunda "Avropa Siyasi Birliyi"nin 7-ci zirvə toplantısının keçirilməsi və orada Azərbaycan Prezidentinin iştirakı ekspertlərin böyük marağına səbəb olub.



### 7-ci zirvə toplantısı

Kopenhagendəki zirvə toplantısında, ümumilikdə, 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak ediblər. Liderlər hazırkı geosiyasi vəziyyətdə Avropanı daha güclü və təhlükəsiz etməyin yollarını müzakirə edib, ümumi təhlükəsizlik və ayrıca Ukrayna ilə bağlı müzakirələr aparıblar. Bu sırada miqrasiya, iqtisadi təhlükəsizlik, ənənəvi və hibrid təhdidlər diqqət mərkəzində olub.

Müzakirə olunan mövzuların məzmunu göstərir ki, Azərbaycan Prezidenti ilə müzakirələrə ciddi maraq gözlənilən idi. İlham Əliyev həm qalib lider, həm də Avropanın təhlükəsizliyinə ciddi töhfələr verən dövlətin başçısı kimi yüksək nüfuza malikdir. Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin dövlət başçısı İlham Əliyevlə birgə görüşü ciddi mesajdır. Onlar Azərbaycan Prezidentini Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbrik ediblər, halbuki ötən illərdə məhz həmin sazişin imzalanmasına əngəllər yaradılırdı.

Bundan başqa, Aİ rəsmiləri nəqliyyat, enerji və rəqəmsal texnologiyalar sahəsində sərmayə qoyuluşunun davam etdiriləcəyini ifadə ediblər. Onlar bəyan ediblər ki, Aİ Azərbaycanı vacib tərəfdaş kimi qiymətləndirir və əlaqələrin möhkəmləndirilməsinə sadiqdir. Buradan geosiyasi və siyasi əhəmiyyətli bir nəticə çıxarmaq olar.

### Dünya siyasəti və artan beynəlxalq nüfuz

Kopenhagen sammitindən sonra ekspertlər belə bir tezis irəli sürürlər. Onlar yazırlar ki, müstəqil, çoxvektorlu xarici siyasət yürüdən Azərbaycanın təkcə regionda deyil, beynəlxalq arenada da nüfuzu artır. Azərbaycan regional və qlobal miqyasda əməkdaşlıq əlaqələrini gücləndirir, beynəlxalq aləmdə baş verən proseslərə, qlobal təhlükəsizliyə təhdid yaradan halların aradan qaldırılmasına öz töhfələrini verir.

Buna görə də Kopenhagendə Prezident İlham Əliyevlə ünsiyyət qurmağa çalışan çox dövlət başçıları olmuşdur. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol Ukrayna–Rusiya müharibəsi fonunda daha vacib amil kimi dəyərləndirilir. Azərbaycan Avropa İttifaqının həm enerji təhlükəsizliyinin təminatında əsas tərəfdaşlardan biridir, həm də Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin Qafqazda əsas mərkəzi məkanıdır. Sözsüz ki, bunlar Azərbaycanın dünyada nüfuzunu daha da artırır.

Bu prosesin özünəməxsus nəticələri də var. Onlardan biri qlobal geosiyasi proseslərə ölkənin təsir imkanlarının genişlənməsi ilə bağlıdır.

### Qlobal siyasi proseslərə təsir imkanları

Bu, çox əhəmiyyətli ümumi nəticədir. Onun vacibliyi Kopenhagendə Prezident İlham Əliyevə olan münasibətin fonunda qabarıq görünür. Çünki hər bir liderin qlobal siyasi proseslərə təsiri mühüm göstəricidir. Ekspertlərin Azərbaycanın Avropa İttifaqının gələcəyi ilə bağlı müzakirələrdəki mövqeyinə xüsusi önəm verməsi tamamilə yerindədir.

Onlara bir həqiqəti də əlavə etmək gərəkdir. Azərbaycan son zamanlar Orta Dəhliz kontekstində Zəngəzur məsələsini Qərbin siyasi gündəminə çıxarmağa müvəffəq olub. Bu addımın böyük nailiyyət olduğunu gələcək daha yaxşı göstərəcək. Ancaq indidən aydındır ki, Aİ-nin geosiyasi iddiaları müstəvisində Zəngəzur açar rolunu oynayan məsələlərdən biridir. Bu baxımdan E.Makronun İlham Əliyevə xüsusi hörmət nümayiş etdirməsi ilə yanaşı, N.Paşinyanla aparılan müzakirələrdə Zəngəzur məsələsinə ayrıca önəm verilməsi diqqətdən yayınmamışdır. Ekspertlər məsələnin bu tərəfini xüsusi təhlil edirlər.

Beləliklə, Azərbaycan Prezidentinin "Avropa Siyasi Birliyi"nin 7-ci zirvə toplantısında iştirakı mühüm tarixi hadisədir. Dövlət başçısının müzakirə etdiyi mövzular göstərir ki, Azərbaycanın dünyada siyasi və geosiyasi rolu yeni səviyyəyə yüksəlməklə yanaşı, qlobal siyasi proseslərə təsir imkanları da genişlənib. Eyni zamanda, Avropa rəsmilərinin münasibəti təsdiqləyir ki, həmin istiqamətdə proses davam edəcək!

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

# ATƏT sədrinin Gürcüstan müxalifətinə "reportaj" dəstəyi

## *Tbilisi "rəngli inqilab"dan rəng almamaqda qərarlıdır*



**Gürcüstanda yerli özünüidarəetmə orqanlarına seçkilərdən iki həftə keçsə də, müxalif düşərgədə etirazlar səngimək bilmir. Hakimiyyət 2025-ci il oktyabrın 4-də müxalifətin növbəti "inqilab" cəhdi iflasa uğrayandan sonra mitinq və küçə yürüşlərinin keçirilməsi qaydalarını pozanlara qarşı cəzaları sərtləşdirmək qərarına gəlib.**

İqtidardakı "Gürcü arzusu" partiyası qanunda kütləvi tədbirlərin keçirilməsi üçün müəyyən edilmiş qaydaların pozulmasına görə daha sərt inzibati cəzaları nəzərdə tutan dəyişikliklər paketini parlamentə təqdim edib. Yaxın vaxtlarda qəbul ediləcəyi gözlənilən qanun layihəsinə əsasən, üzüörtülü şəkildə etiraz aksiyasında iştiraka, nümayişçilərin gözyaşardıcı qaz və ya zəhərli maddələrdən və pirotexniki vasitələrdən istifadə etməsinə, habelə yolların bağlanmasına və ya müvəqqəti tikililərin quraşdırılmasına görə 15 günə qədər inzibati həbs cəzası nəzərdə tutulur.

Bu cəza təşkilatçılar üçün 20 günə qədər, etiraz aksiyası zamanı silahın, pirotexniki vasitələrin və ya "oxşar əşyaların" saxlanması və daşınmasına görə 60 sutkayadək həbsdir. Daxili İşlər Nazirliyinin mitinqə son qoyulması tələbini yerinə yetirməkdən imtina edilməsi isə 60 sutkaya qədər həbslə cəzalandırılacaq. Bu cür əməllərin təkrar törədilməsi cinayət məsuliyyəti yaradır: bir ilədək azadlıqdan məhrumetmə, residiv halında isə iki ilə qədər. Bundan başqa, Gürcüstanın Cinayət Məcəlləsinə "polis əməkdaşını təkrar və ya sistemli şəkildə təhqiretmə və ya tabeolmama" ilə bağlı yeni maddənin daxil edilməsi təklif edilir. Bir ilədək müddətə azadlıqdan məhrumetmə, təkrar cinayət törətmiş şəxslər üçün isə iki ilə qədər həbs cəzası nəzərdə tutur.

"Gürcü arzusu" parlament fraksiyasının sədri İrakli Kirtsxaliya bəyan edib ki, belə hallarda "alternativ cəzalar tətbiq edilməyəcək". Beləliklə, Gürcüstan hakimiyyəti yeni "Maydan"ların və "rəngli inqilabların" qarşısının alınması üçün ciddi addımlar atmaq qərarına gəlib. Axı özlərini müxalifət sayan qüvvələrin arxasında duran kənar qüvvələri nəzərə almamaq mümkün deyil. 4 oktyabr 2025-ci il hadisələrini şərh edən Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili sosial şəbəkədə açıq şəkildə bildirib ki, "Tbilisidəki küçə müharibələrinin arxasında Brüssel dayanır. Bu xarici qüvvələr Gürcüstanı "sülh içində" tərk etməyəcəklərini və yeni "inqilab"ı dəstəkləməyə hazır olduqlarını bir daha bəyan etdilər".

***

Oxucuların diqqətinə maraqlı bir məqamı çatdırmaq istərdik. ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiyanın xarici işlər naziri Elina Valtonen 2025-ci il oktyabrın 14-də Gürcüstan parlamenti qarşısında müxalifətin mitinqində nümayişkaranə şəkildə iştirak edib və orada videoçəkilişlər aparıb. Bunu sosial şəbəkədə paylaşan ATƏT sədri yönəldici mətn yazmağı da "unutmayıb: "Bir çox insan bura Avropa İttifaqının, NATO-nun və Finlandiyanın bayraqlarını dalğalandıraraq gəlir. Amma ən əsası Gürcüstan bayraqlarıdır. Səbəb odur ki, bu insanlar öz ölkələrinin getdiyi istiqamətdən narahatdırlar. Onların ifadə və sərbəst toplaşmaq azadlığından başlayaraq fundamental azadlıqlardan məhrum edən istiqamətdən. Aydındır ki, bu insanlar bütün bu hüquqlara layiqdirlər və biz onları dəstəkləmək üçün buradayıq".

Videogörüntüdə maraqlı detal üzə çıxıb. ATƏT-in fəaliyyətdə olan sədrini hətta onun lentə aldığı videoda Tbilisinin Rustaveli prospektində dediyi kimi, "çox adamın" görünməməsi heç də narahat etməyib. Müxalifət hətta kiçik bir izdiham toplaya bilməyib. Görüntülərdə əllərində bayraqlar tutan yalnız səpələnmiş etirazçılar görünür.

Beləliklə, Gürcüstan müxalifətinin konstitusiyaya zidd rejim dəyişikliyinə növbəti cəhdi davam edir. Onlar açıq şəkildə Aİ ölkələri tərəfindən əlaqələndirilir və bu ölkələrin yüksək rütbəli məmurları Gürcüstanın daxili işlərinə açıq-aşkar müdaxilə edir və bunu gizlətmirlər də. Təbii ki, Gürcüstan hakimiyyəti buna reaksiya verməyə məcburdur. Təsadüfi deyil ki, Elina Valtonenin açıq demarşından sonra Gürcüstanın baş naziri İrakli Kobaxidze onunla əvvəllər planlaşdırılan görüşü ləğv edib. "Qeyri-qanuni mitinqdə iştirakı və dünən verdiyi yalan bəyanatlar səbəbindən baş nazir Finlandiyanın xarici işlər naziri ilə planlaşdırılan görüşü ləğv edib", – hökumətin bəyanatında deyilir.

Ölkənin "Birinci Kanal"ına müsahibəsində Baş nazir İrakli Kobaxidze bildirib ki, Finlandiyanın xarici işlər nazirinə Avropa bürokratiyası Gürcüstanda əvvəldən uğursuzluğa məhkum olan "inqilabi prosesi" təşviq etmək tapşırığını verib. Bununla da, o, "məşhur feminist Baia Pataraia səviyyəsinə enib".

"Həm Bayya Pataraiaya, həm də bu qadına tapşırıqlar verilir. Onların arasında heç bir fərq yoxdur. Bu gün Avropa İttifaqında ən acınacaqlı, faciəli durum budur - Avropa bürokratiyasının Baia Pataraia səviyyəsinə düşməsi. Bu, həqiqətən də, olduqca faciəvi məsələdir. Onlara nə tapşırıblarsa, onu da yerinə yetirirlər. Yəni ATƏT sədri nəinki etirazını bildirməyib, 50 nəfərdən ibarət qeyri-qanuni etiraz aksiyasına qatılıb. Yalan danışmağa məcbur olub. Deyirlər ki, xeyli insan toplaşıb, Finlandiya bayraqları dalğalanıb. Boş-boş danışıblar. O, hətta Baia Pataraiadan bir səviyyə aşağıdır. Salome Zurabişvilidən də bir səviyyə aşağıdır. Bu, Avropa bürokratiyasının bu gün bizə göstərdiyi həqiqi simasıdır. Bunun başqa izahı yoxdur. Onlar hər şeyi mükəmməl bilirlər, lakin onlara tapşırıq verilib və onu yerinə yetirməlidirlər", – deyə İrakli Kobaxidze vurğulayıb.

Reallıq ondan ibarətdir ki, bütün dünyada davam edən, qabaqcadan təbliğatı aparılmış və mütəşəkkil kütlələrin köməyi ilə həyata keçirilən dövlət çevrilişləri silsiləsi xarici qüvvələrin Gürcüstanda analoji "rəngli inqilab" təşkil etmək üçün yeni cəhdlərdən əl çəkəcəyini deməyə əsas vermir.

Bu yaxınlarda Fransanın keçmiş koloniyası olan Madaqaskarda da oxşar çevriliş baş verib. Qərb mətbuatının yazdığına görə, korrupsiya və məişət problemlərindən narazı olan "üsyankar gənclər" hərbçilərin dəstəyi ilə küçələrə çıxıb və prezidenti ölkədən qaçmağa məcbur ediblər. Digər ölkələrin təcrübəsi göstərir ki, bu cür "inqilabların" uğur qazanması üçün təkcə Z nəslinin iştirakı deyil, həm də etirazçılarda cəzasızlıq hissinin olması vcibdir. Məhz bu cəzasızlıqdır ki, hakim "Gürcü arzusu" partiyası qaraguruha qarşı mitinq və küçə etirazlarını tənzimləyən qanunvericiliyə düzəlişlər təklif etməklə mübarizə aparmaq qərarına gəlib.

ATƏT-in arzuladığı növbəti "inqilabın" ölkə və onun xalqı üçün yarada biləcəyi ağır nəticələri nəzərə alaraq, "Gürcü arzusu"nun qanunvericilik təşəbbüsləri vaxtında atılan addım və zəruri tədbir hesab edilməlidir.

***İ.HƏSƏNQALA***
***XQ***

# Ararat Mirzoyanın vurğuladığı 3 məqam

## *İrəvan sülh istəyirsə...*

**Deməli, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan dünən ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiyanın xarici işlər naziri Elina Valtonenlə birgə mətbuat konfransında əsasən üç məsələ barədə söz açıb. Həmin məsələləri diqqətə çatdıracaq və onlarla əlaqədar fikrimizi bildirəcəyik.**



Birincisi, erməni XİN rəhbəri Azərbaycanla sülh prosesindən danışarkən deyib ki, ölkəsi konstitusiya dəyişikliyi ilə əlaqədar üzərinə heç bir öhdəlik götürməyib. Əlbəttə, Mirzoyan haqlıdır. Ermənistan rəsmi Bakı sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü ATƏT-in Minsk qrupunun ləğvi barədə şərt irəli sürəndə də bu tələbi yerinə yetirmək kimi öhdəlik götürməmişdi. Amma məlum olduğu kimi, hər şey Azərbaycanın bəyan etdiyi kimi oldu. Yeri gəlmişkən, deyək ki, E.Voltonen qrupun bu il dekabrın 1-də fəaliyyətini rəsmən dayandıracağını bildirib.

Belə düşünmək olar ki, Ermənistanda konstitusiya dəyişikliyi məsələsi də eyni qaydada həllini tapmalıdır. Mirzoyana məsələni ölkəsinin öhdəlik götürməməsi şəklində izah xoşdursa, buyursun. Azərbaycan üçün prosesin özü maraqlıdır. Yəni rəsmi Bakıya lazımdır ki, Ermənistan konstitusiyası İstiqlaliyyət Bəyannaməsi kimi işğalçı mahiyyətə söykənmiş sənədə istinad etməsin, ümumən erməni dövlətinin sənədlərində Azərbaycana qarşı ərazi iddiası motivi yer almasın.

İkinci məqama keçid alaq. Mirzoyan "Azərbaycanda saxlanılan erməni əsirlərin" azad olunacağına ümid etdiyini bildirib. Əvvəla, söhbət erməni əsirlərdən getmir. Əsir müharibə dövründə olur. Bakıda məhkəməsi gedən şəxslər isə bu kateqoriyada dəyərləndirilə bilməzlər. Onlar cinayətdə şübhəli bilinirlər. Ermənistan ərazisində də cinayət törətmiş azərbaycanlılar ola bilər. İndiki durumda bu hal ona görə müşahidə edilmir ki, heç bir azərbaycanlı Ermənistan dövlətinin ərazisində separatçı rejim yaratmamışdı. Yəni, motiv bəllidir və yaxşı olar ki, Mirzoyan məsələləri bir-birinə qarışdırmasın. Çünki belə davranmaq sülh prosesinə tamamilə ziddir. Üstəlik, Azərbaycanda Beynəlxalq Qırmızı Xaç Komitəsinin ofisinin olmamasının vəziyyəti çətinləşdirdiyinə dair ritorikanın təbliğinin də İrəvana hansısa faydası olmayacaq. Bunu hamıdan əvvəl Mirzoyan bilməli olduğu halda, təəssürat yaranır ki, o, məsələnin fərqində deyil, yaxud ciddiliyini anlamaq qabiliyyətindən uzaqdır. Onu da deyək ki, vaxtilə Ermənistan hakimiyyəti Qarabağdan köçmüş ermənilərin geri qayıdışı mövzusunu da prioritet sayırdı. Rəsmi İrəvanın nümayəndələri necə ki, indi məsələdən söz düşəndə bunu mümkünsüz, hətta təhlükəli adlandırırlar, Azərbaycan ərazilərində çoxsaylı cinayətlərdə şübhəli bilinən şəxslərin azadlığa buraxılmaları gündəmə gətirmək də eyni məzmun daşıyır.

Üçüncü məqamdan söz açarkən bildirək ki, Mirzoyanın dedikləri əslində, məlum məsələlərdir. Məsələn, o, "Tramp marşrutu"nun erməni-amerikan müştərək şirkəti tərəfindən inşa ediləcəyini vurğulayıb. Aydındır ki, bu məqam avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin ABŞ Prezident Donald Trampın şahidliyi ilə imzaladıqları Birgə Bəyannamədə də əksini tapıb. Aydın olmayan Mirzoyanın vurğunu marşrut işə düşərkən Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin pozulmasının mümkünsüzlüyü üzərinə qoymasıdır. Yəni yaxşı olar ki, rəsmi İrəvan belə deyimləri tarixin arxivinə göndərib konkret işə keçsin, regional kommunikasiyaların tez bir zamanda açılmasına çalışsın. Nəzərə alsın ki, sülhün başlıca komponenti məhz budur.

***Ə.RÜSTƏMOV***
***XQ***

*20 Oktyabr Ümumdünya Statistika Günüdür*

# İnkişaf yolunun rəqəmsal mənzərəsi

**Dayanıqlı inkişafın dəstəklənməsi məqsədilə keyfiyyətli rəsmi statistik məlumatlar əsasında aparılan təhlillər və əsaslandırılmış siyasi qərarların qəbulunda statistik məlumatlar mühüm rol oynayır. Bütün bunları, eləcə də rəsmi statistikanın uzunmüddətli tarixini nəzərə alan Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası müvafiq qətnamə qəbul edərək 2010-cu il oktyabr ayının 20-si Ümumdünya Statistika Günü elan etmiş və onun "Rəsmi statistikanın bir çox nailiyyətlərinin bayram edilməsi" mövzusu üzrə keçirilməsini qərara almışdır.**



Bu qətnaməni qəbul etməklə Baş Assambleya etibarlı statistik məlumatların hazırlanmasında milli statistika qurumlarının fundamental əhəmiyyətini rəsmən təsdiq etmişdir. BMT Baş Assambleyasının tövsiyəsinə uyğun olaraq hər 5 ildən bir oktyabr ayının 20-si dünya ölkələri tərəfindən Ümumdünya Statistika Günü kimi qeyd olunur. 2010-cu ildən başlayaraq Ümumdünya Statistika Günü müxtəlif şüarlarla öz aktuallığını saxlayır. Milli statistika potensialının fundamental əhəmiyyət daşıdığı, etibarlı statistikanın milli, regional və beynəlxalq səviyyədə siyasətin formalaşdırılması üçün əsas olduğu nəzərə alınaraq 2015-ci ildə Ümumdünya Statistika Günü "Daha təkmil statistika, daha yaxşı həyat", 2020-ci ildə "Dünyanı birləşdirən etibarlı məlumatlar" şüarları altında qeyd olunub.

Builki təntənənin isə "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarı ilə qeyd olunması qərara alınıb. Həmin şüarlar, adətən BMT-nin ixtisaslaşmış qurumları, o cümlədən Beynəlxalq Əmək Təşkilatı (BƏT) ilə əməkdaşlıq çərçivəsində reallaşan qlobal məqsədlərlə uzlaşdırılır. Bu baxımdan, Dövlət Statistika Komitəsi tərəfindən Azərbaycanda da Ümumdünya Statistika Gününün yüksək səviyyədə qeyd olunmasını təmin etmək məqsədilə müvafiq tədbirlər həyata keçirilir.

Sosial ədalətə əsaslanan, əmək münasibətlərini təşviq edən BƏT dünyada əmək bazarı haqqında dəqiq və etibarlı məlumatların istehsalını, yayılmasını və təhlilini vacib saymaqla milli statistika qurumları ilə sıx əməkdaşlıq edir. Bu da üzv ölkələrin potensialının artırılmasına, beynəlxalq səviyyədə qəbul edilmiş qabaqcıl yanaşmaların milli səviyyədə istifadəsini stimullaşdırmağa kömək edir. Hər 5 ildən bir keçirilən "Əmək statistiklərinin beynəlxalq konfransı" kimi BƏT-in təşəbbüsləri qlobal səviyyədə əmək bazarının vahid metodologiya ilə ölçülməsinə şərait yaradır.

Beləliklə, Ümumdünya Statistika Günü həm də bu kimi beynəlxalq əməkdaşlığın genişləndirilməsi üçün mühüm platforma rolunu oynayır. Təsadüfi deyil ki, BƏT-in statistik fəaliyyəti, o cümlədən əmək statistikası sahəsində beynəlxalq standartların hazırlanmasının 100 illiyi 2023-cü ildə keçirilmiş Əmək statistiklərinin 21-ci beynəlxalq konfransında təntənəli şəkildə qeyd edilib.

Sosial-iqtisadi sistemin əsas göstəricilərindən biri kimi əmək bazarı sahəsində istehsal olunan statistik məlumatlar hər bir ölkənin əməkhaqqı və məşğulluq siyasətinin düzgün formalaşmasında əsas rol oynayır. BƏT tərəfindən hazırlanmış standartlar ölkələrə öz milli statistik sistemlərini beynəlxalq səviyyəyə uyğunlaşdırmağa imkan verir. Əmək statistiklərinin beynəlxalq konfransları tərəfindən qəbul edilən qətnamələr, tövsiyələr, metodoloji izahlar əmək statistikasına dair beynəlxalq standartları müəyyənləşdirir. Milli səviyyədə əmək statistikasına dair statistik məlumatların toplanma və işlənmə metodları, eləcə də digər sənədlər hazırlanarkən bu beynəlxalq standartlar əsas götürülür.



Ölkəmizdə əmək statistikasının inkişafı ilə bağlı Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən əhəmiyyətli islahatlar aparılmış, müasir çağırışlara uyğun əmək statistikası sahəsində rəsmi statistikanın təşkili və həyata keçirilməsi, o cümlədən statistik məlumatların vaxtında və keyfiyyətlə toplanması, işlənilməsi, müasir tələblərə uyğun hazırlanması və yayılması, metodoloji tövsiyələrin, statistik hesabat və müayinə formalarının son dövrlər qəbul edilmiş beynəlxalq standartlara uyğunlaşdırılması, qabaqcıl xarici təcrübələrin milli praktikaya tətbiqi istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Belə ki, əmək statistikasının son dövrlər qəbul edilmiş beynəlxalq standartlara uyğun inkişaf etdirilməsini, bu sahədə statistik informasiya təminatının yaxşılaşdırılmasını təmin etmək məqsədilə Dövlət Statistika Komitəsi və Avropa İttifaqının Statistika Bürosu (Avrostat) arasında əməkdaşlıq çərçivəsində 2018-2019-cu illərdə Avrostat tərəfindən beynəlxalq ekspertlər cəlb edilməklə Azərbaycanda əmək statistikasının sektoral qiymətləndirilməsi (xarici auditi) həyata keçirilmişdir.

Qiymətləndirmənin nəticəsi olaraq 2021-ci ildə BƏT-in metodoloji sənədləri, o cümlədən Əmək statistiklərinin 19-cu beynəlxalq konfransında qəbul edilmiş əmək fəaliyyətinin növləri, qeyri-formal məşğulluğu özündə əks etdirən məşğulluq və s. son beynəlxalq standartlar, eləcə də Avrostatın "Statistikaya dair tələblər – Kompendium" metodik tövsiyəsi nəzərə alınmaqla qurumun cəlb etdiyi beynəlxalq ekspertlərin köməyi ilə müvafiq müayinə formaları və statistik hesabatlar, onların metodologiyası, müayinənin keçirilməsi üçün ev təsərrüfatlarının seçmə metodologiyası təkmilləşdirilmiş və milli səviyyədə tətbiqinə başlanılmışdır.

Təsadüfi deyil ki, MDB Dövlətlərarası Statistika Komitəsi tərəfindən cəlb edilmiş beynəlxalq ekspert tərəfindən 2024-cü ildə hazırlanmış hesabatda BƏT-in son beynəlxalq standartlarına uyğun Azərbaycanda milli səviyyədə tətbiq olunan işçi qüvvəsinə dair statistik müayinə forması digər MDB ölkələri ilə müqayisədə daha yüksək qiymətləndirilmişdir. Bununla yanaşı, İslam Ölkələrinin Statistik, İqtisadi və Sosial Tədqiqatlar və Təlim Mərkəzi tərəfindən milli səviyyədə yeni beynəlxalq standartların tətbiq olunması, əmək bazarının təhlili üçün bu metodologiyalar əsasında statistik müşahidələrin aparılması, məlumatların toplanılması sahəsində real vaxt rejiminin tətbiqi, məlumatların beynəlxalq müqayisəliliyinin təmin olunması və s. sahələr üzrə əldə olunan təcrübə nəzərə alınaraq İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin milli statistika qurumlarının əməkdaşlarının potensialının artırılması məqsədilə Dövlət Statistika Komitəsinin mütəxəssisləri tərəfindən üzv dövlətlərin milli statistika qurumlarının əməkdaşlarına onlayn təlimin keçirilməsi təşkil edilmişdir.

BƏT-in metodologiyası əsasında əldə olunan ölkənin əmək bazarını xarakterizə edən işçi qüvvəsi, o cümlədən məşğul və işsiz əhali, muzdla çalışan işçilər, əməkhaqqı, əmək şəraiti və digər göstəricilərə dair məlumatlar beynəlxalq müqayisəliliyi təmin etməyə, əmək bazarının ətraflı təhlilinə, həmçinin ölkə Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilmiş Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdən, sayca 6-cı olan "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"ndan, BMT Baş Assambleyasının qəbul etdiyi "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən, "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"ndan irəli gələn layiqli əmək göstəriciləri də daxil olmaqla əmək statistikasına aid tədbirlərin uğurla həyata keçirilməsinə imkan verir. Eyni zamanda, məşğulluq statistikasında şəffaflıq və rəqəmsallaşma səviyyəsinin əhəmiyyətli dərəcədə artması ölkəmizin əmək bazarının strukturunu ətraflı və obyektiv təhlil etməyə, işsizliyin, qeyri-formal məşğulluğun azaldılmasına və yeni iş yerlərinin yaradılmasına şərait yaradır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24-26 sentyabr 2025-ci il tarixində Bakı şəhərində Avropa, Asiya, Amerika və Afrika qitələrini təmsil edən müxtəlif ölkələrin milli statistika qurumlarının, beynəlxalq təşkilatların, elmi dairələrin nümayəndələrinin iştirakı ilə keçirilmiş "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda 3-cü Beynəlxalq Statistika Forumunun iştirakçılarına ünvanlandığı müraciətində milli statistika sistemlərinin inkişafı, qlobal statistik təşəbbüslərə inteqrasiya və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıdığını, həmçinin Azərbaycanda milli statistika sisteminin ardıcıl şəkildə inkişaf etdirildiyi, rəsmi statistik məlumatların beynəlxalq standartlara uyğun, innovativ yanaşmalar əsasında istehsalının daim diqqət mərkəzində saxlanıldığı xüsusi vurğulanmışdır.

*Nemət XUDUZADƏ,*
*Dövlət Statistika Komitəsinin*
*şöbə müdiri*

# Statistika xidməti yeniləşir, müasirləşir

**Ölkəmizdə rəsmi statistikanın yaradılmasından 105 il keçir. 1920-ci il avqust ayının 19-da Azərbaycan İnqilab Komitəsi tərəfindən dövlət statistikası haqqında ilk Əsasnamə təsdiq edilib. Statistika orqanları bütün dövrlərdə qarşıda duran vəzifələri zamanın tələblərinə uyğun yüksək işgüzarlıqla, uğurla həyata keçiriblər. Ölkənin sosial-iqtisadi inkişafına dair elmi cəhətdən əsaslandırılmış statistik məlumatlar vaxtında, operativ qaydada yığılaraq işlənib və müvafiq dövlət qurumlarına, cəmiyyətin digər təbəqələrinə çatdırılıb.**




Ölkəmizdə milli statistika sisteminin inkişafı xalqımızın böyük oğlu, dünya şöhrətli görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin rəhbərliyi ilə aparılan uğurlu islahatlar sayəsində bazar iqtisadiyyatı prinsiplərinə uyğun milli statistika sisteminin formalaşdırılması prosesinə başlanılmış, rəsmi statistikanın inkişafı istiqamətində uğurlu addımlar atılmışdır. Bütün bunları yüksək dəyərləndirən Ümummilli lider demişdir: "Bizim Dövlət Statistika Komitəsi çox düzgün statistika aparır".

Azərbaycan ərazi bütövlüyünü, suverenliyini tam bərpa etdikdən sonra statistik məlumatlar ölkənin bütün ərazilərini əhatə edir. Dövlətimizin və hökumətin yüksək qayğısı sahəsində statistik məlumatlar daha geniş informasiya məkanında paylaşılır. Ölkə Prezidenti cənab İlham Əliyevin dövrün tələblərinə, müasir çağırışlara uyğun davam etdirdiyi islahatlar statistikanın yeniləşməsinə və müasirləşməsinə güclü təkan verib, statistikanın inkişafına dair 6 Dövlət Proqramı uğurla icra edilib.

Bu proqramlar çərçivəsində milli statistik təsnifatların, müasir metodologiyaların hazırlanması və tətbiqi, Milli Hesablar Sisteminin qurulması, yeni statistika sahələrinin yaradılması və təkmilləşdirilməsi, istifadəçilərin statistik məlumatlara olan tələbatının ödənilməsi, elektron statistikanın inkişafı, keyfiyyəti idarəetmə sisteminin tətbiqi, statistika orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirilib. Görülmüş tədbirlərin nəticəsidir ki, ixtisaslaşmış beynəlxalq təşkilatlar tərəfindən aparılmış qlobal qiymətləndirmədə xarici ekspertlər Azərbaycanın milli statistika sistemində həyata keçirdiyi islahatların beynəlxalq standartlara uyğun olduğunu qeyd ediblər. Dövlət Statistika Komitəsi "Rəsmi statistika məlumatlarının istehsalı və yayılması" sahəsində nüfuzlu beynəlxalq audit şirkətləri tərəfindən beynəlxalq uyğunluq sertifikatına layiq görülüb.

Ölkəmizdə milli statistika sistemi ardıcıl şəkildə inkişaf etdirilir, rəsmi statistik məlumatların beynəlxalq standartlara uyğun, innovativ yanaşmalar əsasında istehsalına xüsusi diqqət yetirilir. Rəsmi statistika sahəsində müasir texnologiyalara, süni intellektə və rəqəmsal transformasiyaya əsaslanan islahatlara önəm verilir. Ölkəmiz aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edərək qlobal inkişafa layiqli töhfələr verir.

Dövlətimiz tərəfindən statistik xidmətin inkişafına və bu xidmətin dünyanın ən inkişaf etmiş ölkələrinin xidmətləri səviyyəsinə qaldırılmasına daim qayğı göstərilir. Azərbaycanda beynəlxalq standartlara cavab verən yeniləşmiş, müasirləşmiş statistika fəaliyyət göstərir. Dövlət Statistika Komitəsi 50-dən çox beynəlxalq təşkilat və ölkənin statistika orqanları ilə əməkdaşlıq edir və məlumat mübadiləsi aparır.

Azərbaycan statistika sahəsində mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir. Keçən ay Bakıda III Beynəlxalq Statistika Forumu keçirilib. Bu mötəbər tədbir milli statistika sistemlərinin inkişafı, qlobal statistik təşəbbüslərə inteqrasiya və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Forum çərçivəsində müxtəlif ölkələrin statistika qurumlarının, beynəlxalq təşkilatların, elmi dairələrin nümayəndələri bir araya gələrək statistika sahəsində müasir bilik və qabaqcıl təcrübələrini bölüşüblər.

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 64/267 nömrəli qətnaməsinə əsasən 2010-cu il oktyabr ayının 20-si Ümumdünya Statistika Günü elan edilib. Bu qətnaməni qəbul etməklə Baş Assambleya etibarlı statistika məlumatlarının hazırlanmasında milli statistika təşkilatlarının fundamental əhəmiyyətini rəsmi şəkildə təsdiq edib. BMT-nin müvafiq qərarı ilə bu il oktyabrın 20-də Ümumdünya Statistika Günü "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" mövzusu üzrə qeyd ediləcək.

Ümumdünya Statistika Gününün 100-dən çöx ölkədə, habelə BMT və digər beynəlxalq təşkilatlar tərəfindən təntənəli şəkildə qeyd ediləcəyi nəzərdə tutulub. Ölkəmiz bu əlamətdar günün qeyd olunmasına xüsusi önəm verir. Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsində Ümumdünya Statistika Günü ilə əlaqədar xüsusi bölmə yaradılıb və bu mövzuda ardıcıl şəkildə materiallar yerləşdirilir.

Paytaxt Bakı ilə yanaşı, yerli statistika orqanları tərəfindən regionlarda da tədbirlərə start verilib. Azərbaycan statistikasının tarixi, bu günü və inkişaf perspektivləri, sosial-iqtisadi siyasətin formalaşdırılmasında rolu, statistika elminin nailiyyətləri, iqtisadi-statistik təhlillərin, mühüm statistik göstəricilərin və onların hesablanma metodologiyaları, statistikaya dair beynəlxalq aləmdə baş verən yeniliklər geniş ictimaiyyətə çatdırılır.

Müasir dövrdə statistika cəmiyyətin tərəqqisini, dövlət siyasətinin effektivliyini və qlobal çağırışlara cavabvermə qabiliyyətini qiymətləndirmək üçün mühüm vasitələrdən birinə çevrilib. Etibarlı statistik məlumatlar dayanıqlı inkişafın təmin olunmasında, əsaslandırılmış qərarların qəbulunda və şəffaf idarəetmənin qurulmasında mühüm rol oynayır.

*Ağaddin ŞAHVERDİYEV,*
*Lənkəran Şəhər Statistika*
*İdarəsinin rəis müavini*

*Həsən Həsənov – 85*

# Görkəmli dövlət xadimi, nüfuzlu ziyalı

**İnsan həyat yolunda özünə ideal axtarır. İllər keçdikcə örnək saydığı şəxsiyyətin yaxşı keyfiyyətlərini özündə görmək istəyir, həyatda ona oxşamağa çalışır. Bu baxımdan ümummilli lider Heydər Əliyevin idarəçilik məktəbində tərbiyələnib yetkinləşmiş görkəmli siyasət və dövlət xadimi Həsən Əziz oğlu Həsənovun rəhbər timsalı ötən onilliklərdə ictimai-siyasi fəaliyyət sahəsində uğur qazanmış bir çox soydaşımız üçün önəmli nümunə olub.**



Xidməti fəaliyyətimlə bağlı mən də bu yurdsevər, təşəbbüskar, işgüzar dövlət xadimini Kirovabadda (indiki Gəncə) Şəhər Partiya Komitəsinə rəhbərlik etdiyi dövrdə yaxından tanımış, onun rəhbərliyi altında çalışmışam. O zamandan Həsən Həsənovun uğurlu, daim yüksəlişdə olmuş fəaliyyətini təmin edən istimai-siyasi, mənəvi-əxlaqi dəyərləri və idarəçilik təcrübəsini mənimsəməyə çalışmışam.

Kirovabad Şəhər Daxili İşlər İdarəsinə nazirlik aparatından məsul vəzifəyə göndərildiyim həmin dövrdə buradakı irili-xırdalı problemlər respublika rəhbərliyini də ciddi narahat edirdi. O vaxt Gəncə şəhərində kriminogen durum da ağır idi. Şəhərin əvvəlki rəhbərliyinin idarəetmədə buraxdığı səhvlər, yol verdiyi ciddi nöqsanlar, qüsurlar ictimai-siyasi vəziyyəti xeyli gərginləşdirmişdi. Gəncə kimi mühüm strateji əhəmiyyətli bölgədə kadr dəyişikliyinin aparılmasına zərurət yaranmışdı. Şəhərdə vəziyyəti sağlamlaşdırmaq, ciddi dönüşə nail olmaq üçün respublika rəhbəri Heydər Əliyevin tövsiyəsi əsasında 39 yaşlı partiya kadrı Həsən Həsənov Kirovabad Şəhər Partiya Komitəsinin birinci katibi vəzifəsinə seçildi.

Şəhərin yeni rəhbəri gənc olmasına baxmayaraq, dərin zəkası, idarəçilik bacarığı, problemləri həll etmək məharəti ilə qısa müddətdə əhalini narahat edən məsələləri yoluna qoydu. Onun yurdsevərliyi, insanlara qayğıkeş münasibəti şəhər sakinlərinin nəzərindən qaçmadı. Həsən müəllim sağlam qüvvələri ətrafında toplamaqla Ulu öndərin etimadını doğrultdu, əsl milli rəhbər nümunəsi ilə əhalinin də rəğbətini qazandı. O, Gəncədə əldə etdiyi nailiyyətləri ilə ölkə üçün də gərəkli kadr olduğunu nümayiş etdirdi. Bütün bunlara görə ümummilli lider Heydər Əliyev onu Azərbaycanın ali rəhbərliyində daha məsul vəzifəyə aparmışdı.

Həsən Həsənov 1940-cı il oktyabr ayının 20-də Tbilisi şəhərində dünyaya göz açıb. 1958-ci ildə şəhərdəki 43 saylı orta məktəbdə oxuyub. 1991-ci ildə Azərbaycan Dövlət Politexnik İnstitutunu (indiki Azərbaycan Texniki Universiteti), 1981-ci ildə isə Bakı Ali Partiya məktəbini (indiki Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) müvəffəqiyyətlə bitirib. Tələbəlik dövründə yüksək işgüzarlığı, ictimai fəallığı ilə seçilib, komsomol təşkilatına rəhbərlik edib. 1962-ci ildə tələbə ikən Ümumittifaq Komsomolunun XIV qurultayının nümayəndəsi olub.

1960-1967-ci illərdə paytaxtda tələbə şurasının sədri olan Həsən Həsənov sonrakı dövrdə Bakı Şəhər Komsomol Komitəsində təlimatçı, Yasamal Rayon Komsomol Komitəsinin katibi, Respublika Komsomolu MK-da bölmə müdiri vəzifələrində çalışıb. 1966-1967-ci illərdə Tikinti Materialları və Konstruksiyaları Elmi-Tədqiqat İnstitutunun aspiranturasında elmi-tədqiqatla məşğul olub.

Karyera pillələrində göstərilən etimadı məsuliyyət və işgüzarlıqla doğruldan komsomol fəalı 1967-ci ildə Azərbaycan Kommunist Partiyası MK-da təlimatçı, 1969-cu ildə Moskvada Ümumittifaq Komsomolunun Mərkəzi Komitəsində məsul təşkilatçı vəzifəsinə irəli çəkilib. 1971-ci ildə Azərbaycanın rəhbəri, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Həsən Əziz oğlu Vətənə qayıdaraq Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində təlimatçı, bölmə müdiri, şöbə müdirinin müavini vəzifələrində işləyib. 31 yaşında Bakı Şəhər Səbail Rayon Partiya Komitəsinin birinci katibi seçilən Həsən müəllim 1978-ci ildə Sumqayıt Şəhər Partiya Komitəsinin birinci katibi seçilib.

Sonrakı illərdə respublikamızın ikinci böyük şəhəri Gəncədə də rəhbər fəaliyyətini uğurla, yüksək işgüzarlıqla davam etdirən Həsən Həsənov ictimai-siyasi sabitliyə, siyasi-mədəni mühitin yüksəlişinə, sosial-iqtisadi inkişafın sürətləndirilməsinə, qədim Gəncənin simasının özünə qaytarılmasına nail olub.

O zaman Daxili İşlər Nazirliyinin və Şəhər Partiya Komitəsinin tövsiyəsi əsasında şəhərin müəssisə və təşkilatlarında aparılan yoxlamalarda iştirak edir, aşkar olunan nöqsanlar, çatışmazlıqlar haqqında birinci katibə məlumat verir, ondan göstəriş və məsləhətlər alırdıq. Həsən müəllimdə olan yüksək təşkilatçılıq bacarığı, idarəetmə qabiliyyəti, insanlarla səmimi ünsiyyət yaratması hamı kimi məni də valeh edirdi. Sözün əsl mənasında, bu böyük insan o vaxt mənim idealıma çevrildi. Bu insanın yüksək mədəniyyətini, natiqlik qabiliyyətini görüb həyatda ona oxşamağa çalışırdım.

Şəhərin ictimai-siyasi həyatında fəal iştirakımı, təşkilatçılıq qabiliyyətimi, işgüzarlığımı nəzərə alaraq Həsən müəllimin razılığı ilə şəhərin hüquq-mühafizə orqanları üzrə partiya təşkilatı katibinin ideoloji məsələlər üzrə müavini seçildim. Digər gənc kadrlar kimi mənim də fəaliyyətim birinci katibin diqqət mərkəzində idi. O illərdə Gəncə şəhərində bacarıqlı, işgüzar, fəal gənclərin rəhbər vəzifələrə hazırlanmasında və irəli çəkilməsində Həsən müəllimin müstəsna xidmətləri olub.

Məhz şəhərin uzaqgörən, səriştəli, təcrübəli rəhbərinin təşəbbüsü, Azərbaycan xalqının böyük oğlu, dünyaşöhrətli dövlət xadimi Heydər Əliyevin yüksək qayğısı sayəsində o vaxt Kirovabad şəhərində Gəncə və Kəpəz adlı iki rayon yaradıldı: Burada Həsən müəllimin məqsədi həm də Gəncə adını yaşatmaq, tarixi həqiqəti bərpa etmək idi. O dövrdə Həsən müəllimin təşəbbüsü, yüksək diqqət və qayğısı sayəsində Gəncə Rayon Milis Şöbəsinin rəisi vəzifəsinə irəli çəkildim.

Ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı, daha yüksək etimadı ilə Azərbaycan KP MK-nın 1981-ci il yanvar plenumunda Həsən Həsənov ideoloji məsələlər üzrə katib seçilib. Bu sahəyə rəhbərlik etdiyi dövrdə Həsən müəllim Azərbaycanın elm, ədəbiyyat və tarixinin bir sıra qadağan olunmuş mövzularına həsr edilmiş monoqrafiya və əsərlərin işıq üzü görməsinə qayğı göstərib, görkəmli elm, ədəbiyyat və incəsənət adamları ilə səmimi ünsiyyət yaradıb. 1983-cü ildə üstün milli təmayülünə görə Həsən müəllim Kremlin göstərişi ilə məhz ideoloji sahədən uzaqlaşdırılıb.

Artıq respublika rəhbərliyində layiqli nüfuz və təcrübə qazanmış Həsən Həsənov 1983-1988-ci illərdə MK-nın tikinti məsələləri üzrə katibi, 1988-1990-cı illərdə iqtisadiyyat məsələləri üzrə katibi vəzifələrində çalışıb. O, 1990-1992-ci illərdə Azərbaycan Respublikası Nazirlər Sovetinin sədri vəzifəsinə irəli çəkilərək Qarabağ münaqişəsinin müharibəyə çevrildiyi və ağır böhran yaşandığı bir şəraitdə ölkə hökumətinə bacarıq və prinsipiallıqla rəhbərlik edib.

Həsən müəllim Qarabağ münaqişəsinin ilk günlərindən xalqımızın maraqlarının qızğın müdafiəçilərindən biri olub. Ölkəmizin ən çətin, ağır günlərində, xüsusən Qarabağ hadisələri baş verəndə, Qərbi Azərbaycandan soydaşlarımız zorla ata-baba yurdlarından didərgin salınanda, xalqımızın başına 20 Yanvar faciəsi gətiriləndə respublika rəhbərləri arasında xalqa ən yaxın, doğma, öndə gedən Həsən müəllim olub. Azərbaycanın haqq səsinin, Dağlıq Qarabağ həqiqətlərinin beynəlxalq aləmə çatdırılmasında görkəmli dövlət xadimi Həsən Həsənovun misilsiz xidmətləri onu xalqa daha da sevdirib, ürəklərdə özünə əbədi heykəl ucaldıb.

Həsən Həsənov 52 yaşından başlayaraq xarici siyasət və diplomatiya sahəsində fəaliyyət göstərib. O dövrdə Azərbaycanın müstəqil dövlət diplomatiyası sıfırdan qurulurdu. 1991-ci ildə Azərbaycan müstəqilliyini elan edəndə heç bir ölkədə səfirimiz yox idi. Keçmiş SSRİ Xarici İşlər Nazirliyində azərbaycanlılar sayca azlıq təşkil edir və aşağı vəzifələrdə işləyirdilər. Ölkəmizdə peşəkar diplomatlar çatışmırdı.

Ermənilərin isə xarici ölkələrdə güclü lobbiləri var idi və onlar öz ölkələrinin səfirlərini əvəz edirdilər. Dünyanın əksər ölkələrində ermənilər parlament, hökumət, Xarici İşlər Nazirliyi səviyyəsində təmsil olunurdu. Belə çətin bir dönəmdə 1992-1993-cü illərdə Həsən Həsənov BMT-də (Nyu-York) Azərbaycan Respublikasının daimi nümayəndəsi, fövqəladə və səlahiyyətli səfir vəzifəsində çalışıb. Həsən müəllimin diplomatiyası, siyasəti də iti ağıla, dərin elmi təfəkkürə, sağlam düşüncəyə, səmimiyyətə söykənirdi.

O vaxt BMT Baş katibinin təhlükəsizlik üzrə köməkçisi erməni millətindən idi. Baş katib Təhlükəsizlik Şurasının iclaslarında fikirlərini onun diktəsi ilə açıqlayırdı. Həsən müəllim qarşıya çıxan çətinlikləri, maneələri məharətlə aşaraq ən yüksək tribunalarda ölkəmizin mövqeyini təkidlə, cəsarətlə, diplomat peşəkarlığı ilə qoruyurdu.

1993-cü ilin iyun ayında xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra diplomatiyamız inkişaf etməyə başladı. Xarici ölkələrdə səfirliklər yaradıldı, diplomat kadrlarının hazırlanmasına xüsusi diqqət göstərildi. Ulu öndərin yüksək qayğısı sayəsində Həsən Həsənov 1993-cü ildə yüksək posta – Azərbaycan Respublikasının xarici işlər naziri vəzifəsinə təyin olundu. Bu vəzifədə o, 5 il dövlətçiliyə sədaqətlə xidmət edərək ölkəmizin beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi üçün var qüvvə ilə çalışdı.

Baş diplomatımız kimi Həsən Həsənov BMT, UNESCO, İKT-nin illik toplantılarında Azərbaycan nümayəndə heyətinə rəhbərlik səlahiyyətini uğurla həyata keçirdi. BMT-nin Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi barədə 4 qətnamə və 6 bəyanatının qəbul olunmasında Həsən müəllimin gərgin əməyi olub. O, bəzən bir sənədin qəbulundan ötrü ayrı-ayrı ölkələrin diplomatları ilə çoxsaylı görüşlər keçirib, Azərbaycanın haqlı mövqeyini qətiyyətlə müdafiə edib.

Həsən Həsənov həm də 23 il fasiləsiz Azərbaycan və İttifaq parlamentlərinin – 1977–1995-ci illərdə Azərbaycan Ali Sovetinin, 1979–1984-cü illərdə SSRİ Ali Sovetinin, 1995–2000-ci illərdə Milli Məclisin deputatı, müstəqil Azərbaycanın ilk Konstitusiyasını hazırlayan komissiyanın üzvü olub. Müstəqil Azərbaycan Respublikasının ilk Baş naziri, ilk fövqəladə və səlahiyyətli səfiri missiyasını həyata keçirmək də onun qismətinə yazılıb.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Həsən Həsənov 2004-cü ildən ölkəmizin Macarıstanda və Polşada 21 il müddətində səfiri olub.

Həsən Həsənov elmi və bədii yaradıcılıqla da məşğuldur. Texniki təhsili olmasına baxmayaraq, 2004-cü ildə Bakıda "SSRİ-də milli təmayülçü hərəkat" mövzusunda namizədlik, 2006-cı ildə Tbilisidə "Tarixin fəlsəfəsi" mövzusunda doktorluq dissertasiyalarını müvəffəqiyyətlə müdafiə edib. O alim və yazar kimi türk xalqlarının tarixinə, mədəniyyətinə, adət-ənənələrinə aid "Tarixin hədəfi" ("Tarixin fəlsəfəsi"), "Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti", "Türklüyümüz, Misir amuleti və heroqlifləri Azərbaycanda" adlı monoqrafiyaların, "Azərbaycanın Avropaya inteqrasiyası" əsərinin, çoxsaylı çıxışlar və məqalələr toplularının, Azərbaycan Dövlət Dram Teatrının səhnəsində tamaşaya qoyulmuş dahi mütəfəkkir Mirzə Fətəli Axundovun həyat və fəaliyyətinə həsr edilmiş "Brüsseldən məktublar" pyesinin müəllifidir. Azərbaycan, türk, ingilis, gürcü və rus dillərini mükəmməl bilir.

Azərbaycan Prezidenti İlham Əliyevin 30 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif olunub. Həsən müəllim mənalı ömrünü doğma Azərbaycana, ölkəmizin inkişafına, milli dövlətçiliyimizin qorunmasına və möhkəmlənməsinə, xalqımızın rifah halının yüksəlməsinə həsr edib. Vəzifə məsuliyyətini ailə qayğılarından həmişə üstün tutub.

Həsən müəllimin Azərbaycan cəmiyyətində hörməti, nüfuzu olduqca böyükdür. Fəxri təqaüddə olsa da, hər yerdə yüksək səviyyədə qarşılanır, sağlam, fəal həyat tərzi keçirir. Ölkəmizin ictimai-siyasi və mədəni həyatında fəal iştirak edərək Azərbaycanın çoxəsrlik tarixini, milli-mənəvi dəyərlərini geniş surətdə təbliğ edir. Düşünürəm ki, onun keçdiyi həyat yolu, zəngin mənəvi irsi, çoxşaxəli fəaliyyəti əsl həyat məktəbidir. Bu məktəbin məzunları da kifayət qədər çoxdur. Onun zəkasına, müdrik məsləhətlərinə cəmiyyətimiz daim ehtiyac duyur. Alimlərimiz onun ömür yolunu, zəngin idarəetmə təcrübəsini, nəzəri irsini tədqiq və təbliğ edirlər.

Mənim həyatda idealım olan hörmətli Həsən müəllim bu gün də ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edir. Onun Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının Azərbaycandan olan həmsədri kimi fəaliyyəti xalqlarımızın vahid amallar və məqsədlər yolunda birləşməsinə xidmət edir.

Azərbaycanın görkəmli dövlət və ictimai xadimi, yurdsevər alimi və nüfuzlu ziyalısı olaraq Həsən Həsənov bu gün də nəcib, xeyirxah duyğularla yaşayır, yorulmadan, gənclik həvəsi ilə çalışır. Ümummilli lider Heydər Əliyev məktəbinin müdrik yetirməsini 85 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, uzun və mənalı ömür, gələcək fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

***İbrahim QULİYEV,***
***hüquq elmləri doktoru,***
***professor, Əməkdar müəllim***

# Azərbaycan şairinin kitabı özbək dilində



**Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, professor, şairə Mahirə Nağıqızının özbək dilində çap olunan "Yenə ay keçər, illər ötər" şeirlər kitabının Daşkənddə təqdimatı keçirilib. Mərasimdə Özbəkistanın ədəbiyyat və incəsənət xadimləri, müəllim və tələbələr iştirak ediblər.**

Yeni nəşri ərsəyə gətirmiş Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli bildirib ki, Mahirə Nağıqızının dilçi alim, pedaqoq, ali təhsil təşkilatçısı və şair kimi çoxsaylı əsərləri, elmi və yaradıcılıq əlaqələri ilə Azərbaycandan kənarda da geniş tanınır, elmi konfranslara, ədəbi-mədəni məclislərə dəvətlər alır. Özbəkistanla sıx əlaqələri bu ölkədə çoxlu dostlar və böyük auditoriya qazandırıb. Yeni toplu Mahirə xanımın özbək dilində birinci kitabıdır və gələcəkdə onun digər əsərlərinin də nəşri nəzərdə tutulur.

Özbəkistan Yazıçılar İttifaqı sədrinin müavini Qayrat Məcid qeyd edib ki, kitabın layihə rəhbəri və "Ön söz"ün müəllifi filologiya üzrə elmlər doktoru, dosent Kərimulla Məmmədzadə, redaktoru Məhbubə Orazbayeva, tərcüməçiləri Nəsibə Abduzairova, Dürdanə Amanova və Abdirahim Elboyevdir. O, M.Nağıqızını təbrik edərək kitabdakı şeirlərin özbək oxucular üçün də maraqlı olduğunu söyləyib.

AMEA Ədəbiyyat İnstitutunun Asiya ədəbiyyatı şöbəsinin müdiri, professor Bədirxan Əhmədov, institutun professoru Sevinc Əliyeva, Özbək Dili və Ədəbiyyatı Universiteti Füzuli mərkəzinin rəhbəri, dosent Gülbahar Aşurova, kitabın layihə rəhbəri, tərcüməçiləri və digər çıxış edənlər nəşrin iki xalqın ədəbi əlaqələrinə və özbək oxuculara layiqli töhfə olduğunu bildiriblər.

Sonda Mahirə Nağıqızı çıxış edərək kitabın tərcüməsi və çapı üçün Mədəniyyət Mərkəzinin rəhbərliyinə minnətdarlığını bildirib, ümumtürk qardaşlığını və birliyini tərənnüm edən şeirlərini oxuyub.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

*Naxçıvan xəbərləri*

# Qadın problemləri mövzusunda konfrans

**Dünən Naxçıvanda "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" BMT Konvensiyasının Azərbaycan Respublikasında ratifikasiya olunmasının 30 illiyi ilə əlaqədar "Bərabərlik və ədalət yolunda 30 il: nailiyyətlər və çağırışlar" mövzusunda konfrans keçirilib.**



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, Azərbaycanın 1995-ci ildə bu konvensiyanı ratifikasiya etməsi insan hüquqları və gender bərabərliyi sahəsində sistemli və davamlı siyasətin başlanğıcı olub. Bu siyasətin təməl prinsipləri ulu öndər Heydər Əliyev tərəfindən formalaşdırılıb. Bu gün isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun şəkildə ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilir. Fuad Nəcəfli ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakına görə qadınlara təşəkkür edib.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova da qeyd edib ki, bərabərlik və ədalət olan yerdə insan hüquqları da etibarlı təmin olunur. Bu baxımdan, konfransın bu mövzuya həsr olunması aktuallıq kəsb edir. Komitə sədri qadınları dəstək proqramlarında fəal iştiraka səsləyib.

Milli Məclisin deputatı, Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri Hicran Hüseynova, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova ölkəmizdə gender bərabərliyinin uğurlarından söz açıblar.

Konfrans "Qadın hüquqlarının hüquqi təməl prinsipləri, bu gün və gələcəyə baxış: beynəlxalq və milli qanunvericilik kontekstində" və "İnsan hüquqlarında bərabərlik: sosial və siyasi dəyişikliklər və gender ədaləti" mövzularında panel müzakirələrlə davam edib.

Sonda iştirakçılara bədii hissə təqdim edilib.

# Ali Məclisin payız iclası

**Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il payız sessiyasının növbəti iclası keçirilib.**



Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, deputatların Ali Məclisin plenar iclaslarında iştirakı ilə bağlı məsuliyyətinin və intizamın artırılması məqsədilə "Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VI QN nömrəli Qanunu ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi hazırlanıb və Hüquq siyasəti komitəsinin iclasında müzakirə olunub.

Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev qanun layihəsi barədə məlumat verib və komitənin rəyini diqqətə çatdırıb. Sonra layihə səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəlikdə duran ikinci məsələ ilə əlaqədar bildirilib ki, Ali Məclisin Daxili Nizamnaməsinə əsasən, uyğunlaşdırma məqsədilə hazırlanmış, texniki xarakter daşıyan dəyişiklikləri nəzərdə tutan layihələrə bir oxunuşda baxılır. Qanun layihəsi Hüquq siyasəti komitəsinin iclasında müzakirə edilib.

Komitənin məlumatından sonra layihə səsə qoyularaq qəbul edilib.

İclasda cari məsələlər də müzakirə edilib.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Zəfərin növbəti ünvanları – Füzuli və Xudafərin

## *Müzəffər Ordumuzun azadlıq və ədalət yürüşü davam edirdi*

**2020-ci ilin payızında Azərbaycan xalqı tarixinin ən qürurlu günlərini yaşadı. Prezident İlham Əliyev oktyabrın 18-də özünün rəsmi "Twitter" səhifəsində ordumuzun qədim Xudafərin körpüsü üzərində Azərbaycan bayrağını qaldırması ilə bağlı məlumat verdi. Belə bir tarixi paylaşım xalqın yaddaşına əbədi həkk olundu. Bu məlumat uğurlu hərbi əməliyyatın nəticəsi olmaqla bərabər, həm də 30 ilə yaxın davam edən ədalətsizliyə son qoyan çağırış idi.**



Əsrlər boyu Azərbaycan tarixinin, mədəniyyətinin və dövlətçiliyinin simvolu kimi dəyərləndirilən Xudafərin körpüsü üzərində üçrəngli bayrağın qaldırılması Dövlət Sərhəd Xidməti hərbi birləşmələrinin güc-qüdrətinin, uğurlu hərbi əməliyyatın ifadəsi olmaqla bərabər, həm də əcdadlarımızın ruhuna, milli kimliyə və tarixi yaddaşa qayıdış idi. Xudafərin üzərində dalğalanan bayraq Azərbaycan Silahlı Qüvvələrinin qətiyyətini, xalqın iradəsini və dövlətin suverenliyini bütün dünyaya nümayiş etdirdi.

Xudafərinin azad olunması Azərbaycan hərbi gücünü, mənəvi-psixoloji ruh yüksəkliyini daha da artırdı. Savaşdan sonra Prezident İlham Əliyev tərəfindən Xudafərin körpüsünün işğaldan azad olunması əməliyyatında iştirak etmiş bir sıra hərbi qulluqçumuz "Azərbaycan bayrağı" ordeni, eləcə də "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə mükafatlandırıldı.

Yeri gəlmişkən, bu körpü Arazın hər iki sahilində yaşayan azərbaycanlıların bir-biri ilə əlaqəsini gerçəkləşdirən möhtəşəm sənət əsəridir. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın da Vətən müharibəsi başa çatandan cəmi 6 gün sonra məhz Cəbrayıl rayonuna səfər etmələri, Xudafərin körpüsündə Azərbaycan Bayrağının qaldırılması da bu ərazilərin ölkəmiz üçün nə qədər mühüm önəm daşıdığımı göstərir.

***

Vətən müharibəsi Azərbaycan xalqının müasir tarixində milli qürur, ədalət və suverenlik duyğularının ən parlaq təcəssümünə çevrildi. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın 2020-ci il oktyabrın 18-də rəsmi "Instagram" səhifəsində Füzuli şəhəri və rayonun bir sıra kəndlərinin işğalçıdan təmizlənməsi ilə bağlı paylaşdığı səmimi, lakin dərin mənalı fikirlər bu tarixi dövrün həm mənəvi ruhunu, həm də milli həmrəyliyin məğzini özündə ehtiva edirdi. Mehriban xanımın "Bu, ədalətin təntənəsidir!" sözləri təkcə bir şəhərin azad olunmasının sevinci deyildi, eyni zamanda, xalqımızın illərlə çəkdiyi həsrətin, iztirabın, eləcə də qürur və qələbə duyğularının ifadəsi idi.

Füzulinin azad olunması həm hərbi, həm də mənəvi baxımdan İkinci Qarabağ müharibəsinin gedişində dönüş nöqtəsi oldu. 1993-cü ildən etibarən işğalda saxlanılan bu qədim Azərbaycan torpağı uzun bir dövrdə neçə-neçə ailənin yaddaşında həsrət, nisgil və ağrı ilə anılırdı. Şəhərin azad olunması ilə həmin ağrı sevincə, nisgil isə qürura çevrildi. Füzuli zəfəri Azərbaycanın suverenliyinin bərpası yolunda əhəmiyyətli mərhələ idi, çünki bu qələbə ilə düşmənin müdafiə xətti yarıldı, daha sonra isə Hadrut, Cəbrayıl, Zəngilan və Şuşa istiqamətlərində strateji üstünlüklər düşməndən geri alındı.

Qeyd edək ki, bu hadisənin cəmiyyətimizdə doğurduğu emosional ovqat təkcə hərbi uğurla izah olunmurdu. Ona görə ki, Füzuli zəfəri, əslində, 30 illik ədalətsizliyə verilən tarixi cavab idi. Belə ki, Azərbaycan xalqı bu qələbədə ordumuzun döyüş hünəri ilə bərabər, həm də dövlətin siyasi iradəsini, xalqın birliyini və milli mənəviyyatın sarsılmazlığını gördü.

Birinci vitse-prezidentin paylaşımı məzmun və üslub baxımından da milli birliyin, eləcə də vətənpərvərliyin nümunəsi idi. Onun "illər boyu bir çox soydaşımız Vətən həsrəti ilə yaşayıb" ifadəsi Qarabağ həsrətinin təkcə fiziki deyil, eyni zamanda, mənəvi iztirab olduğunu xatırladırdı. Bu sözlərdə bir xalqın keçmişinə, ağrılarına və ümidlərinə dərin hörmət duyulurdu.

Paylaşımın sonunda səslənən "Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!" cümləsi isə milli ideyanın və inamın ifadəsi kimi səslənirdi. Bu çağırış, eyni zamanda, Azərbaycan xalqının liderinə, ordusuna və müqəddəs Vətən anlayışına olan sədaqətin parlaq ifadəsi idi.

Xatırladaq ki, Mehriban xanım Əliyevanın fəaliyyətində hər zaman olduğu kimi, Vətən müharibəsi günlərində də insanlıq və mərhəmət ön planda idi. Bu dövrdə onun paylaşdığı mesajlar cəmiyyətdə ruh yüksəkliyi yaradır, xalqın həmrəyliyini möhkəmləndirirdi. Bu, sadəcə rəsmi bəyanat deyildi, eyni zamanda, xalqla birgə yaşanan hisslərin, çəkilən ağrıların və birgə qazanılan qələbənin ifadəsi idi.

Mehriban xanımın çıxış və paylaşımlarında dərin humanizm duyulur. O, hər bir əsgərin həyatına və sağlamlığına dua edir, bu da dövlət rəhbərliyinin insan amilinə verdiyi dəyəri açıq şəkildə göstərir. Hər bir döyüşçünün taleyinə bu qədər diqqət göstərmək isə dövlətin, hakimiyyətin və cəmiyyətin vəhdətini möhkəmləndirən əsas mənəvi dayaqlardan biridir.

Füzuli zəfəri kimi hərbi uğurlar, adətən, ordunun cəsarəti, güc-qüdrəti və dövlətin strateji planları ilə əlaqələndirilir. Lakin bu savaşın ideoloji cəbhəsində dövlətimizin başçısı ilə bərabər, Birinci vitse-prezidentin paylaşımları da xüsusi məna daşıyırdı. Onun çıxışlarında analıq duyğusu ilə vətən sevgisi birləşərək cəmiyyətin mənəvi sütunlarından birinə çevrildi. Hər bir paylaşımda təkcə informasiya yox, həm də səmimi hisslər diqqət çəkirdi. Məhz buna görə də bu mesajlar minlərlə insan tərəfindən paylaşılır, yüz minlərlə azərbaycanlının qəlbində ümid və inam işığına çevrilirdi.

Mehriban xanım Əliyevanın sözügedən paylaşımında "Bu, ədalətin təntənəsidir!" cümləsi, əslində, bütün müharibənin fəlsəfi mahiyyətini əks etdirirdi. 30 il ərzində Azərbaycanın beynəlxalq hüquq çərçivəsində səbir və diplomatiya yolu ilə bərpa etməyə çalışdığı ədalət, nəhayət ki, Azərbaycan Ordusunun şücaəti sayəsində reallığa çevrildi. Bu ədalət sərhədlərin bərpası ilə yanaşı, həm də milli ləyaqətin, tarixi yaddaşın və xalq ruhunun dirçəlişi idi. Füzuli şəhəri və Füzuli rayon kəndlərinin azad edilməsi də ədalətin qalib gəlməsindən, tarix qarşısında milli birliyin qələbə çalmasından xəbər verirdi.

***

Beləliklə, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəsmi sosial media paylaşımları Vətən savaşı günlərində informasiya müharibəsinin mühüm silahına çevrildi. Sözügedən qısa, lakonik və qətiyyətli paylaşımlar xalqın inamını daha da möhkəmlətdi, beynəlxalq ictimaiyyətin diqqətinə ölkəmizin ədalətli mövqeyini çatdırdı. 2020-ci il 18 oktyabr tarixli paylaşımları da əvvəlki uğur məlumatları kimi Azərbaycan ictimaiyyətində milli ruhun yüksəlməsinə, dövlətimizin diplomatik mövqelərinin möhkəmlənməsinə önəmli təsir göstərdi.

Xudafərin körpüsündə bayrağın ucaldılması və Füzulinin azadlığa qovuşması Azərbaycanın müasir tarixinə qızıl hərflərlə yazıldı. Bu hadisələr xalqın milli ruhunun, dövlətin güc-qüdrətinin və Silahlı Qüvvələrin əzmkarlığının parlaq ifadəsinə çevrildi. Bu qələbələr, eyni zamanda, Azərbaycan xalqının ədalət, azadlıq və suverenlik uğrunda mübarizəsinin məntiqi nəticəsi idi.

# Füzulinin işğaldan azad olunmasından 5 il ötür




Vətən müharibəsinin 21-ci gününə təsadüf edən 2020-ci ilin 17 oktyabrı Füzuli şəhərinin və ətraf kəndlərin erməni işğalından azad edildiyi gündür. Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı sərəncama əsasən, həmin tarix Füzuli Şəhəri Günü kimi qeyd olunur.

İkinci Qarabağ müharibəsinin cənub-şərq cəbhəsində ən mühüm döyüşlərdən biri olan Füzuli uğrunda savaşın ilk saatlarından bu rayonun təmas xəttindəki bir neçə müdafiə zolağının yarılması nəticəsində ordumuz strateji üstünlüklər qazandı, doğma torpaqlarımızın azadlığı uğrunda böyük şücaət və qəhrəmanlıq göstərdi. Silahlı Qüvvələrimiz uğurlu Füzuli əməliyyatı ilə Cəbrayıl və Xocavənd rayonlarının bir sıra yaşayış məntəqələrini də işğalçıdan təmizlədi.

Bununla belə, qeyd etmək lazımdır ki, Füzuli uğrunda savaş Vətən müharibəsi zamanı ən ağır döyüşlərdən oldu. Belə ki, düşmən 30 il ərzində cəbhənin təmas xəttində möhkəm istehkamlar qurmuşdu. Hətta buna görə bir çoxu Füzulini işğaldan azad etmək üçün uzun müddət lazım olacağını düşünürdü. Lakin Azərbaycan əsgəri Vətən torpaqları naminə bütün maneələri ildırım sürəti ilə keçməyə qadir olduğunu sübuta yetirdi.

Ermənistan silahlı birləşmələrinin ən çox möhkəmləndiyi Füzuli şəhərini azad etmək məqsədilə ərazini mühasirəyə almaq və düşməni yerində məhv etmək üçün xüsusi plan hazırlandı. Strateji yüksəkliklər, düşmənin möhkəmləndiyi ərazilər qəhrəman ordumuzun şücaəti sayəsində düşməndən geri alındı. Uğurlu hərbi əməliyyatlar və Azərbaycan Ordusunun Zəfər yürüşü nəticəsində oktyabrın 3-də cəbhənin cənub-şərq istiqamətində Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı, Tərtərin Suqovuşan və Talış kəndləri düşməndən təmizləndi.

Növbəti gün Cəbrayıl şəhəri, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan, Dəjəl, Karxulu, oktyabrın 5-də isə Şıxalıağalı, Sarıcallı və Mərəzə kəndləri azadlığa qovuşdu. Erməni hərbçilərinin Füzulidəki təminat yollarını sıradan çıxarmağın artıq vaxtı çatmışdı. Oktyabrın 9-da Azərbaycan Ordusunun yüksək dəqiqliklə apardığı hərbi əməliyyatlar nəticəsində Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi, Füzulinin Yuxarı Güzlək, Gorazıllı, Cəbrayılın Qaracallı, Əfəndilər və Süleymanlı yaşayış məntəqələrinin azad edilməsi düşməni mühasirəyə almaq üçün əlverişli şərait yaratdı.

Sonrakı günlərdə bir sıra əlverişli yüksəkliklər, eləcə də Füzuli və Xocavəndin bir sıra kəndləri aparılan hərbi əməliyyatlar zamanı Azərbaycan Silahlı Qüvvələrinin nəzarətinə keçdi və Füzuli şəhəri mühasirəyə alındı. Nəhayət, oktyabrın 16-dan 17-nə keçən gecə şəhərin azad olunması əməliyyatını yerinə yetirmək vaxtı çatdı. Ordumuz bu istiqamətdə yüksək peşəkarlıq və döyüş əzmi nümayiş etdirdi, qarşıya qoyulan əməliyyat planını uğurla yekunlaşdırdı – Füzuli şəhəri, Qoçəhmədli, Cuvarlı, Pirəhmədli, Musabəyli, Çimən, İşıqlı və Dədəli yaşayış məntəqələri azadlığa qovuşdu. Bu tarixi Qələbə 44 günlük şanlı Vətən savaşının gedişatında həlledici mərhələlərdən biri oldu.

Bu gün Füzuli rayonu və onun yaşayış məntəqələri yenidən qurulur, tarixi abidələri bərpa olunur. Eyni zamanda, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiqlənən 2022-2026-cı illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində Böyük Qayıdışa dair I Dövlət Proqramı" böyük uğurla həyata keçirilir.

Müharibədən sonrakı illərdə rayon ərazisində çox sayda bağça, məktəb və xəstəxana tikilib, rahat yollar, yaraşıqlı parklar, yaşayış kompleksləri salınıb. Bu istiqamətdə layihələrin icrası davam etdirilir. Füzuli rayon sakinlərinin bir hissəsi doğma yurd yerlərinə qayıdıb. Artıq 5 ildir ki, Füzulidə Azərbaycanın üçrəngli Bayrağı dalğalanır. Aparılan böyük quruculuq işləri nəticəsində indiyədək 3 mindən çox sakin öz ata-baba yurduna qayıdaraq orada yaşamağa başlayıb.

Qeyd edək ki, Baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin isə 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Müasir standartlara və memarlıq xüsusiyyətlərinə uyğun inşa olunacaq Füzuli işğaldan azad edilən ərazilərdə ən böyük şəhərlərdən biri olacaq. Şəhərin dayanıqlı inkişafına, sakinlərin rifahına töhfə verəcək "ağıllı" şəhər konsepsiyası irəli sürülüb.

***V.BİNYATOĞLU***
***XQ***



# Vətən müharibəsinin xronikası

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.***

## 18 oktyabr

• Prezident İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində Silahlı Qüvvələrimizin qədim Xudafərin körpüsü üzərində Azərbaycan bayrağını qaldırması ilə bağlı məlumat verib.

• Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli şəhərinin və Füzuli rayonunun bir sıra kəndlərinin işğaldan azad edilməsi ilə bağlı rəsmi "İnstagram" hesabında paylaşım edib.

• Müdafiə Nazirliyinin məlumatına əsasən, Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində işğalçının 2 ədəd S-300 ZRK, 3 ədəd BM-21 "Qrad" YARS qurğusu, 2 ədəd "Smerç" yaylım atəşli raket sistemi, beşdən çox tank, bir neçə haubitsa və zenit topları, o cümlədən avtomobil texnikaları və xeyli sayda canlı qüvvəsi məhv edilib.



Füzuli ərazisində düşmənin hərbi hissəsi bölmələrimiz tərəfindən ələ keçirilib. Ermənistan ordusunun Ağdərə, Füzuli, Hadrut, Cəbrayıl istiqamətində hücuma keçmək cəhdləri Silahlı Qüvvələrimizin bölmələri tərəfindən qətiyyətlə dəf olunub və düşmən itki verərək geri çəkilməyə məcbur edilib.

Məlumatda daha sonra bildirilir ki, Azərbaycan Ordusu əməliyyat ərazisində humanitar atəşkəs rejimini tam təmin etməklə, cəsədlərin toplanılması, eyni zamanda, tərəflərdə olan əsirlərin dəyişdirilməsi üçün lazımi şəraiti yaratmaqdadır. Təəssüf ki, Ermənistan tərəfi humanitar atəşkəs rejiminə məhəl qoymadan işğaldan azad edilmiş əraziləri, o cümlədən Cəbrayıl şəhərini dəfələrlə ağır artilleriya və minaatanlardan atəşə tutur.

Bundan başqa, işğalçı ölkə ordusu humanitar atəşkəs rejiminin yenidən elan olunduğu dövrdən bəri Ağdərə, Füzuli, Hadrut, Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərib. Bütün hallarda işğalçı ölkə ordusunun bölmələri Silahlı Qüvvələrimiz tərəfindən qətiyyətlə dəf edilib və düşmən itki verərək geri çəkilməyə məcbur edilib.



• Saat 12:30-da cəbhənin Cəbrayıl istiqamətində Ermənistan silahlı qüvvələrinin "Su-25" hücum təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib.

• Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin son qüvvə kimi səngərlərə yerləşdirdiyi xüsusi təyinatlıların Azərbaycan əsgərinin həmləsinə tab gətirməyərək geri qaçmasını əks etdirən videogörüntüləri paylaşıb.

• Fövqəladə Hallar Nazirliyi Gəncədə düşmənin raket zərbələri nəticəsində dağılan binada axtarış-xilasetmə işlərinin yekunları barədə məlumat yayıb. Dağıntılar altından xəsarət almış 53 nəfərin və 13 cəsədin çıxarıldığı bildirilib.

• Azərbaycanın Müdafiə Nazirliyi Füzuli istiqamətində gedən döyüşlərdə düşmənin döyüş meydanında atıb qaçdığı hərbi texnika və silah-sursatın foto və videogörüntülərini paylaşıb.

• Saat 13:00-da Horadiz istiqamətində uçuşlar keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı məhv edilib.

• Cəbhə bölgəsindən yüz kilometrlərlə aralıda yerləşən Xızı rayonuna atılan raket Sitalçay qəsəbəsi ərazisində havada zərərsizləşdirilib.

***Mustafa KAMAL***
***XQ***

# Böyük Zəfərin poetik salnaməsi



**Milli mücadilə tariximizə qızıl hərflərlə yazılmış 2020-ci ildə Müzəffər Ali Baş Komandanımızın göylərə yüksələn dəmir yumruğu həyatımızı, yaşantılarımızı dəyişməklə bərabər, həm də poeziyamıza Zəfər və qəhrəmanlıq mövzusunu ərməğan etdi. İkinci Qarabağ müharibəsində neçə-neçə gənc şair və yazıçımız da “Bilsin ana torpaq, eşitsin Vətən...” deyərək döyüşlərə atıldı, qələmi və silahı ilə vuruşdu. Şəhadətə qovuşanları da var, sağ qayıdıb söz cəbhəsində “külüng” çalanları da. Onların əsərlərindən barıt qoxusu gəlir, şeir və hekayələrində Vətən sevgisi bayraq kimi uca tutulur.**

**Böyük Zəfərimizin 5 illiyi ərəfəsində Müqəddəs savaşın orijinal bədii salnaməsinin bəzi nümunələrini oxuculara təqdim edirik. Müəlliflər əsasən döyüşün hər üzünü görmüş şəhid və qazilər, eləcə də onların 44 günlük “Zəfər Yürüşü”nü həyəcanla izləmiş, duyğu və düşüncə süzgəcindən keçirmiş qələmdaşlarıdır.**



## Mən Vətənəm

Mən Vətənəm –
Adım bəlli, soyum bəlli, köküm bəlli.
Tarix boyu savaşaraq,
Verdiyim hər hökm bəlli.

Mən Vətənəm –
Kimlər bizə tələ qursa,
Oyununu pozacağam.
Bir gün gedib Göyçə göldə
Qarmağımı atacam –
Göyçənin qızıl balığın
Bişirəcəm Ərdəbildə...

Mən Vətənəm –
Sərhədimin ucu Təbriz;
Bir ucunda Göyçə gölü,
Bir ucunda Dərbəndim var,
Bir ucunda mavi dəniz...

Mən Vətənəm –
Parça-parça olmağıma baxmayın siz:
Hər parçada min şəhidim,
Hər parçada qan izim var -
Neçə-neçə sərkərdələr,
Neçə-neçə xan izim var...

Mən Vətənəm –
Qapınızı döydüyümdə
Düşünmədən açın... Mənəm!
Zəncan, Xoyam, Borçalıyam.
Şuşa mənəm!
Laçın mənəm!
Üfüqlərdə işıq saçan
Türk ulusu Turan mənəm!
Mən Vətənəm,
Vətən mənəm!

*Nicat FƏRMAN*

## Sən azadsan!



Saçımda anamın xınası,
yolların ayaqlarımçün duası,
gözlərimdə hələ bizim olmayan uzaqlıq
deyir:
Sən azadsan!
Sən azadsan!

Ayaqlarım cığırlara yalvarır;
Qarabağ,
biz sənin övladınıq,
ilk dəfə gördüyün övladlar.
uzağa at ayaqlarımızdan
bətnində gizlətdiyin minaları.

Sol döşüm üstdə
gəzdirdiyim məktəbli məktubu,
bizi zirehli gödəkçə kimi qoruyan
uşaq duaları.
körpə arzularıyla birgə döyünür
məktub altındakı ürəyim.

Füzuli, Cəbrayıl, Hadrut cəbhəsi...
Burda ulduzlarla deyil,
hər minamyot mərmisilə sayırıq
yarım qalan ümidləri,
anaların göz yaşını.
bir döyüşçü sevgilisinin
bətnində ölən arzusunu.

Günlərdir danışmırıq.
bilirəm, narahatsan, ana.
bəlkə gecələri ağlayıb,
şəklimlə ovunursan, ana.
səni Füzulidən eşidirəm, ana,
səni Cəbrayıldan görürəm, ana,
sənə Şuşadan əl yelləyirəm, ana.

Noyabrın dağ soyuğu,
Bumbuz olmuş bədənim,
barmağımda titrəyən tətiyim
və bizi qızınmağa çağırır
Şuşanın imisti ana qucağı.

Formamda şəhid qardaşlarımın qanı,
gözlərimdə 44 gecənin yuxusuzluğu,
bir az həyəcan, bir az da
sevinc tərinə qarışan geyimim.
təqvimdəki "8 noyabr"
Qarabağ torpağıyla, palçığıyla
büsbütün vətənləşən bədənimiz
və bizi gözləyən Azərbaycan
meydanlarda, ürəklərdə, gözlərilə hayqırır;
Sən azadsan!
Sən azadsan!
Qarabağ Azərbaycandır!

*Emin PİRİ*

## Kədərli gizlənpaç –

*Hekayə*



– Gəl öncə səni öpüm, sonra gizlənpaç oynayaq

– Gəl ata! Urra! – bunu deyib ata-bala biri-birinə sarıldılar. Artıq 4 yaşın içində olan uşaq hələ atasının onu belə öpüb-oxşadığını görməmişdi.

– Hə, sən yum, mən gizlənim.

…

– Ana, niyə atam çıxmır e-e-e. Hamı məktəbə atası ilə gedir. Daha oynamıram mən.

– Əziz oğlum, hər axşam sən yatanda atan gəlir, səni öpür, sənin üçün şokolad qoyur. Səhər sən durana yaxın yenə qaçıb gizlənir ki, sən onu “kustuklaya” bilməyəsən.

– Yox, daha şokolad istəmirəm, atamı istəyirəm.

…

– Ana, mən ikinci sinfə keçirəm. Atamı görə bilməyəcəyəm?

– Oğlum, oğ… – qəhərdən boğulurdu ana – sənə demək ist…

– Ana, narahat olma, məktəbdə atamın şəklini gördüm. Müəlliməm məni başa saldı. Dedi ki, atan şəhid olub.

– Bəli, oğlum, həmin gün atan özü bilirdi ki, çox ağır əməliyyata gedir…

*Vüsal HƏTƏMOV*

## Cəbhədən məktub



Sən mənə şərfini göndərmə daha,
Səngər beşik kimi istidir, qızım.
Vətən sənin kimi suyuşirindi,
Hamını özünə istədir, qızım.
Görsən darıxırsan, şəkillərə bax,
Körpə əllərini boynuma dola.
Boylan pəncərədən getdiyim yola,
Bu məni görməyə bəs edir, qızım.
Mən burda yaxşıyam, sən də yaxşı ol,
Bilim ki, sənin də günün şən keçir.
İnan, göndərdiyin bütün dualar
Gəlir başımızın üstündən keçir,
Allah başımızın üstədir, qızım.
Allah üstümüzdən çəkməsə əlin,
Birgə yandırarıq zəfər məşəlin.
Hamının qorxduğu zalım əcəlin
Boyu boyumuzdan bəstədir, qızım.
Əgər günün biri, geri dönməsəm,
Eşidə bilməsən atanın səsin,
Qorxma, ürəyinə qorxu düşməsin,
Atan ölməyibdi, xəstədi, qızım.

*Həsən KÜR*

## Mən əsgərəm

Bir ölüb, min dirilən, ulu Türkün özüyəm mən!
Min illərdir hökm sürən, bir ulusun iziyəm mən!
Azadlığa gedən o yol, cığır mənəm, o iz mənəm,
Sönməyən o çıraq mənəm, o köz mənəm!
Hər qarışı qana doymuş bu torpağın fədaisi,
Çiçəkləri Şəhid qoxan vətən mənəm!
Vətən üçün candan keçən, qandan keçən,
Şəhid olub qayasında bitən mənəm!
Mən əsgərəm!
Azərbaycan əsgəri!



Sinəsini torpağına sipər tutan,
Yağılara qan udduran əsgərəm mən!
Yumruqları dəmir olan,
Al bayrağa salam duran əsgərəm mən!
Mən əsgərəm!
Al günəşdən qüvvət alar tunc bədənim.
Torpağıma göz qoyanın, boynuna qılıncdır əlim!
Mən əsgərəm!
Ulu Türkün xilaskarı o boz qurdun özüyəm mən!
Qarabağın zənguləsi, azad yurdun səsiyəm mən!
Mən Şəhidəm, bir şanlı zəfər şəhidi!
Mən Şahidəm, bir şanlı tarix şahidi!

*Oğuz ALPARSLAN*

## Qarabağım



Verib sənə “söz”, gəlmişik,
Polad, Mübariz gəlmişik…
Qarabağım, biz gəlmişik,
Salam verir daşım, dağım.
Gözün aydın, Qarabağım!!!

Bülbüllərin gülə gəlib,
Tutaraq əl-ələ gəlib.
Xarı bülbül dilə gəlib,
Al-əlvandır solum, sağım,
Gözün aydın, Qarabağım!!!

Gözü qanlı qurdu gördüm,
Dəmir yumruq, ordu gördüm,
Xalq ayağa durdu, gördüm.
Cəngi eşitdi qulağım,
Gözün aydın, Qarabağım!!!

Biz tarixdə qalan izik,
Siz bizsiniz, biz də sizik.
Qəhrəmanlar eli bizik,
Çınqımdan yandı ocağım –
Gözün aydın, Qarabağım!!!

Yağı mənim qonşum olub,
Sanma ondan qorxum olub.
Uşaqlıqdan arzum olub
Şuşaya dəysin ayağım…
Gözün aydın, Qarabağım!

*Səbuhi QURBANOV*

## Ölümün rəngi



Əcəl baxmaz insanların yaşına,
Bilmək olmaz kim haracan yaşayar.
Yorulanda baş qoyduğum çiyinlər
Bir gün mənim tabutumu daşıyar.

Ölsəm, necə gözəl olar, İlahi,
Daha küsməz məndən dostlar, tanışlar.
Bu günəcən incitdiyim adamlar
Bir-bir məni ürəyində bağışlar.

Daha gərək qaranlığa öyrəşim,
Kimsə gəlib gözlərimi bağlasın.
Ayrılanda ağlamayan sevgilim
Öləndə də istəmərəm ağlasın.

Ağ rəng mənə lap əvvəldən yaraşır,
Nə yaxşı ki, kəfən rəngi ağ imiş.
O dünyada mən nə görsəm, yaxşıdır –
Bütün öldü bildiklərim sağ imiş...

*Kərəm AYDIN*

## Övladıyam



Müzəffər ordunun şanlı əsgəri,
Ərənlər yurdunun ər övladıyam!
Zalımın zülmünə təhəmmülüm yox,
Babəklər yurdunun hürr övladıyam!

Ustadım Nəsimi, sözümüz sözdü,
Ədalət, həqiqət bağrımda közdü,
Ziyadar dühası bir deyil, yüzdü,
Mövlalar yurdunun nur övladıyam!

Dərvişəm, müqqəddəs sayılır təkkəm,
Hülqumdan yuxarı dayanır öfkəm,
Od, ocaq diyarı tanınır ölkəm,
Alovlar yurdunun nar övladıyam!

Unutma, şah babam Xətai başdı,
Nadir şah, mətədə tərpənməz daşdı,
İlham, nə keçilməz sədləri aşdı,
İgidlər yurdunun nər övladıyam!

Tarixdə Nəbisi, Koroğlusu var,
Gen dünya yağıya daim olub dar,
Düşmən qarşımızda yenə oldu xar,
Aslanlar yurdunun şir övladıyam!

Göydən Yer üzünə ərməğan, payam,
Gündüzlər Günəşəm, gecələr Ayam,
Ən parlaq ulduzdan törəyən boyam,
Ozanlar yurdunun sirr övladıyam!

Ustacam, vətənim vətən içində,
Axıb duruluruq zaman köçündə,
Min bir anlamı var, adi “heç”in də,
Aqillər yurdunun pir övladıyam!

*Zaur USTAC*

## Qəm yemərəm



Əcəl, məni çox sınama,
Ömrüm yarım qalsın... amma,
Qalan ömrümü Anama
Verib ölsəm, qəm yemərəm.

Ordumuz alsa torpağı,
Önümdə diz çöksə yağı,
Kəfən əvəzi bayrağı
Geyib ölsəm, qəm yemərəm.

Ruhumu verib Tanrıya,
Göz yumaram bu dünyaya.
Mən Kəbəyə, Kərbəlaya,
Gedib ölsəm, qəm yemərəm.

Ən gözəl məqam zamanı,
Namazda salam zamanı.
Çönəndə İmam Zamanı
Görüb ölsəm, qəm yemərəm.

Bu fələyin hökmü qəti,
Görmədim haqq-ədaləti,
Sonda kəlmə-şəhadəti,
Deyib ölsəm, qəm yemərəm.

*Sərxan YOLÇUYEV*

---

*Səhifəni hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*

*Sosial gündəm*

# DOST Azərbaycana dünyada da dostlar qazandırır





**Ölkəmizdə sosial-iqtisadi sahədə həyata keçirilən inqilabi islahatlar, ilk növbədə, əhalinin rifahının yaxşılaşdırılmasına, vətəndaş məmnunluğuna yönəlib. Beynəlxalq səviyyədə təqdir olunan Azərbaycan xidmət brendi – DOST konsepsiyası müasir dünyanın sosial innovasiyalar sahəsində qabaqcıl təcrübələri sırasına daxil edilib. Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliynin beynəlxalq arenada qazandığı uğurlar ölkəmizin sivil imicinə əlavə nüfuz gətirir. Müsahibimiz Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədovdur.**

***– Fərid müəllim, DOST konsepsiyası dövlət sosial xidmətlərinin innovativ təqdimat üzərindən, vahid platformadan, tam şəffaf və operativ, vətəndaş rahatlığı və sadə prosedurlar əsasında göstərilməsinə xidmət edir. İstərdik ki, əvvəlcə DOST Agentliyinin fəaliyyəti və vətəndaşlara göstərilən xidmətlər barədə məlumat verəsiniz.***

– Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi yaradılıb. Vətəndaş məmnuniyyətinə doğru keyfiyyətcə yeni mərhələ açan DOST layihəsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsüdür. "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi"nin missiyası əhalinin əmək, məşğulluq və sosial müdafiə xidmətlərinə DOST mərkəzləri şəbəkəsi vasitəsilə müasir, operativ və elektron xidmətlərin tətbiqi ilə rahat çıxışını təmin etməkdir.

2019-cu il may ayının 9-da DOST Agentliyinin və ilk DOST Mərkəzinin açılışında Prezident İlham Əliyev sosial sahənin Azərbaycan üçün prioritet olduğunu, bu sahəyə çox böyük diqqət göstərildiyini qeyd edib. DOST Agentliyinin yaradılmasının bu istiqamətdə atılmış çox önəmli addım olduğunu vurğulayan dövlətimizin başçısı növbəti illərdə agentliyin fəaliyyətinin genişləndirilməsinin vətəndaşlar tərəfindən də çox yüksək qiymətləndiriləcəyinə əminliyini ifadə edib.

***– Dövlətin sosial siyasəti, bu sahədə xidmətlərə əlçatanlılığın təmin edilməsi məqsədilə yaradılan DOST infrastrukturunun ölkəboyu genişləndirilməsi davam etdirilir. Gələcək üçün hansı hədəflər müəyyənləşdirilib?***

– Agentliyin missiyası həssas qruplara dövlət qayğısının artırılması və vətəndaş məmnunluğunun təmin edilməsidir. Bu missiya innovativ həllərin tətbiqi ilə həyata keçirilir. Məqsədimiz sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələ açmaq, şəffaflıq və operativliyi təmin etmək, hər kəsə dost məramı ilə yanaşmaqdır. DOST mərkəzlərində ötən dövrdə 2,8 milyondan çox vətəndaşa xidmət göstərilib. Xidmətlərdən vətəndaş məmnunluğu səviyyəsi 98,2 faiz təşkil edir. DOST mərkəzləri şəbəkəsinin genişləndirilməsi istiqamətində görülən işlər də təqdirəlayiqdir.

Hazırda ölkə üzrə 5-i Bakıda, 1-i Abşeronda, 1-i Bərdədə olmaqla 7 DOST mərkəzi əhaliyə xidmət edir. Həmçinin Zəngilan rayonunun Ağalı kəndində "Smart DOST" məntəqəsi və Qarabağ Regional DOST Mərkəzinin Şuşa filialı fəaliyyət göstərir. Naxçıvan, Quba, Sabirabad, Sumqayıt, Gəncə və Masallıda DOST mərkəzlərinin qurulması üçün layihələr reallaşdırılır, təmir-tikinti işləri aparılır. İşğaldan azad edilmiş ərazilərimizə köçürülən sakinlərin də DOST xidmətləri ilə əhatə olunmaları üçün atılan addımların davamı olaraq bu ilin avqust ayında Qarabağ Regional DOST Mərkəzinin Kəlbəcər rayonunda DOST məntəqəsi istifadəyə verilib. Ümumilikdə, 14 regional DOST mərkəzi və ətraf rayonlar üzrə 64 kiçik filiallardan ibarət xidmət şəbəkəsi yaradılacaq və bütün ölkə əhalisinin DOST xidmətlərinə tam əlçatanlığı yaxın bir neçə il ərzində təmin olunacaq.

***– BMT tərəfindən "İnnovativ ictimai xidmət həlləri" statusunda tanınan DOST təcrübəsini öyrənən ölkələrin sırası getdikcə genişlənir. Hansı ölkələr bu brendə daha çox maraq göstərir?***

– Yaxşı və nümunəvi xidmət həmişə maraq doğurur. İldən-ilə xidmət keyfiyyətini yüksəldən DOST Agentliyi Azərbaycan brendi kimi beynəlxalq səviyyədə də yüksək qiymətləndirilir. Artıq bir neçə ölkə DOST təcrübəsini öyrənərək onu tətbiq etməyə başlayıb. Hazırda Özbəkistanda ilk DOST mərkəzləri fəaliyyət göstərir. Bundan başqa, Moldovada pilot layihələr həyata keçirilir. Serbiyada və Rumıniyada isə DOST mexanizmi əsasında elektronlaşma dəstəyi verilir. Bu isə o deməkdir ki, Azərbaycan sosial sahədə xidmətlərin göstərilməsi istiqamətində artıq qabaqcıl ölkələrlə eyni sıradadır və öz təcrübəsini uğurla təqdim edir. Eyni zamanda, DOST modeli komponentlərinin tətbiqi istiqamətində Xorvatiya ilə işgüzar əlaqələr qurulub. DOST Agentliyi Birləşmiş Millətlər Təşkilatı, Avropa Sosial Şəbəkəsi, Beynəlxalq Sosial Təminat Assosiasiyası kimi mötəbər beynəlxalq qurumlarla, o cümlədən yerli təşkilatlar, ali təhsil müəssisələri və dövlət qurumları ilə də fəal əməkdaşlıq edir.

***– Qısa zamanda əhalinin etimadı və rəğbətini qazanan DOST konsepsiyası əmək, məşğulluq və sosial müdafiə sahələrində fəaliyyət göstərən beynəlxalq təşkilatlarda da yüksək dəyərləndirilir. DOST Agentliyinin layiq görüldüyü beynəlxalq mükafatların sayı da artır.***

– DOST Agentliyi fəaliyyətini Beynəlxalq Standartlaşdırma Təşkilatının (ISO) standartlarına uyğun tətbiq edilən "İnteqrəedilmiş menecment sistemi" əsasında qurur. Agentlik Keyfiyyət İdarəetmə Sistemi, Müştəri məmnunluğunun təmin edilməsi və Şikayətlərin İdarəedilməsi, Rüşvət əleyhinə idarəetmə sistemi və s. istiqamətlər üzrə ISO sertifikatlarına, həmçinin ötən dövr ərzində 30 beynəlxalq mükafat və sertifikata layiq görülüb. Onlardan 5-i birincilik, 9-u finalçı və 16-sı standart, keyfiyyət və mükəmməllik sertifikatlarıdır. Bu ilin 29 sentyabr - 3 oktyabr tarixində Malayziyanın Kuala Lumpur şəhərində keçirilən Ümumdünya Sosial Təminat Forumu DOST Agentliyi üçün əlamətdar olub.

Onu da bildirək ki, agentlik Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) "Xidmət keyfiyyəti" meyarı üzrə Mükəmməllik Sertifikatı ilə təltif olunub, forum çərçivəsində keçirilən Beynəlxalq Sosial Təminat Video Festivalında isə Fəxri Diplomla (Certificate of Merit) mükafatlandırılıb. Mükafatlar BSTA-nın prezidenti Məhəmməd Azman tərəfindən təqdim edilib. Bundan başqa, DOST Agentliyinin İdarə Heyətinin sədri BSTA "Sosial Təminat Siyasətinin Təhlili və Araşdırılması üzrə Texniki Komissiyası"nın sədri seçilib.

Qərar BSTA Bürosunun Malayziyanın Kuala-Lumpur şəhərində keçirilmiş 132-ci iclasında Assosiasiyanın Prezidenti Məhəmməd Azmanın irəli sürdüyü təqdimat əsasında qəbul olunub. 160-dan çox ölkənin qurumlarını birləşdirən BSTA sosial təminat sahəsində ən nüfuzlu beynəlxalq təşkilatlardan biridir. Bu qərar Azərbaycanın sosial siyasət və idarəetmə sahəsində qlobal miqyasda artmaqda olan nüfuzunun göstəricisidir.

***– Sosial xidmətlərin texnoloji gələcəyi necə təsəvvür edilir?***

– Oktyabrın 24-də ölkəmizdə sosial xidmətlərin gələcəyinə həsr olunmuş beynəlxalq tədbir – SOCGOV 2025 konfransı keçiriləcək. "İnsan və transformasiya üçün Süni İntellekt" mövzusunda baş tutacaq konfrans sosial xidmətlərin gələcək inkişafı, yeni idarəetmə yanaşmaları və beynəlxalq təcrübənin paylaşılması baxımından mühüm platforma olacaq. Hesab edirəm ki, tədbir Azərbaycanın sosial xidmətlər sahəsində qlobal əməkdaşlığa inteqrasiyasını gücləndirəcək.

SOCGOV 2025 sosial sahədə innovativ dövlət idarəetməsinə yönəlmiş qlobal təsir imkanı olan təşəbbüsdür. Konfransın keçirilməsində məqsəd yerli və beynəlxalq ekspertləri bir araya gətirməklə sosial xidmətlər sahəsində sürətli inkişaf perspektivlərinin qiymətləndirilməsi, innovativ yanaşmaların, süni intellekt alətlərinin və müasir texnologiyaların tətbiq edilməsi ilə gələcək inkişaf yollarının müəyyənləşdirilməsidir. Konfransdan sonra sosial sahədə yeni strateji yanaşmaların formalaşacağına, ölkəmizin bu istiqamətdə daha da nüfuz qazanacağına inanıram.

DOST-u beynəlxalq səviyyədə daha da tanınan və nümunə götürülən bir qurum kimi formalaşdırmaq üçün bu tip tədbirlərin keçirilməsi olduqca vacibdir. SOCGOV 2025 sosial xidmətlərin gələcəyinə açılan yeni pəncərədir. Burada əldə olunacaq nəticələr Azərbaycanın sosial müdafiə sahəsindəki mövqeyini gücləndirməklə yanaşı, qlobal miqyasda da yeni əməkdaşlıqlar üçün zəmin yaradacaq. Dünyanın, təxminən, 20 ölkəsindən nümayəndə, o cümlədən 40-a yaxın ekspert mütəxəssis də konfransın işində yaxından iştirak edəcək.

Bu məclis vətəndaşların sosial müdafiəsində dayanıqlılıq və innovativlik mövzularını gündəmə gətirəcək. Ekspertlər rəqəmsal dövlət və süni intellektlə transformasiya, sosial xidmətlərdə süni intellekt və sosial inklüzivlik, həmçinin əmək bazarının gələcəyi, bacarıqların inkişafı və rəqəmsal sahibkarlıq mövzularında müzakirələr aparacaqlar. Konfransdan sonra sosial sahədə yeni strateji yanaşmaların formalaşacağına, ölkəmizin bu istiqamətdə daha da nüfuz qazanacağına inanıram.

***– Ətraflı məlumata görə təşəkkür edirik.***

*Müsahibəni qələmə aldı:*
***Mustafa KAMAL***
***XQ***

*Demoqrafik durum*

# Qarışıq nikahların sayı artır



## *Bu meyil milli genefondu dəyişə bilərmi?*

**Son illər ölkəmizdə başqa xalqların nümayəndələri ilə ailə quranların sayı artıb. Bu ilin 9 ayında Azərbaycan vətəndaşları ilə əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər arasında 1 570 nikah bağlanıb.**

Ədliyyə Nazirliyindən verilən məlumata görə, onlardan 858-i Azərbaycan vətəndaşı olan kişi, 712-si isə qadındır. Onu da qeyd edək ki, bir neçə il öncə əcnəbilərlə evliliklərdə əsasən Azərbaycan kişiləri üstünlük təşkil edirdisə, indi qadınların sayı onlara yaxınlaşıb. Statistikaya əsasən, nikahların çoxu Türkiyə, Rusiya, Gürcüstan, Ukrayna, Qazaxıstan, Pakistan vətəndaşları ilə bağlanıb.

Ən çox müzakirə doğuran məqamlardan biri "genefondun dəyişməsi" təhlükəsidir. Bu iddianın tərəfdarları hesab edirlər ki, əcnəbilərlə evliliklər milli kimliyimizi, dilimizi və mədəni dəyərlərimizi zaman-zaman unutdura bilər. Maraqlıdır, həmyerlilərimizin əcnəbilərlə getdikcə daha çox ailə qurmasının səbəbi nədir? Artmaqda olan bu evliliklər, doğrudan da, demoqrafik balansın pozulmasına və milli adət-ənənələrimizin dəyişməsinə gətirib çıxara bilərmi?

**10 ildən çoxdur Türkiyə vətəndaşı ilə nikahda olan həmsöhbətimiz Fatimə İsayeva dedi:**

– Həyat yoldaşım Halitlə sosial şəbəkədə tanış olmuşam. Bir müddətdən sonra onun xasiyyətini o qədər bəyəndim ki, evlilik təklifini tərəddüdsüz qəbul etdim. Bu gün verdiyim qərara görə peşman deyiləm.

**7 ildir ukraynalı xanımla ailə quran Natiq Rzayev də həyatından razı olduğunu söylədi:**

– Məncə, problem başqa millətdən olan birisi ilə ailə qurmaqda deyil, problem insani hisslərdə, əxlaq və tərbiyədədir. Hər yenilik cəsarət istər, mən də qorxmadım və peşman olmadım.

Ekspertlərin fikrincə, belə evliliklərin çoxalmasına səbəb son dövrlər xaricdə təhsil alan və çalışanların sayının əhəmiyyətli dərəcədə artmasıdır. Bu isə onların müxtəlif millətlərdən olan insanlarla daha çox ünsiyyətdə olmalarına, nəticədə ailə qurmalarına gətirib çıxarır. Bundan əlavə, sosial media, beynəlxalq proqramlar, eləcə də turizm əlaqələri insanların fərqli millətlərdən olan şəxslərlə tanışlığını asanlaşdırıb. Bəziləri isə düşünür ki, əcnəbilərlə nikah həm dövrün tələbi, həm də iqtisadi problemlər və psixoloji amillərlə əlaqədardır. Mülki vətəndaşlar arasında əlaqələrin genişlənməsi və ölkəmizin beynəlxalq aləmə inteqrasiyası bu cür nikahların sayının artırır.

**Həmsöhbətim psixoloq Vəfa Fazilova qarışıq nikahlara səbəb olan bir neçə amili misal gətirdi:**



–Müasir dövrün tələbi ilə təhsil və iş imkanlarının artması, səyahətlərin, beynəlxalq layihələrin çoxalması nəticəsində fərqli mədəniyyətlərdən olan insanlar bir-biri ilə daha sıx münasibət qururlar.

Bu da, təbii olaraq, emosional və mədəni əlaqələrə çevrilir. Burada seçimlər artıq "millətə görə" deyil, daha çox düşüncə tərzinə, emosional və intellektual uyğunluğa görə edilir. Bəzi hallarda isə bu evliliklər qadının emosional təhlükəsizlik, dəyər görmək və şəxsiyyətinə hörmət ehtiyacı ilə bağlı olur. Yəni qadın yerli mühitdə bu hissləri tapmadığı halda onu başqa mədəniyyətlərdə axtarır.

Qızlarımız, xanımlarımız daha çox cazibəli, istiqanlı, ailəcanlı, şəfqət və incəliyi ilə seçilirlər. Əcnəbilərin əksəriyyətini bu xüsusiyyətlər cəlb edir. Çünki bir çox Qərb mədəniyyətlərində qadın və kişi rolları daha sərt, fərqlənməz hala gəlib. Qadınlarımız baxımlılığı, geyim tərzi ilə diqqət çəkir. Bəzən isə fərqli mədəniyyətdən olan insanları elə fərqlilik cəlb edir.

Gənc nəsil artıq yeni dəyərlərlə böyüyür – sərbəst düşünür, fərqli mədəniyyətlərə açıqdır. Onlar sevgini qarşılıqlı anlayışda görürlər. Bu səbəbdən qadınlar çox vaxt münasibətdə "hakimiyyət" deyil, "harmoniya" istəyirlər. Əlbəttə ki, artan belə evliliklər bir tərəfdən müasir dünya ilə uyğunlaşmanı göstərsə də, digər tərəfdən bəzi risklər daşıyır.

Psixoloq onu da qeyd etdi ki, milli mentalitet baxımından zəngin adət-ənənələrimiz, ailə dəyərlərimiz fərqli mədəniyyətlərin təsiri ilə dəyişə bilər. Təbii ki, bəzi dəyişikliklər qaçılmazdır. Əsas odur milli ailə və mənəvi dəyərlərimiz qorunsun.

**Sosioloq Naib Niftəliyev isə dedi ki, belə evliliklərin çoxalması demoqrafik balansın dəyişmə riskini artıra bilər:**

– Ailə qurub xaricə gedənlərin müəyyən qismi orada məskunlaşır və demoqrafik struktur dəyişir. Statistikaya görə, daha çox xanımlar xarici vətəndaşlarla ailə qurur;



bu nisbət, təxminən, birə üçdür. Türkiyə və qismən Pakistan bu prosesdə ön sıradadır, postsovet ölkələrində isə göstərici bir qədər aşağıdır. Son illərdə azərbaycanlı xanımların Türkiyə vətəndaşları ilə evliliyi kütləviləşib, bu isə demoqrafik və gender balansı baxımından arzuolunan deyil.

Sosioloqun sözlərinə görə, qarışıq nikahlar genetik saflığı, dil, mədəniyyət və milli kimliklə bağlı münasibətləri dəyişə, qloballaşmanı sürətləndirə bilər:

– Bunun qarşısını almaq üçün milli ailə modelinin təbliği, ailə institutunun sosial-iqtisadi dəstəklənməsi və yerli ailələrə güzəştlərin göstərilməsi vacibdir. Qloballaşma dövründə qarışıq ailə modeli dünyada üstünlük qazanır və buna hazır olmaq lazımdır. Burada əsas mexanizm məsələnin milli maraqlar çərçivəsində həllidir ki, bu da ailə siyasətinin vacib amildir. Düşünürəm ki, düzgün ailə siyasəti və rasional yanaşmalarla bu məsələlərin həlli mümkündür.

**Sosioloq Üzeyir Şəfiyev isə mövzuya başqa bir yöndən yanaşdı:**



– Keçmişdə belə bir fikir formalaşmışdı ki, Azərbaycan kişisi başqa millətdən olan qadınla evlənməz, Azərbaycan qadını da əcnəbi kişi ilə ailə qurmaz. Bu, əslində, ənənəvi cəmiyyətin qoruyucu miflərindən biri idi. Lakin zamanla cəmiyyətin qapalı xarakteri dəyişdi, liberal dəyərlərin təsiri artdı. Xarici ölkələrlə əlaqələr genişləndi, internet və sosial media insanların dünyagörüşünə təsir edərək mədəni sərhədləri aradan qaldırdı. Bunun nəticəsində cəmiyyətin fərd üzərindəki nəzarəti xeyli azaldı, sosial stereotiplər və arxetiplər funksionallığını itirdi. İnsanlar daha çox fərdi, bəzən isə eqosentrik və liberal seçimlər etməyə başladılar.

Statistika göstərir ki, bu gün Azərbaycan qadınları da əcnəbilərlə nikah bağlamaqda kişilər qədər meyilli olublar. Əcnəbilərlə ailə qurmağın müxtəlif səbəbləri var. Onlardan biri xarici ölkədə daimi yaşamaq, orada oturum və ya vətəndaşlıq əldə etmək istəyidir. Digər səbəb isə seçim azadlığı ilə bağlıdır. İnsanlar artıq kiminlə evlənəcəklərinə dair qərarı daha çox öz istəklərinə əsasən verirlər, ictimai rəyə o qədər də bağlı deyillər. İmkanlı xaricilərlə ailə qurub maddi durumunu yaxşılaşdırmaq istəyənlər də olur.

**Sosioloq bu tendensiyanın müəyyən mənada narahatedici cəhətlərinin də olduğunu vurğuladı:**

– Düşünürəm ki, əcnəbilərlə evliliklərin artması çox da ürəkaçan hal deyil. Bu proses dinamik şəkildə yüksələrsə, gələcəkdə xoşagəlməz hal yarana bilər. Burada bir neçə təhlükə var. Əvvəla, genefondun qorunması baxımından müəyyən təhlükə gözlənilir. Çünki əcnəbilərlə qurulan ailələrdə tərbiyə, dəyərlər sistemi və ailədaxili münasibətlər fərqli olur. Nəticədə, ailə institutumuz özünəməxsus xüsusiyyətlərini, milli özəlliyini itirə bilər.

Mütəxəssislərdən bəziləri hesab edir ki, genefond təkcə bioloji deyil, həm də mədəni, mənəvi və sosial anlayışdır. Əgər ailə sağlam əsaslara qurulubsa, uşaqlar Azərbaycan dilində tərbiyə alırsa və milli kimliklə böyüyürsə, burada təhlükədən çox, mədəni zənginlikdən danışmaq olar.

Bütün bunlar onu deməyə əsas verir ki, milli mentaliletin min illər boyu hifz etdiyi özünəməxsus adət-ənənələrimiz bu gün yavaş-yavaş dəyişikliyə uğrayır. Görünən odur ki, sivilizasiyalar, mövcud siyasi, iqtisadi, mədəni və sosial durum digər xalqlar kimi azərbaycanlılardan da təsirsiz ötüşmür.

***Elenora HƏSƏNOVA***
***XQ***

*XQ-yə yazırlar*



## "Xalq qəzeti" – Xalqın qəzeti

**Hörmətli oxucular! Qəzetimizin 7 oktyabr 2025-ci il tarixli nömrəsindən həmin ərəfədə redaksiyamıza daxil olan oxucu məktublarından nümunələr dərc etməyə başlamışıq. XQ-nin bu ənənəni dirçəltməsini razılıqla qarşılamağınızı bizə ünvanladığınız yeni rəy və təklifləriniz təsdiq edir.**

Qəzetimizin məktublar və ictimai rəy xidməti bundan sonra oxucularla əlaqələri daha da gücləndirəcək. Fəal oxucu təşəbbüskar və diqqətli vətəndaş deməkdir. Biz birgə səylərlə həyatda, məişətdə üzləşdiyimiz nöqsan və kəm-kəsirlərin aradan qaldırılmasına çalışmaqla, həyatımızın rahat və mənalı olmasına daha çox fayda verə bilərik.

Əziz oxucular, bir daha deyirik: bizə yazın, arzu, təklif və iradlarınızı bildirin. XQ öz səhifələrində xalqın səsinin daha yaxşı eşidilməsi üçün əlindən gələni etməyə hazırdır. Siz də əminsiniz ki, "Xalq qəzeti" xalqın qəzetidir!

***Redaksiyadan***

## Milli elmimizin aynası

**Hörmətli redaksiya!**

**AMEA-nın və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Fizika İnstitutunun yaranmasının 80 illik yubileyi münasibətilə XQ-də silsilə yazılar işıq üzü görüb. Bu tendensiya bu gün də davam edir və bizi çox sevindirir, qürurlandırır.**

Hesab edirəm ki, Azərbaycan elminin inkişafını daim diqqət mərkəzində saxlayan redaksiyanızın bu sahədəki fəaliyyəti, təkcə informasiya dəstəyi kimi deyil, həm də elmi maarifləndirmə missiyasının tərkib hissəsi kimi qiymətləndirilməlidir. Qəzet ilə elmin, alimin dostluğu cəmiyyətin xeyrinədir.

Əminik ki, kollektiviniz gələcəkdə də ölkəmizin informasiya məkanının sağlamlaşdırılması, milli maraqlarının qorunması istiqamətində yorulmadan fəaliyyət göstərəcək, yeni dövrün çağırışlarına uyğun şəkildə öz peşəkar yolunu davam etdirəcək. Qələminiz hər zaman iti, sözünüz dəyərli, yolunuz açıq olsun!

Hörmətlə:

***Arif HƏŞİMOV,***
***AMEA-nın akademiki***

## "Rahat" market işçilərinin narahatlığı

**"Xalq qəzeti"nin redaksiyasına!**

**Biz, Mərdəkan yolunda yerləşən "Rahat Gourmetmarket"in əməkdaşları adından sizə müraciət edirik. Neçə ildir ki, çalışdığımız marketin yerləşdiyi ərazidə avtobus dayanacağı yoxdur. Ən yaxın avtobus dayanacağı, təxminən, 2 kilometr uzaqlıqda yerləşir. Biz bu məsafəni hər gün piyada qət etmək məcburiyyətində qalırıq.**

Biz dəfələrlə bu məsələ ilə bağlı Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) rəhbərliyinə müraciət etmişik. Hər dəfə "araşdırılacaq", "baxılacaq" və s. bu kimi başdansovdu cavablar veriblər. AYNA rəhbərliyi sadə bir problemi müşkülə çevirib. Onlar bizim işdən çıxanda xeyli məsafəni necə yorğun-arğın, deyinə-deyinə qət etdiklərimizi görsəydilər, bəlkə də insafa gələrdilər. Əllərində yük olanların işi lap çətin olur. Bunun yağışı, qarı, soyuğu var!

Ümid edirk ki, sevimli "Xalq qəzeti" öz səhifələrində bu problemi işıqlandıraraq həllinə nail olacaq. Əvvəlcədən təşəkkür edirik.

Hörmətlə:

***Günay İSMAYILOVA,***
***Xəyalə MUSTAFAYEVA,***
***Sevinc HƏŞİMOVA,***
***Esmira ƏLİYEVA,***
***Emin QULİYEV,***
***Hidayət AĞABABAYEV***
***və başqaları.***

## Məktəbli çantaları niyə ağırdır?

**Hörmətli redaksiya!**

**Bu məktubu bir valideyn kimi dərin narahatlıq hissi ilə yazıram. Son illər hamı görür və müşahidə edir ki, məktəblilər, xüsusilə ibtidai sinif şagirdləri yaşlarına, güclərinə uyğun olmayan çox ağır çantalarla məktəbə gedib-gəlirlər. Çox vaxt da onların çantalarını valideynləri, nənə və babaları daşıyırlar.**

Mən bu məsələ ilə bağlı kiçik bir araşdırma da aparmışam. İbtidai sinif şagirdlərinin gündəlik dərs proqramına azı 5-6 fənn daxil olur və hər fənn üçün nəzərdə tutulan dərsliklər və iş dəftərləri kifayət qədər qalın olduğu üçün ağırdır. Bundan əlavə, müəllimlər uşaqlardan ev tapşırıqları üçün əlavə dəftərlər, test topluları və s. tələb edirlər. Bu isə uşaqların daşıdığı yükü (oxu: valideynlərin - red.) daha da artırır.

Mən 2-ci sinif şagirdinin anasıyam. Düşünürəm ki, hər bir problemin həll yolu var və sadəcə, onu tapmaq lazımdır. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ibtidai siniflərdə dərs yükünü azaltsa, dərsliklərin elektron versiyalarının istifadəsini genişləndirsə, vəziyyət xeyli yaxşılaşar.

***Kübra BAĞIROVA,***
***Xəzər rayonu sakini***

***Məktubları çapa hazırladılar:***
***Nurəngiz ADİLQIZI,***
***Məsaim HACIXANLI,***
***XQ***




## “AZIREX-2025” birgə təlimi başa çatıb



**Azərbaycan və İran Hərbi Dəniz Qüvvələrinin iştirakı ilə keçirilən “AZIREX-2025” birgə axtarış-xilasetmə təlimi uğurla yekunlaşıb.**



Təlim çərçivəsində qarşıya qoyulmuş tapşırıqlar hər iki ölkənin hərbi qulluqçuları tərəfindən dəqiqliklə yerinə yetirilib. Plana uyğun olaraq, mərhələlər üzrə qarşılıqlı əlaqədə icra olunan fəaliyyətlər zamanı iştirakçılar yüksək döyüş hazırlığı nümayiş etdiriblər.



Təlim rəhbərləri şəxsi heyətin peşəkarlığını və hazırlıq səviyyəsini yüksək qiymətləndiriblər.

***XQ***

*Xuntaçıların məhkəməsi*

# Azərbaycanın suverenliyi əleyhinə cinayətlər



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 17-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Əvvəlcə hakim Zeynal Ağayev bildirib ki, iş üzrə zərərçəkmiş şəxs qismində tanınmış bir qrup şəxs məhkəməyə müraciət ünvanlayaraq üzrlü səbəbdən prosesdə iştirak edə bilmədiklərini, ibtidai istintaq zamanı verdikləri ifadələrini təsdiqlədiklərini və iclasda elan olunmasını xahiş ediblər.

Tərəflər həmin zərərçəkənlərin ibtidai istintaq zamanı verdikləri ifadələrinin məhkəmədə elan olunmasına etiraz etməyiblər.

Z.Ağayev deyib ki, həmin ifadələr növbəti iclaslarda elan olunacaq.

Sonra məhkəmə iclası sənədlərin elan olunması ilə davam etdirilib.

Belə ki, təqsirləndirilən şəxslər Arayik Harutyunyan, Bako Sahakyan, David Babayan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan, Levon Mnatsakanyan və digərlərinin bir sıra internet informasiya resurslarına müsahibələri, keçirdiyi görüşlərdə açıqlamaları və səsləndirdikləri fikirlər, eləcə də sosial şəbəkələrdə paylaşımları əsasında sənədlər tədqiq olunub.



Sənədlərə əsasən, həmin müsahibələrdə, açıqlamalarda, çıxışlarda, paylaşımlarda xalqlar arasında etnik, milli və dini düşmənçiliyin yayılmasına zəmin yaradan çağırışlar, Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi əleyhinə çıxışlar və digər cinayət xarakterli məlumatlar, habelə müharibəyə və terrorçuluq törədilməsinə dair çağırışlar əksini tapıb.

Sənədlərin elanı başa çatdıqdan sonra iclasa sədrlik edən təqsirləndirilən şəxslərə həmin sənədlərə münasibət bildirmələri üçün söz verib.

Təqsirləndirilən şəxs L.Mnatsakanyan çıxış edərək, onun Cıdır düzündə erməni jurnalistə verdiyi müsahibənin yenidən tədqiq olunmasını istəyib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov həmin müsahibənin ötən məhkəmə iclaslarının birində təqsirləndirilən şəxslərin dindirilməsi zamanı nümayiş etdirildiyini və Levon Mnatsakanyanın da bununla bağlı dövlət ittihamçılarının suallarını cavablandırdığını deyib. Vurğulayıb ki, sözügedən müsahibə həmin iclasda tədqiq olunanda Levon Mnatsakanyan razılaşmadığı hissələrə dair fikirlərini bildirib və bu, iclas protokolunda da öz əksini tapıb. Dövlət ittihamını müdafiə edən prokuror həmin sübutun yenidən tədqiqinə ehtiyac olmadığını deyib və məhkəmədən qeyd olunanların nəzərə alınmasını xahiş edib.

Bundan sonra hakim Zeynal Ağayev sözügedən videomüsahibənin nümayiş olunduğu iclasın protokolundan Levon Mnatsakanyanın narazılığını bildirdiyi hissəni elan edib.

Ardınca təqsirləndirilən D.İşxanyan məhkəməyə müraciət edərək, Ermənistanın müdafiə nazirinin sabiq müavini Manvel Qriqoryanın mediaya müsahibəsinin videosuna baxmağa şərait yaradıldığını bildirib.

Qeyd edək ki, D.İşxanyan əvvəlki məhkəmə iclasında həmin videonun təqsirləndirilən şəxslərə verilən planşetə yüklənməsini istəmişdi.

D.İşxanyan, həmçinin qondarma rejimin “ordusunun qərargah rəisinin müavini” Kamo Vardanyanın imzaladığı məxfi sənədin surəti ilə tanış olmaq istəyib.

Əmrin surəti tanış olmaq üçün təqsirləndirilən şəxsə təqdim edilib.

Bundan başqa, təqsirləndirilən şəxslər Davit İşxanyan və David Babayan elan edilmiş sənədlərdə göstərilən bir çox xüsusatla razı olmadıqlarını bildirdilər.

Təqsirləndirilən şəxs A.Qukasyan çıxışında elan olunan sənədlərlə bağlı növbəti məhkəmə iclasında münasibət bildirməsinə şərait yaradılmasını məhkəmədən xahiş edib.

Hakim Zeynal Ağayev xahişin nəzərə alınacağını bildirib.

Məhkəmə prosesi oktyabrın 20-də davam etdiriləcək.

***XQ***

# BP-nin Üzeyir Hacıbəyli irsinin qorunmasına töhfəsi

**BP Azərbaycanın mədəniyyət tarixinin zirvəsində duran nəhəng şəxsiyyətlərdən biri, xalqın milli klassik musiqisinin və professional bəstəkarlıq məktəbinin banisi, ilk milli operanın müəllifi, görkəmli maarifçi, dramaturq və publisist Üzeyir bəy Hacıbəylinin anadan olmasının 140 illiyini Azərbaycan xalqı ilə birlikdə bayram edir.**




Şirkət bu əlamətdar hadisə münasibətilə dahi bəstəkarın misilsiz irsinin qorunmasına töhfə olan xüsusi kitablar komplektinin nəşrinə dəstək verib. Layihə Azərbaycanın mədəni irsinin, o cümlədən onun zəngin tarixinin və əsrarəngiz sənət xəzinəsinin təbliği və tədqiqinə dəstək istiqamətində BP-nin davamlı öhdəliyini əks etdirir.




Yeni nəşrlər şirkətin Üzeyir Hacıbəylinin xatirəsinə həsr edilmiş tədbirində ictimaiyyətə təqdim olunub. Təqdimat mərasimində, həmçinin bəstəkarın şah əsərlərindən ibarət konsert proqramı da yer alıb.

Yeni təqdim olunan nəşrlər isə Üzeyir Hacıbəylinin indiyə kimi çap olunmamış əsərlərindən ibarət nəşrlər komplekti (2 kitab), bəstəkarın həyat və yaradıcılıq yolunu əks etdirən fotoalbom, Üzeyir Hacıbəylinin Bakıdakı ev-muzeyi üçün məlumat kitabçası daxildir.

BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: “Bu nəşrləri təqdim etmək bizim üçün böyük şərəfdir. Bu, Üzeyir Hacıbəylinin möhtəşəm irsinə və Azərbaycanın milli musiqisinə verdiyi əvəzsiz töhfələrə dərin ehtiramımızın ifadəsidir. Onun milli musiqimizin ruhu və nəfəsi ilə yoğrulmuş və dünya musiqi ritmləri ilə zənginləşdirilmiş, dərin sənət ustalığı və emosional dolğunluqla yaradılmış əsərləri bu gün də həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda insanları ruhlandırır. Ümid edirik ki, bu nəşrlər Üzeyir bəyin nəhəng irsinin və onun yalnız bir bəstəkar kimi deyil, həm də böyük alim və publisist kimi gələcək nəsillərin formalaşmasına zamansız təsir gücünün daim yaşamasına xidmət edəcək”.

Qeyd edək ki, ümumi dəyəri 127 min 560 manat (75 min 35 ABŞ dolları) olan bu layihə “Azərnəşr” tərəfindən həyata keçirilib. Bu məbləğ yeni nəşrlərin toplanması, hazırlanması və çapını, həmçinin konsert proqramının təşkilini əhatə edir.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 224 (30918) 18 oktyabr 2025-ci il, şənbə

## İDMAN

### Azərbaycan–Belçika 3:0



**Bakıda amputant futbolu üzrə Millətlər Liqasının C qrupunun oyunları başlayıb. "Bayıl Arenada" təşkil olunan açılış matçında Azərbaycan və Belçika komandaları üz-üzə gəliblər. Görüş Azərbaycan millisinin qələbəsi ilə yekunlaşıb–3:0. Komandamızın oyunçularından Fərhad Əyyubov (2 qol) və Sənan Hacıyev fərqləniblər.**

Dünən keçirilən digər oyunlarda İsrail Ukraynanı (2-0), Niderland isə Belçikanı (5-0) məğlub edib.

Qeyd edək ki, bu turnirin Azərbaycanda keçirilməsi ölkəmizdə mina probleminin dünyaya çatdırılması, minadan zərərçəkənlərin beynəlxalq idman platformalarına bir araya gəlməsi baxımından əhəmiyyətlidir.

### "Kəpəz"in ilk qələbəsi



**Dünən futbol üzrə Misli Premyer Liqasında VIII tura start verilib. İlk oyun günündə keçirilən 1-ci qarşılaşmada Şamaxıda eyniadlı komanda "Kəpəz"i qəbul edib. Bu oyuna qədər 9 xalla 7-ci pillədə qərarlaşan "Şamaxı" xalı olmayan Gəncə klubuna məğlub olub–1:4. Görüşün 11-ci dəqiqədə Sezar Enrike meydan sahiblərini irəli çıxarıb–1:0. Bundan sonra "Kəpəz"in heyətində 34 və 39-cu dəqiqələrdə Fərid Nəbiyev, 67 və 85-ci dəqiqələrdə Luis Paçu fərqlənib. "Şamaxı" klubundan Abdullahi Şuaybu 45+1-ci dəqiqədə birbaşa qırmızı vərəqə alaraq meydandan qovulub.**

İkinci görüşdə isə "Azərsun Arena"da "Turan Tovuz" "Qarabağ"la qarşılaşıb. Bu oyuna qədər 15 xalla turnir cədvəlinə başçılıq edən Tovuz təmsilçisi ağdamlılara məğlub olub–1:2.

Qeyd edək ki, turun digər oyunları bu gün və sabah keçiriləcək.

### Mahir Emreli gedəcəkmi?



**Azərbaycan milli komandasının futbolçusu Mahir Emreli qış transfer pəncərəsində Almaniyanın "Kayzerslautern" klubundan ayrıla bilər. Yaxın günlərdə 28 yaşlı hücumçu ilə klub rəhbərliyi arasında görüş keçiriləcək. İclasda forvardın heyətə düşə bilməməsinin səbəbləri müzakirə olunacaq.**

İddiaya görə, fikir ayrılıqlarını aradan qaldırmaq mümkün olmasa, qarşılıqlı razılıq əsasında yollar ayrılacaq.

Qeyd edək ki, Mahir Emreli cari ilin yayında "Keyzerslautern"lə 3 illik müqavilə imzalayıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Bakıətrafı kəndlər*

# Saray–mənəvi dəyərlər sarayı

**Milli tarix və mədəniyyət, sadəcə, kitablarda deyil, həm də əsrlər boyu formalaşmış qədim yaşayış məskənlərində yaşayır. Sürətli urbanizasiya prosesinə baxmayaraq, Bakı kəndləri xalqımızın tarixi yaddaşını, adət-ənənələrini və mənəvi kimliyini hələ də qoruyub saxlayır. Bunlar isə keçmişlə gələcək arasında sağlam körpü rolu oynayır. Belə kəndlərdən biri də Abşeron yarımadasının qədim yaşayış məskənlərindən olan Saray kəndidir.**



Paytaxtdan 15-20 kilometr məsafədə, Xırdalan və Sumqayıt şəhərlərinin arasında yerləşən kəndin adı "böyük bina" mənasını verir. Bəzi mənbələrdə isə Xəzərin sahilində yerləşən möhtəşəm bir sarayın və ya böyük bir iqamətgahın olması ilə əlaqələndirilir.

**Saray kəndinin ən yaşlı və hörmətli sakinlərindən biri 80 yaşlı Əbdüləli dayı ilə həmsöhbət olduq. Uzun illərin sınağından çıxmış, kəndin tarixi hadisələrinin və adət-ənənələrinin canlı şahidi olan ağsaqqal bu gün Sarayın necə yaşadığını, illər boyu hansı dəyişikliklərdən keçdiyini bizimlə bölüşdü:**



– Qədimdə kəndin adı vaxtilə burada yerləşən böyük bir "Saray"la bağlı olub. Əslində, Sarayın sakinləri 4 dəfə köç ediblər, amma həmişə yaxın ərazilərə. İlk qədim məskən Ceyranbatan gölünün ətrafında salınıb. Orada böyük duz gölü olub və kənd də İpək yolunun üstündə yerləşən həmin o böyük sarayın yaxınlığında qurulub.

O vaxtlar ağsaqqal sözü kəndin yazılmamış qanunu idi. Onun nüfuzu fiziki güc yox, mənəvi sanbal, ağırlıq idi. İnsanlar ağsaqqala inanır, etibar edir, tabe olurdular. Əgər iki qonşunun arasında münaqişə, fikir ayrılığı yaranardısa, problemin aradan qaldırılması üçün ağsaqqal sözü kifayət edərdi. Onun sadəcə, "Ay bala, bəsdir, atalarımızın ruhuna yaraşmaz" – deməsi incikliyi ortadan qaldırardı. Toyda, yasda ağsaqqal oturmayan yerdə heç kim oturmazdı. Bizim evlərimiz o vaxtlar çiy kərpicdən tikilirdi, amma o evlərin içi məhəbbətlə, hörmətlə doluydu.

Sarayın torpağı çox münbit olub, bizim də əsas dolanışığımız bağçılıq, əkinçilik və heyvandarlıq idi. Təxminən, 6 min hektar ərazini əhatə edən kənddə üzüm, əncir, zeytun bol olurdu. Kəndimiz qumluq olduğu üçün əncir burada çox yaxşı bitərdi. Saray ənciri o vaxtdan dillər əzbəridi. Qadınlarımız o əncirləri toplayıb qaynadar, qabığını soyub "piskəndə" edər, doşab, sirkə, əncir qurusu hazırlayardılar.

Kəndimizdə "Voroşilov" adına kolxoz yaradılmışdı. O vaxtlar kolxozda taxıl istehsal olunurdu. Həmin dövrlərdə məhsul o qədər bol idi ki, nəinki öz kəndimizi, hətta Bakını da tam təmin edərdik. Elə bu səbəbdən kəndin torpağını "qızıl zəmi" adlandırırdılar. Təsərrüfatımız çoxşaxəli idi. Kənd camaatı həmçinin duz satardı.

İnsanlar bir-birinə dəstək olurdu, ona görə də ruzi-bərəkət vardı. Bu bərəkətin ən böyük sirri isə qonşuluq əlaqələrində idi. "Qonşu qonşunun külünə möhtacdır" deyimi bəlkə də elə buradan yaranıb. Kimsə ev tikəndə və ya ağır təsərrüfat işi olanda, kəndin kişiləri təmənnasız ona köməyə gedərdi. Qonşu xəstələnəndə onun bağı baxımsız qalmazdı – kəndin camaatı növbə ilə o bağa qulluq edərdi. Həm qazancda, həm mənəviyyatda birlik vardı.

**Müsahibimiz daha sonra bildirdi ki, əvvəllər səmimiyyət var idi, insanlar daha ünsiyyətcil və xoşrəftar idi. Toylar üç gün, üç gecə çəkərdi. Toy axşamı Saray camaatı toplaşar, hər kəs bacardığı qədər kömək göstərər, bütün kənd bayram edərdi:**

– Toy məclisi üçün böyük həyətlərdə geniş, bəzəkli mağar qurulardı. Bütün kənd bir ailə kimi qaynayıb-qarışardı. Qadınlar mətbəxdə fətir və şirniyyatlar hazırlayar, kişilər süfrələrin qurulmasında kömək edərdilər. Bu zaman maraqlı söhbətlər yaranar, böyüklər kiçiklərə nəsihət dolu hekayələr danışardı.

Milli bayramımız olan Novruzu çox təmtəraqlı keçirərdik. Çərşənbə axşamlarında papaq atmaq, qulaq falına çıxmaq kimi adətlər qəlbimizə böyük həyəcan gətirərdi. Hamı bir-birini canlı təbrik edər, "torpağınız bərəkətli olsun!", - deyərdilər. İndi isə insanlar bir-birini telefonla təbrik etməklə kifayətlənirlər. Bu, məsafəni qısaltsa da, qəlblər arasındakı məsafəni uzadıb.

**Əbdüləli dayı sonda dedi:**

– Gənclərə məsləhətim odur, müasir olsunlar, yenilikləri öyrənsinlər. Amma bir xahişim var: soy-kökünü unutmasınlar. Bakı kəndləri, sadəcə, evlərdən ibarət deyil, bura bizim əxlaq qalamızdır. Böyüyə hörmət etsinlər, kiçiyə qarşı mərhəmətli olsunlar. Ağsaqqal sözünə qulaq assınlar ki, həm torpaqlarımız, həm də süfrələrimiz ruzili-bərəkətli olsun.

Əbdüləli dayının bu nəsihəti ilə kənddən ayrıldıq. Bu kəndin milli adət-ənənələrimizi qoruyan, ailə dəyərlərinə hörmət edən Əbdüləli dayı kimi ağsaqqalların olması çox sevindiricidir.

*Arzu ƏLİYEVA*
*XQ*


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun struktur idarələrinə tələb olunan yumşaq inventarların (Lot-1 və Lot-2 üzrə) satınalınması məqsədilə açıq tender elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il oktyabrın 24-ü saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Mikayıl Useynov küç., 2*
**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1263.*

## Masallı "Dəmir Beton" ASC səhmdarlarının nəzərinə!

29 noyabr 2025-ci il saat 12:00-da Masallı "Dəmir Beton" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** ASC-nin 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin hesabatının müzakirəsi və təsdiqi

**2.** ASC-nin icra orqanının, müşahidə şurasının və təftiş komissiyası üzvlərinin yenidən seçilməsi

**3.** Digər məsələlər.

Səhmdarların növbəti ümumi yığıncağın gündəliyinə salınmış məsələlərlə bağlı gündəliyə əlavə təklifləri yazılı təqdim etmələri mümkündür.

**Əlaqə telefonu:** *070-272-22-75.*
**Ünvan:** *Masallı şəhəri, H.Sultanov küçəsi 98a.*

*Müşahidə şurası*


*HAVA*

# Bakıda yağmursuz, rayonlarda yağış və dolu

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin 17-dən 18-nə keçən gecə və səhər bəzi yerlərdə az çiskinli olma ehtimalı var. Şimal-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 13-16, gündüz 19-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi 769 millimetr civə sütunundan 766 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 75-80, gündüz 55-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.



Havanın temperaturu gecə 13-16, gündüz 18-23, dağlarda gecə 0-5, gündüz 5-9 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*


**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 9 oktyabr 2025-ci il tarixli 3-28/3-1-563/2025 nömrəli əmrinə əsasən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki aşağıdakı müəssisələrin ləğv olunması haqqında qərar qəbul edilmişdir:**

**1)** Gəncə Şəhər Təsərrüfathesablı Ailə və Nikah Məsləhətxanası.
**2)** Gəncə Şəhər Təsərrüfathesablı Reproduktiv Sağlamlıq və Ailə Planlaması Mərkəzi.
**3)** Gəncə Şəhər Körpələr Evi.

Bu məqsədlə ləğvetmə komissiyası yaradılmış və adıçəkilən müəssisələrin bütün maliyyə, hüquqi və təşkilati məsələlərinin tənzimlənməsi üzrə fəaliyyətə başlanılmışdır.

Müəssisələrin kreditorlarından mövcud borc tələblərini təqdim etmələri, debitorlarından isə müəssisələrə olan borclarını tam şəkildə ödəmələri xahiş olunur.

Müraciətlər bu elan dərc olunduğu gündən etibarən 2 (iki) ay müddətində yazılı şəkildə aşağıdakı ünvana təqdim edilməlidir:

**Əlaqə nömrəsi:** *012-441-26-03.*
**Ünvan:** *Bakı şəhəri, M.Mirqasımov küçəsi 1A.*
**E-mail:** *office@health.gov.az*


## ALLAH RƏHMƏT ELƏSİN!

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov və redaksiyanın kollektivi Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyevə əzizi

**QƏNİRƏ İSMAYILOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nəsimi Rayon İcra Hakimiyyətinin kollektivi Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Şadlinskiyə əzizi

**NADİR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyevə əzizi

**QƏNİRƏ İSMAYILOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3508
SİFARİŞ 1953
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00